Xalqın qəzeti!

# Xalq qəzeti

№ 105 (30799) 22 may 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Azərbaycan Türk dünyasının qardaşlıq körpüsüdür



Səhifə ⇨ 2

# "Orta güc"ün qətiyyəti

## Azərbaycan Avropa İttifaqı "dağlarını aşır"



**Avropa Siyasi Birliyinin mayın 16-da Albaniyada keçirilmiş növbəti – sayca 6-cı sammiti Azərbaycanın beynəlxalq aləmlə əməkdaşlıq xəttinin nəinki "köhnə qitə"də, ümumən dünya miqyasında qəbul edildiyinin təsdiqi baxımından yadda qaldı. Başqa sözlə desək, sammit ölkəmizin balanslı siyasət mövqeyinin qlobal fayda kasuzunu vurğuladı. Tam əminliklə deyə bilərik ki, bu nəticə Prezident İlham Əliyevin diplomatik məharətinin, səriştə və bacarığının təntənəsidir.**

ASB sammiti göstərdi ki, Azərbaycanın xarici aləmdəki nüfuzu artmaqdadır. Elə Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın Prezident İlham Əliyevlə Tiranada Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen ilə birgə görüşməsi hər şeyi deyir. Nəzərə alaq ki, üçlükdə görüş təklifi məhz Aİ rəsmilərindən gəlmişdi. Belə münasibət müştərəkliyi son dərəcə vacibdir. Çünki zaman-zaman Aİ strukturları daxilində Azərbaycana yanaşmada ikitirəliklər, hətta üçtirəliklər olub. Avropa Parlamentinin timsalında bunun hələ də qaldığını deyə bilərik. Qurum anti-Azərbaycan yönümlü qərəzindən və ermənipərəstliyindən qalmır.

**(ardı 5-ci səhifədə)**

# Prezident İlham Əliyevin Macarıstanda verdiyi ən böyük mesaj

## *Ermənistan və havadarları hansı nəticəni çıxarmalıdırlar?*

**Prezident İlham Əliyev Macarıstana işgüzar səfəri çərçivəsində mayın 20-də Baş nazir Viktor Orbanla mətbuata birgə bəyanatında Bakı – İrəvan sülh prosesinə dair bir sıra vacib məqamları qabartdı. Daha doğrusu, dövlətimizin başçısı həmin məqamların üzərində dayanmaqla, ölkəmizin prinsipial mövqeyini bir daha vurğuladı. Rəsmi Bakının sülhə indiki konkret baxışı nədən ibarətdir, bu barədə söz açacaq, bəzi nüansların təhlilini verəcəyik.**



Beləliklə, Azərbaycan lideri ölkəmizin müharibə apararaq, Ermənistanın 30 illik işğalına son qoyduğunu xatırlatdı. Hesab edirik ki, dövlətimizin başçısının bu fikri heç də ümumi ritorikadan irəli gəlmir. Prezident sülh prosesi baxımından sırf xronoloji ardıcıllığa söykənməkdən də uzaq idi və konkret mesaj verirdi. Mesajın nədən ibarət olduğunu sonda bildirəcəyik.

*

"Azərbaycan, eyni zamanda, dörd il yarım əvvəl müharibə aparan ölkə olmuşdur. Biz öz ərazimizdə müharibə aparmışdıq. Ermənistanın 30 illik işğalına son qoymuşduq. Düzdür, bizim müharibəmiz Rusiya – Ukrayna müharibəsi kimi 3 ildən çox yox, cəmi 44 gün ərzində aparılmışdır. Hər gün biz irəliyə gedirdik, bir addım geri atmamışdıq, ordumuzda bir dənə də olsun fərari olmamışdır. Ermənistan ordusunda isə onların özlərinin etirafına görə 12 min fərari olmuşdur".

Bəli, Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan öz ərazisində müharibə aparıb və qalib gəlib. Yəni, heç bir dövlətin ərazi bütövlüyünü pozmayıb, hansısa qonşusuna qarşı təcavüzkar niyyət güdməyib. Dünya birliyi mövcud məqamı nəzərə almalıdır. Digər tərəfdən, dövlətimizin başçısının Rusiya–Ukrayna müharibəsi fonunda müqayisə aparması da təsadüfi deyil. Hər kəsə yaxşı məlumdur ki, Avropa İttifaqı əvvəldən savaşı genişləndirmək istəmişdi. Qurum sülh naminə çalışmamışdır və prinsip etibarilə yenə eyni ampluadadır.

*

O zaman 44 günlük müharibənin ilk çağlarındakı vəziyyəti xatırlayaq. Avropanın müxtəlif institutları, o cümlədən ayrı-ayrı media orqanları Azərbaycanı, az qala, işğalçı kimi qələmə verirdilər. Elə təəssürat yaranırdı ki, sanki Ermənistan təcavüzə məruz qalan ölkədir. Bu sayaq yarıtmaz təqdimatlar havadan götürülməmiş, ermənipərəst mahiyyət daşıyan informasiya kirliliyi idarəolunan prosesə çevrilmişdi. Ortaya düşən "sülh göyərçinləri"nin məqsədi isə müharibəyə son qoymaq yox, onu daha qızğın müstəviyə çıxarmaq idi.

Bəli, həmin vaxt Rusiya – Ukrayna müharibəsinin hazırda aşkar olan mahiyyəti gündəmdə idi. Yəni, böyük ölçüdə Qərb Ermənistana dəstəyi Rusiyanın Cənubi Qafqazdan sıxışdırılması kontekstində görür, Azərbaycan hakimiyyətini ruspərəst qiyafəsində göstərərək reallığı təhrif edir, əsl həqiqətləri arxa plana atmağa, qlobal planlarını pərdələməyə səy göstərirdi. Yeri gəlmişkən, oxşar mənfi meyil 44 günlük müharibədən sonra da nəzərə çarpmışdı.

Lakin savaş günlərində Prezident İlham Əliyevin dünyanın media orqanlarına çoxsaylı müsahibələri, eləcə də ölkəmizdəki xalq-iqtidar vəhdəti dezinformasiya təmayüllərini və Azərbaycan cəmiyyətində nifaq yaratmaq cəhdlərini puça çıxardı. Müvafiq olaraq, ölkəmizin beynəlxalq miqyasdakı mənfi təqdimatının qarşısı alındı. Nəticədə müharibədə qalib gəlmək üçün Azərbaycana cəmi 44 gün yetdi.

Ancaq Ukraynada müharibə 3 ildən artıqdır davam edir və mövcud müstəvidə Aİ, ümumən kollektiv Qərb öz istəklərinə, müəyyən mənada, çatmağı bacarıb. Hər halda, Rusiyanın durumu qənaətbəxş sayıla bilməz. Tam əminliklə deyə bilərik ki, Azərbaycan 44 günlük müharibədəki qüdrəti və qətiyyəti ilə Cənubi Qafqazda Rusiya–Ukrayna müharibəsinin ssenarisinə oxşar "ssenarinin" gerçəkləşdirilməsinin qarşısını kəsdi. Dövlətimizin başçısının vurğuladığı ilk məqam, verdiyi mesajlardan biri məhz budur.

**(ardı 4-cü səhifədə)**

# Ermənistan Avropa Sülh Fondundan sülh yox, silah istəyir

**Mayın 20-də İrəvanda Avropa İttifaqının (Aİ) Şərqi Avropa və Mərkəzi Asiya dövlətlərindəki səfirlərinin regional seminarı keçirilib. Ölkənin xarici işlər naziri Ararat Mirzoyan seminarda "Ermənistan–Avropa İttifaqı münasibətləri: ümumi gələcəyin qurulması" adlı açılış nitqi söyləyib.**



Mirzoyan Ermənistanın Avropaya inteqrasiyası istiqamətində rəsmi İrəvanın atdığı addımlardan danışıb. Bildirib ki, bu seminarın İrəvanda keçirilməsi Ermənistan–Aİ tərəfdaşlığının artan dərinliyini nümayiş etdirir. Nazir ölkəsinin Aİ-yə inteqrasiyası, bununla bağlı 2025-ci ildə hakimiyyətin təşəbbüsü ilə qəbul edilmiş "Ermənistan Respublikasının Avropa İttifaqına üzvlüyü prosesinin başlanması haqqında" qanunu xatırlayıb. Bu kontekstdə Ermənistanın ABŞ-la strateji münasibətlərini fəal şəkildə gücləndirdiyini, cari ilin yanvar ayında superdövlətlə strateji tərəfdaşlığa dair hərtərəfli xartiya, martda isə Niderlandla strateji tərəfdaşlıq haqqında bəyannamə imzaladıqlarını, Böyük Britaniya ilə strateji dialoq qurduqlarını yada salıb, Şimali Avropa dövlətləri və Baltikyanı ölkələrlə əməkdaşlığın möhkəmləndirilməsi üçün böyük potensalın olduğunu vurğulayıb.

**(ardı 8-ci səhifədə)**

# Yüksək hədəflərə ortaq əzmlə

Səhifə ⇨ 8

# "Bağlı qapı" siyasəti ABŞ turizmini çökdürə bilər



Səhifə ⇨ 15

# Milli enerji strategiyamızın hədəfi – Dayanıqlı inkişaf və qlobal tərəfdaşlıq



Səhifə ⇨ 11

# Azərbaycan Türk dünyasının qardaşlıq körpüsüdür

## Prezident İlham Əliyevin Macarıstana işgüzar səfəri

# Budapeştdə Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü



**Mayın 21-də Macarıstanın paytaxtı Budapeştdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Macarıstanın Baş naziri Viktor Orban dövlətimizin başçısını qarşıladı. Əvvəlcə birgə foto çəkdirildi.**

Sonra Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü işə başladı.

Macarıstanın Baş naziri Viktor Orban bu Zirvə görüşünün əhəmiyyətinə toxundu. O, Azərbaycan-Macarıstan münasibətlərinin strateji səviyyədə olmasının xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayaraq dedi: “Mən Prezident Əliyevə səmimi-qəlbdən minnətdarlığımı bildirmək istəyirəm. Çünki ötən il Azərbaycandan Macarıstana ilk qaz nəql edilmişdir. Bu, əvvəllər heç vaxt baş verməmişdir, ilk dəfə idi ki, bu, baş verirdi. Cənab Prezidenti əmin edirəm ki, biz gələcəkdə bunun qarşılığını verə bilərik.

Macarıstanın böyük enerji şirkətlərinə Azərbaycanda neft və qaz sahəsində işləməyə imkan yaratdığına görə də Prezident Əliyevə təşəkkür etmək istəyirəm. Özümüzə məxsus enerji ehtiyatlarımız olmadığı üçün bu, bizim üçün yeni imkanlar açdı. Azərbaycan-Macarıstan münasibətlərinin strateji səviyyədə olması bizim üçün mühüm əhəmiyyət kəsb edir”.

Qırğız Respublikasının Prezidenti Sadır Japarov çıxışında tədbirin yüksək səviyyədə təşkilinə görə Macarıstan tərəfinə minnətdarlığını ifadə etdi.

Qırğız Respublikasının Macarıstanın Türk Dövlətləri Təşkilatına töhfələrini yüksək qiymətləndirdiyini vurğulayan Sadır Japarov bildirdi: “Biz keçən il rəsmi şəkildə təsis olunmuş Türk İnvestisiya Fondunun tezliklə layihə fəaliyyətlərinə başlayacağını gözləyirik və bu, irəliyə atılmış mühüm addımdır. Bu Fond ticarət, logistika, infrastruktur, rəqəmsal iqtisadiyyat, energetika, sənaye, turizm və sahibkarlıq kimi milli prioritetlərin dəstəklənməsi üçün mühüm mexanizm kimi xidmət edəcək. Müsbət təcrübənin əyani nümunəsi olaraq mən Qırğızıstanda fəaliyyət göstərən Qırğız-Azərbaycan, Qırğız-Özbək və Qırğız-Macar inkişaf fondlarının uğurlu nəticələrini məmnunluqla qeyd edə bilərəm”.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündə çıxış etdi.





### Prezident İlham Əliyevin çıxışı

– Hörmətli cənab Baş nazir.

Hörmətli dövlət başçıları.

İlk növbədə, qonaqpərvərliyə görə Baş nazir Viktor Orbana təşəkkürümü bildirirəm.

Azərbaycan ilə Macarıstan arasında əlaqələrin inkişafı məmnunluq doğurur. Bu, mənim Macarıstana 6-cı səfərimdir. Cənab Orban isə Azərbaycana 7 dəfə səfər etmişdir. Macarıstan Azərbaycanın etibarlı strateji tərəfdaşıdır.

Macarıstan müstəqil siyasət aparan ölkədir və beynəlxalq nüfuzu daim artmaqdadır. Əldə edilmiş bütün uğurlar münasibətilə Baş nazir Viktor Orbanı təbrik edirəm.

Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının keçən il Azərbaycanın təşəbbüsü ilə Şuşada ilk qeyri-rəsmi Zirvə görüşü keçirilmişdir. Şadam ki, bu təşəbbüsün davamı olaraq ikinci qeyri-rəsmi Zirvə görüşü təşkil edilir.

Prezident Sadır Japarovu Qırğızıstanın hazırda təşkilata uğurlu sədrliyinə görə təbrik edirəm.

Bu il Azərbaycan Türk Dövlətləri Təşkilatının rəsmi Zirvə görüşünə ev sahibliyi edəcək. Sizi Zirvə görüşündə iştirak etmək üçün Azərbaycana dəvət edirəm.

Azərbaycan, ümumilikdə, təşkilatın üzv ölkələrinə 20 milyard ABŞ dollarından çox sərmayə qoymuşdur. Bu il Türk İnvestisiya Fondunun rəsmi olaraq fəaliyyətə başlaması nəzərdə tutulur.

Türk dövlətləri ilə nəqliyyat sahəsində əməkdaşlığımız güclənir. Son illər ərzində Azərbaycanda nəqliyyat infrastrukturuna - avtomobil yollarına, dəmir yolu xətlərinə, dəniz limanına, gəmiqayırma zavoduna, hava nəqliyyatına böyük həcmdə sərmayələr qoyulmuşdur. Nəticədə, açıq dənizlərə çıxışı olmasa da Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilmişdir.

Türkiyənin və Mərkəzi Asiya dövlətlərinin Azərbaycan ərazisindən tranzit keçən daşımalarının həcmi 2024-cü ildə 11 milyon ton təşkil etmişdir.

Qonşu ölkələrlə yeni əməkdaşlıq formatları yaratmış, müştərək müəssisələr qurmuşuq. Orta Dəhlizin bir hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun daşıma qabiliyyəti keçən il Azərbaycanın vəsaiti hesabına 5 milyon tona çatdırılmışdır.

Orta Dəhlizin rəqəmsallaşdırılmasına böyük önəm veririk. Hazırda Xəzər dənizi limanları arasında nəqliyyat əməliyyatlarının və ticarətin sadələşdirilməsini nəzərdə tutan vahid rəqəmsal platformanın yaradılması layihəsi üzərində işlər davam etdirilir.

Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycan türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərir. Hazırda Bakı gəmiqayırma zavodunda 10 yeni gəmi inşa edilir. Ələt Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyəti 15 milyon tondan 25 milyon tona çatacaq.

Azərbaycanda 8 beynəlxalq hava limanı fəaliyyət göstərir. Sayca 9-cu hava limanı yaxın zamanlarda istifadəyə veriləcək. 9 beynəlxalq hava limanından 3-ü Azərbaycanın erməni işğalından azad edilmiş ərazisindədir. Həmçinin 1,5 milyon ton yük qəbuletmə imkanı olan karqo terminalı inşa edilir.

Hörmətli həmkarlar, bildiyiniz kimi, təxminən, 200 ölkənin yekdil qərarı ilə 2024-cü ilin noyabr ayında Azərbaycanda COP29 kimi mötəbər konfrans keçirilmişdir. Hazırlıq üçün cəmi 11 ay vaxt olmasına baxmayaraq, COP29-u yüksək səviyyədə təşkil etməyə nail olduq. Qeydiyyatdan keçmiş 77 min iştirakçı 197 ölkəni təmsil edirdi. Konfransda 70 dövlət və hökumət başçısı iştirak etmişdir. Azərbaycan COP29-da Qlobal Cənubla Qlobal Şimal arasında körpü qurmağa müvəffəq oldu. Bakıda qlobal iqlim gündəliyi ilə bağlı ciddi qərarlar qəbul edildi.

Əsas nailiyyət inkişaf etməkdə olan ölkələrə maliyyə yardımının 100 milyarddan 300 milyard ABŞ dollarına qədər artırılmasını nəzərdə tutan yeni maliyyə hədəfi barədə razılaşmadır. Bundan başqa, 10 il ərzində razılıq əldə edilməsi mümkün olmayan karbon bazarlarının tənzimlənməsi barədə konsensusa nail olundu, İtki və Zərər Fondu işlək vəziyyətə gətirildi.

COP29 böyük uğurlara imza atmış və tarixə “Bakı sıçrayışı” kimi daxil olmuşdur. COP29 zamanı Azərbaycan, Qazaxıstan və Özbəkistan dövlət başçıları tərəfindən yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq sazişi imzalanmışdır. Bu saziş ölkələrimizdə istehsal edilən yaşıl enerjinin Xəzər–Qara dəniz marşrutu ilə dünya bazarlarına ixracı üçün geniş imkanlar yaradır.

Çıxışımın sonunda Macarıstanı qeyri-rəsmi Zirvə görüşünün uğurlu təşkilinə görə təbrik edir, Türk Dövlətləri Təşkilatının fəaliyyətinə uğurlar arzulayıram.

Sağ olun.

*

Daha sonra çıxış edən Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev diqqətə çatdırdı ki, belə Zirvə görüşləri çağırışlarla bağlı addımların atılması üçün mühüm əhəmiyyətə malikdir.

Hazırkı mürəkkəb geosiyasi vəziyyətdə təşkilat daxilində əməkdaşlığın əhəmiyyətinin nəzərəçarpacaq dərəcədə artdığını vurğulayan Qazaxıstan Prezidenti qeyd etdi: “Bütövlüyümüzü gücləndirmək üçün türk xalqlarının birliyini və həmrəyliyini möhkəmləndirmək vacibdir. Qazaxıstan bununla bağlı bir sıra tədbirlər görüb, xüsusilə Naxçıvan Sazişinə düzəlişlərə dair protokolu ratifikasiya edib, Türk Dövlətləri Təşkilatına daimi nümayəndəsini təyin edib. Biz yaxın gələcəkdə daimi nümayəndəliyi açmağı planlaşdırırıq. Hazırkı vəziyyətdə enerji sektorunda əməkdaşlığa diqqət yetirmək vacibdir. Neft, qaz və uranın təchizat zəncirini şaxələndirmək üçün Təşkilatın potensialından istifadə etməyə ehtiyacımız var. Bununla əlaqədar, Qazaxıstandan Avropaya qaz ixracını artırmaq təşəbbüsünü dəstəklədiyinə görə mən Azərbaycan Prezidenti Zati-aliləri İlham Əliyevə səmimi-qəlbdən minnətdarlığımı bildirmək istərdim. Səylərimizin Türkiyə və Macarıstan tərəfindən alqışlanmasını və dəstəklənməsini yüksək qiymətləndiririk. Bundan əlavə, rəqəmsallaşma və informasiya texnologiyaları sahələrində əməkdaşlığın perspektivləri olduqca ümidvericidir. Bu il Qazaxıstan və Azərbaycan Xəzər dənizinin dibi ilə fiber-optik kabelin çəkilməsinə dair mühüm birgə layihəyə start verdilər. Bu layihə dövlətlərimiz arasında rəqəmsal bağlantını əhəmiyyətli dərəcədə genişləndirəcək və regional inteqrasiyanın gücləndirilməsinə xidmət edəcək. Bu cür təşəbbüslər məlumatların təhlükəsiz mübadiləsinə imkan verməklə Avrasiyada yeni rəqəmsal dəhlizin yaradılmasına yol açır”.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan isə Cənubi Qafqazda sabitliyin təmin olunmasında Azərbaycanın rolunu xüsusi vurğulayaraq dedi: “Dünyamız üçün strateji əhəmiyyətə malik Qafqaz bölgəsində yaşanan prosesləri diqqətlə izləyirik. Can Azərbaycanın Ermənistan ilə sülh müqaviləsi üzrə razılıq əldə etməsindən məmnunuq. İki ölkə arasında davamlı sülh əldə olunacağı təqdirdə, bu vəziyyət heç şübhəsiz ki, Türk dünyamız üçün bir çox fürsətlər yaradacaq. Bu baxımdan Müzəffər Prezident, əziz Qardaşım İlham Əliyevin bölgəyə sülhü gətirəcək Lider olaraq adını tarixə yazdıracağına əminəm”.

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev də Zirvə görüşündə çıxış edərək bildirdi: “Məlum olduğu kimi, ötən il biz Türk dövlətləri arasında strateji tərəfdaşlıq, əbədi dostluq və qardaşlıqla bağlı razılaşmanın işlənib hazırlanmasını təklif etdik. Bu gün bu sənədin əhəmiyyəti və aktuallığı daha da artır. Şübhəsiz ki, bu razılaşma xalqlarımızı bir-birinə yaxınlaşdırmağa töhfə verəcək və bizim çoxşaxəli əməkdaşlığımız üçün uzunmüddətli hüquqi bünövrə rolunu oynayacaq. Mən bu sənədin qarşıdan gələn Bakı Sammitində imzalanmasını təklif edirəm. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY dövlətlərimiz arasında mədəniyyət sahəsində əməkdaşlığın inkişafında xüsusi yerə malikdir. Hesab edirəm ki, bu sahədəki səylərimizi yeni səviyyəyə qaldırmaq və TÜRKSOY-un nüfuzunu daha da artırmaq üçün onun fəaliyyətini və strukturunu müasir tələblərə uyğun şəkildə təkmilləşdirmək lazımdır. Hesab edirəm ki, bununla əlaqədar xarici işlər və mədəniyyət nazirlərimizə buna dair təklifləri Bakı Sammiti üçün hazırlamaqla bağlı tapşırıq vermək məqsədəuyğun olar.

Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev isə Təşkilata üzv ölkələr arasında əməkdaşlığın inkişafından danışaraq dedi: “2025-ci ildə Bakıda gömrük orqanları rəhbərlərinin toplantısında “eTIR” sisteminin tətbiqinə və sadələşdirilmiş gömrük dəhlizi sazişlərinin texniki müddəalarına dair fəaliyyət planı qəbul edildi. Kosmik sektorda əməkdaşlığımız inkişaf edir. Bakıda keçirilmiş 4-cü görüşdə üzv ölkələr “CubeSat” layihəsini 2025-ci ilin sentyabrınadək tamamlamaqla bağlı razılığa gəldilər. Ümidvaram ki, bizim birgə peykimiz bu ilin sonunadək orbitə buraxılacaq.

Eyni zamanda, Türk kimliyi layihəsinə başlanılır. Bu, vətəndaşlara öz milli şəxsiyyət vəsiqələri ilə üzv ölkələrə səfər etməyə imkan verəcək. Türkiyə və Azərbaycan bu layihəni həyata keçirib. İndi biz bunu Mərkəzi Asiya regionunda tətbiq etməliyik. Həmçinin Şuşa Sammitində və TDT Katibliyinin büdcə və heyətinin artırılmasına dair işçi qrupun təklifi Bişkekdəki 11-ci Sammitdə razılaşdırılmışdır. Bu təklif üzv ölkələrin qarşıya qoyduqları vəzifələrin çoxalması ilə əlaqədar gələcək illərdə büdcənin əhəmiyyətli dərəcədə artırılması ilə bağlıdır. Bu təkliflərə əsaslanaraq dövlət başçılarına müvafiq tapşırıqlar verilib və bunlar da bu gün qəbul olunacaq Budapeşt Bəyannaməsində öz əksini tapacaq”.

*

Sonra Zirvə görüşündə sənədlər imzalandı.

# Azərbaycan Türk dünyasının qardaşlıq körpüsüdür

## TDT Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə Bəyannamə imzalanıb




**Mayın 21-də Macarıstanın paytaxtı Budapeştdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə Bəyannamə imzalanıb.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev tərəfindən imzalanmış Bəyannamə 71 bənddən ibarətdir.

Türk xalqlarının tarix boyu dünya sivilizasiyasına mühüm töhfələrini, o cümlədən Avropa və Asiyanın mədəni və siyasi cəhətdən formalaşmasında davamlı irsini, Türk dövlətlərinin dünyada müasir siyasi, iqtisadi və sosial tərəqqiyə, o cümlədən regional və qlobal sülh və təhlükəsizliyə təsir göstərməkdə mühüm rolunu vurğulayan dövlət başçıları TDT-nin təşkilatın institusional əsasını qoyan tarixi Naxçıvan Sazişinin prinsiplərinə, məqsədlərinə və ruhuna sarsılmaz sadiqliyini bir daha təsdiqləyiblər.

Türk dövlətlərinin regionda və onun hüdudlarından kənarda rolunu artıran siyasi, iqtisadi, ekoloji, sosial və mədəni nailiyyətləri təqdir edən prezidentlər "Türk Dünyası Xartiyası"nı türk xalqlarının ortaq mədəniyyətinin, adət-ənənələrinin, dilinin və tarixinin əsas ifadəsi və onların ortaq türk kimliyinin möhkəmləndirilməsi üçün birləşdirici çərçivə kimi tanıyıblar.

Qırğız Respublikasının sədrliyinin və Macarıstanın TDT-yə üzv dövlətlər arasında çoxşaxəli əməkdaşlığın daha da gücləndirilməsinə olan əzminin yüksək qiymətləndirildiyi Bəyannamədə müşahidəçi ölkə Macarıstan tərəfindən ilk dəfə keçirilən TDT-nin qeyri-rəsmi Zirvə görüşünə verilən böyük dəyər xüsusi vurğulanır.

Tərəflər Türk dövlətləri arasındakı böyük potensialdan və imkanlardan istifadə edərək, bütün sahələrdə həmrəyliyi, əməkdaşlığı və koordinasiyanı daha da gücləndirmək əzmində olduqlarını bildirir, Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Cümhuriyyətinin müşahidəçi qismində təşkilatın işinə dəyərli töhfələrini alqışlayırlar. Eyni zamanda, Kipr məsələsinin danışıqlar yolu ilə, qarşılıqlı məqbul və həyat qabiliyyətli həllinə nail olunmasının zəruriliyi qeyd edilir.

Üzv dövlətlərin birliyini və həmrəyliyini pozmağa yönəlmiş hər hansı hərəkət və təhdidlərin qarşısının alınmasının vacibliyi diqqətə çatdırılır.

Təşkilatın üzvləri regionda və onun hüdudlarından kənarda sülh və təhlükəsizliyə təhdid və çağırışlar yaradan terrorizm və transmilli mütəşəkkil cinayətkarlığın bütün formaları, terrorizmin maliyyələşdirilməsi və kibercinayətkarlıqla mübarizədə birgə səyləri davam etdirməyə sadiqliklərini bir daha təsdiqləyirlər. Bu kontekstdə Suriyanın ərazi bütövlüyü və birliyi əsasında təhlükəsizliyin və sabitliyin bərqərar olması, ona qarşı sanksiyaların aradan qaldırılması istiqamətində Türkiyənin konstruktiv rolu yüksək qiymətləndirilir.

Qəzzadakı fəlakətli humanitar vəziyyətdən dərin narahatlıq ifadə olunur, daimi və hərtərəfli atəşkəs, girovların, məhbusların azad edilməsi və Qəzzaya humanitar yardımların maneəsiz çatdırılması istiqamətində danışıqlara dəstək bir daha təsdiqlənir. İsrail-Fələstin münaqişəsinin BMT-nin müvafiq qətnamələrinə uyğun olaraq ikidövlətli həlli variantının zəruriliyi qeyd edilir. Həmçinin Əfqanıstanla bağlı məsələlər üzrə TDT-nin İşçi Qrupunun yaradılması təqdir olunur.

TDT çərçivəsində müdafiə sənayesi sahəsində məhsuldar çoxtərəfli əməkdaşlığı genişləndirmək niyyəti bir daha bəyan olunur və üzv dövlətlərin müvafiq orqanlarına bu məqsədlə səylərini sürətləndirmək tapşırılır.

İrqçiliyin, ayrı-seçkiliyin, ksenofobiyanın, İslama qarşı nifrətin, nifrət nitqinin və dezinformasiyanın bütün formaları ilə mübarizədə əməkdaşlığın davam etdirilməsi məqsədilə beynəlxalq platformalarda səylərin əlaqələndirilməsi öhdəliyi xatırladılır.

Qlobal miqyasda mədəniyyətlərarası dialoqun təşviqində qabaqcıl təşəbbüs kimi "Bakı Prosesi"nin uğuru yüksək qiymətləndirilir və Azərbaycan bu istiqamətdə davamlı liderliyinə görə təqdir edilir, 2026-cı ildə keçiriləcək VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkilinə dəstək ifadə olunur.

Türk Dövlətləri Təşkilatı Katibliyinin büdcəsinin əhəmiyyətli dərəcədə artırılması təklifi dəstəklənir, TDT-nin ilk birgə maliyyə institutu kimi yaradılmış Türk İnvestisiya Fondunun layihə fəaliyyətinə başlanmasının vacibliyi vurğulanır.

Türk Yaşıl Baxış prinsipləri rəhbər tutularaq, iqlim dəyişikliyinə və ətraf mühitin mühafizəsində davamlı yaşıl inkişafa sadiqlik bir daha təsdiqlənir, yaşıl enerji avadanlığının və texnologiyalarının inkişafının, iqlimədavamlı infrastrukturun, enerji səmərəliliyinin və tullantıların səmərəli idarə olunmasının təşviqinin vacibliyi qeyd edilir.

Azərbaycanın 2024-cü ilin noyabrında BMT-nin İqlim Dəyişikliyi Konfransının 29-cu sessiyasına uğurlu ev sahibliyi, o cümlədən onun əsas nəticəsi olan Bakı İqlim Birliyi Paktı, eləcə də COP29 Sədrliyi çərçivəsində həyata keçirdiyi təşəbbüslər təqdir olunur.

Region boyu yaşıl enerji dəhlizlərinin inkişafının vacibliyi qeyd edilir, yaşıl enerjinin inkişafı və ötürülməsi üzrə layihələrin həyata keçirilməsində irəliləyiş, Təşkilatın üzv dövlətlərinin hökumətləri arasında Sadələşdirilmiş Gömrük Dəhlizinin yaradılması haqqında Sazişin qüvvəyə minməsi alqışlanır.

Bəyannamədə TDT-nin müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlığının gücləndirilməsini təşviq etməyə, mümkün olduqda bir-birinin namizədliklərini, qətnamələrini, bəyanatlarını və beynəlxalq təşkilatlar çərçivəsində ortaq maraqlara əsaslanan digər təşəbbüsləri daha güclü qarşılıqlı əlaqələndirməyə və dəstəkləməyə çağırış ifadə olunur, o cümlədən Qırğızıstanın 2027-2028-ci illər üçün BMT Təhlükəsizlik Şurasına və ECOSOC-un 2028-2030-cu illər üçün üzvlüyünə namizədliyi dəstəklənir.

Özbəkistanın 2035-2036-cı illər üçün BMT Təhlükəsizlik Şurasının və 2027-2031-ci illər üçün UNESCO-nun İcraiyyə Şurasının qeyri-daimi üzvlüyünə namizədliyi, Qazaxıstanın 2031-2032-ci illər üçün BMT Baş Assambleyasının 86-cı sessiyasının, 2039-2040-cı illər üçün BMT Təhlükəsizlik Şurasının və 2027-2031-ci illər üçün UNESCO-nun İcraiyyə Şurasının sədri vəzifələrinə namizədliyi, Türkiyənin 2037-2038-ci illər üçün BMT Təhlükəsizlik Şurasının, 2025-2029-cu illər üçün UNESCO-nun İcraiyyə Şurasının, 2026-2028-ci illər üçün ECOSOC-un qeyri-daimi üzvlüyünə namizədliyi, Azərbaycanın 2025-2029-cu illər üçün UNESCO-nun Ümumdünya İrs Komitəsinə və həmin illərdə BMT-HABITAT-ın İcraiyyə Şurasının üzvlüyünə namizədliyi alqışlanır.

Dünyaşöhrətli alim, Nobel mükafatı laureatı, professor Əziz Sancara Türk Dövlətləri Təşkilatının Əlişir Nəvai adına "Türk dünyasının birliyinə töhfələrinə görə" beynəlxalq mükafatının verilməsi yüksək qiymətləndirilir.

Üzv dövlətlərin Türk dövlətləri arasında qarşılıqlı anlaşma, həmrəylik və ortaq gələcəyə yardım etmək məqsədi daşıyan mədəni və humanitar əlaqələrin gücləndirilməsinin vacib elementi kimi gənclərlə bağlı məsələlər üzrə əməkdaşlığın daha da genişləndirilməsi və strukturlaşdırılması niyyəti ifadə olunur, TDT çərçivəsində gənclər və idman sahəsində mübadilə proqramlarının qabaqcıl nailiyyətləri, Qazaxıstanın Aktau şəhərinin TÜRKSOY-un təşəbbüsü ilə 2025-ci il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi təqdir olunur. Eyni zamanda, Özbəkistanın Türk Mədəniyyəti və İrsi Fonduna üzv olmaq üçün müraciəti dəstəklənir.

Sənəddə silahlı münaqişələr zamanı mədəni irsin qorunmasının vacibliyi vurğulanır, münaqişədən sonra mədəni irsin bərpasında Türk dövlətlərinin səyləri təqdir edilir.

Mədəniyyətlərarası körpü və ümumbəşəri dəyərlərin rəmzi kimi çıxış edən Novruzun transmədəni mahiyyəti ifadə edilərək, Türk mədəniyyətinin dərin zənginliyini və Türk xalqlarının ortaq dəyərlərini gələcək nəsillərə ötürmək əzmi bir daha vurğulanır, Azərbaycanın və TDT-yə üzv dövlətlərin, həmçinin Türkiyə Prezidentinin təşəbbüsü ilə Novruz bayramının Təşkilat çərçivəsində qeyd olunması barədə Katibliyə tapşırıq verilir.

Azərbaycanın 2025-ci ildə TDT-nin 12-ci Zirvə görüşünə ev sahibliyi etməyə hazır olduğu yüksək qiymətləndirilir.

Həmçinin Əfqanıstan üzrə Birgə Bəyanatın qəbul edilməsinin vacibliyi vurğulanır.

TDT-yə üzv dövlətlərin başçıları Macarıstanın Baş naziri Viktor Orbana Türk dünyasının həmrəyliyinə və rifahına verdiyi töhfələrə, habelə təşkilatın Budapeştdə keçirilən qeyri-rəsmi Zirvə görüşünə, Macarıstan hökumətinin və xalqının səmimi qonaqpərvərliyinə görə təşəkkürünü bildiriblər.

Bəyannamə Azərbaycan, qazax, qırğız, türk və özbək dillərində imzalanıb.

## Prezident İlham Əliyev Əziz Sancarın mükafatlandırma mərasimində







**Mayın 21-də Budapeştdə Nobel mükafatı laureatı Əziz Sancarın Əlişir Nəvai Beynəlxalq Mükafatı ilə təltif olunması mərasimi keçirilib.**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.**

## Dövlət və hökumət başçılarının şərəfinə rəsmi lanç



**Mayın 21-də Budapeştdə Macarıstanın Baş naziri Viktor Orbanın adından Türk Dövlətləri Təşkilatının dövlət və hökumət başçılarının şərəfinə rəsmi lanç verilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

## Səfər başa çatıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstana işgüzar səfəri mayın 21-də başa çatıb.**

Budapeştin Ferents List adına Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini rəsmi şəxslər yola saldılar.

*AZƏRTAC*



# “Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi” mövzusunda beynəlxalq konfransın iştirakçılarına

**Hörmətli konfrans iştirakçıları!**

Sizi – “Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi” mövzusunda Ankara şəhərində keçirilən beynəlxalq konfransın iştirakçılarını səmimi-qəlbdən salamlayır, bu mühüm tədbirə ev sahibliyi edən dost və qardaş Türkiyə Respublikasına böyük təşəkkürümü bildirirəm. Azərbaycan və Türkiyə nümayəndələrinin bir araya gəldiyi bu konfrans regionumuzda sülhün, ədalətin və insan hüquqlarının bərqərar olması yolunda çox əlamətdar hadisədir. Azərbaycan və Türkiyə arasında müttəfiqlik və qardaşlıq münasibətləri, hər iki ölkənin beynəlxalq hüquq prinsiplərinə sadiqliyi bölgədə sabitliyin təmin olunması üçün möhkəm zəmin yaradır.

Çox təəssüf ki, silahlı münaqişələr və irqi ayrı-seçkilik nəticəsində milyonlarla insan öz doğma yurdlarından didərgin düşərək qaçqınlıq həyatı yaşayır. Xüsusilə, Birinci Dünya müharibəsi dövründə və ondan sonra erməni radikalizmi və ekstremizmi Azərbaycan xalqını misli görünməmiş müsibətlərə düçar etmiş, nəticədə yüz minlərlə soydaşımız öz dədə-baba torpaqlarından zorla çıxarılmış, kütləvi qətl və qırğınlara məruz qalmışdır.

Qərbi Azərbaycanda – Ermənistan ərazisində 1918–1921, 1948–1953 və 1987–1991-ci illərdə sistemli və total şəkildə etnik təmizləmə həyata keçirilmiş və beləliklə, Ermənistanda bir nəfər belə azərbaycanlı qalmamışdır. Bu etnik təmizləmə böyük humanitar faciə olmaqla yanaşı, 1920-ci ildə Qərbi Zəngəzurun Azərbaycandan alınaraq Ermənistana verilməsi ilə Azərbaycanın əsas hissəsinin onun ayrılmaz hissəsi olan Naxçıvanla quru əlaqəsini kəsmək kimi mənfur geosiyasi məqsədə də xidmət etmişdir.

Ermənistan minilliklər boyu Qərbi Azərbaycanda yaşamış azərbaycanlıların zəngin mədəni irsini, qədim yaşayış məskənlərini, məscidlərini, ziyarətgahlarını və qəbiristanlıqlarını məhv etmişdir. Ermənistanın bu destruktiv addımları həmin ərazilərdən Azərbaycan xalqının izini silmək və regionun tarixini yenidən yazmaq məqsədi daşımışdır.

2020-ci il Vətən müharibəsində qazanılmış şanlı Zəfər, 2023-cü ildə suverenliyimizin tam bərpası, hazırda Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması, keçmiş məcburi köçkünlərin öz evlərinə qayıdışı Qərbi azərbaycanlılarda da böyük ruh yüksəkliyi yaratmış və onların daha mütəşəkkil qaydada fəaliyyət göstərməsinə imkan vermişdir. Qərbi Azərbaycan məsələsi artıq beynəlxalq gündəliyə daxil edilmişdir.

Qərbi Azərbaycan İcmasının beynəlxalq hüquqa uyğun dinc təşəbbüsləri təqdirəlayiqdir və dünya ictimaiyyəti tərəfindən dəstəklənir. Qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə Ermənistandakı dədə-baba torpaqlarına qayıdışının təmin edilməsi regionda sülhün, insan hüquqlarının və barışığın bərqərar olması üçün vacib şərtdir.

Təəssüf ki, Ermənistan cəmiyyətində türk xalqlarına qarşı dərin kök salmış nifrət, “böyük Ermənistan” xülyası, həmin ölkənin konstitusiyasında Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarının yer alması, Qərbi azərbaycanlıların qayıdışına imkan verilməməsi sülhə mane olur. Ermənistan qonşu dövlətlərə qarşı ərazi iddialarına son qoymalı, azərbaycanlılara məxsus mədəni irsin bərpası və qorunması üçün addımlar atmalı, bu məqsədlə UNESCO-nun monitorinq missiyasına icazə verməli, qayıdış mövzusunda İcma ilə dialoqa başlamalıdır. Ermənistan Qərbi azərbaycanlıların nə vaxt və hansı şərtlərlə öz dədə-baba yurdlarına dönə bilmələri ilə bağlı aydın mövqe ifadə etməlidir. Bu məsələ ilə əlaqədar Ermənistan rəhbərliyinin İcmanın nümayəndələrini qəbul etməsini gözləyirik.

Xüsusi olaraq vurğulamaq istərdim ki, Qərbi azərbaycanlıların qayıdış istəyi Ermənistana qarşı ərazi iddiası demək deyildir və Ermənistan həmin istəyi bu formada təqdim etmək cəhdlərindən əl çəkməlidir. Qayıdış reallaşana qədər bu məsələ Azərbaycanın gündəliyindən çıxmayacaqdır. Təbii ki, öz yurdlarına dönəcək Qərbi azərbaycanlılara təhlükəsizlik zəmanəti də verilməlidir.

Hesab edirik ki, Qərbi Azərbaycanla bağlı dünya ictimaiyyətinin məlumatlılığının artmasına xidmət edən bu beynəlxalq konfrans soydaşlarımızın öz doğma torpaqlarına qayıdışına önəmli töhfə verəcəkdir.

İnanırıq ki, Qərbi azərbaycanlılar təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına qayıdacaq və bölgədə davamlı sülh bərqərar olacaqdır.

Sizə ən xoş diləklərimi çatdırır və konfransın işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 may 2025-ci il**

# Prezident İlham Əliyevin Macarıstanda verdiyi ən böyük mesaj

**(əvvəli 1-ci səhifədə)**

İkinci məqama keçid alaq. Prezident İlham Əliyev Macarıstanda 44 günlük müharibənin beynəlxalq hüquq çərçivəsində – BMT-nin Nizamnaməsi əsasında aparıldığını vurğuladı. “BMT-nin Nizamnaməsinin 51-ci maddəsində hər bir ölkənin özünümüdafiə hüququ var. Biz də bu hüquqdan istifadə edərək, uzun illər işğal altında olan torpaqları düşmən qüvvələrindən azad etdik və 2023-cü ildə öz suverenliyimizi tam bərpa etdik”, – deyən ölkəmizin liderinin Azərbaycanın müharibəni də düzgün aparması üzərində dayanmasında da bəlli mesaj payı var. Təxminən belə: qondardığınız bütün çətinliklərə və etdiyiniz təzyiq cəhdlərinə baxmayaraq, bizə heç bir maneə yarada bilmədiniz və istəyimizə çatdıq.

*

Üçüncü məqam. Məlum olduğu kimi, qalib gəldikdən sonra məğlub dövlətə sülh əlini uzatdı: “Ermənistan-Azərbaycan sülh prosesi ilə bağlı onu deyə bilərəm ki, sülh danışıqlarının İkinci Qarabağ müharibəsindən sonra təşəbbüskarı da biz olmuşuq. Sülh müqaviləsinin mətninin müəllifi də biz olmuşuq və məhz bu mətn bu gün Ermənistan tərəfindən qəbul edilib, təbii ki, müəyyən düzəlişlərlə. Amma prinsip etibarilə bizim təklif etdiyimiz məsələ bu gün artıq Ermənistan tərəfindən qəbul edilib”.

Nəzərə alaq ki, Ermənistanın sülhə gəlməsi də heç də asan olmayıb. Qərbin bəzi dairələri 2020-ci ildən başlayaraq müharibə meydanında rüsvayçılıqla üzləşmiş ölkəni danışıqlar masasından qalib çıxarmaq istiqamətində cidd-cəhd göstərdilər. Hər vəchlə çalışdılar ki, rəsmi İrəvan üstünlüklər qazansın, itirilmiş mövqelərini geri qaytarsın. Ən əsası isə onlar Qarabağda erməni avantürizminin saxlanılmasına baş vurdular və istədilər ki, bölgə ermənilər üçün ayrıca beynəlxalq təminat mexanizmi formalaşsın. Elə bir mexanizm ki, gələcəkdə Ermənistanın Qarabağa ərazi iddiası irəli sürməsinə əsas yaratsın. Üstəlik, bu məqamı çox yaxşı xatırlayırıq: İkinci Qarabağ müharibəsindən sonra, Qərblə Rusiya arasında ermənilərə daha çox imtiyaz vədlərində, bir növ, rəqabət müşahidə olundu. Həmin rəqabətin simptomları bu gün də özünü göstərir. Amma...

*

Qeyd edək ki, Prezident İlham Əliyev bir müddət əvvəl Azərbaycanla Ermənistan arasında real danışıqların 2024-cü ilin əvvəlindən başladığını bildirmişdi. Yəni, dövlətimizin başçısı həmin vaxtadək Bakının İrəvana uzatdığı sülh əlinin geri çevrildiyini vurğulamışdı.

Məsələ ondadır ki, Ermənistan dəstək vədlərindən ruhlanıb illüziyaya qapılmışdı. İş o o yerə çatmışdı ki, 2022-ci ilin oktyabrında Praqada Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını bəyan edən baş nazir Nikol Paşinyan 2023-cü ilin sentyabrın əvvəlində yerli mediaya müsahibəsində Qarabağdakı separatçı qurumu nəzərdə tutaraq bildirmişdi ki, “Qarabağın özünün seçkili hakimiyyəti var”.

Nəhayət, Ermənistanın bu sayaq hədsizliyi, həyasız davranışları, bəzi beynəlxalq dairələrin dəstəyi Azərbaycanın səbr kasasını daşırdı. Silahlı Qüvvələrimiz 2023-cü il sentyabrın 19-da lokal xarakterli antiterror tədbirləri həyata keçirərək, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi. Separatçı rejim isə tarixin zibilliyinə göndərildi. Ancaq Ermənistan yenə məkrindən qalmadı.

Rəsmi İrəvan Qarabağın erməni əhalisini tələm-tələsik bölgədən çıxartdı və bunu etnik təmizləmə kimi qələmə verdi. Antiterror tədbirlərindən sonrakı, təxminən, 3-4 ay müddətində erməni iqtidarı və onun havadarları var gücləri ilə çalışdılar ki, hayların bölgəyə qayıdışını sülh danışıqlarının predmetinə çevirsinlər.

Qətiyyətlə demək olar ki, Ermənistan rəhbərliyinin 2024-cü ilin əvvəlindən real danışıqlara üstünlük verməsi bütün bu “istəklərin” puça çıxmasından sonra oldu. Paşinyan və tərəfdarları Azərbaycana qarşı gedişlərinin nəticə verməyəcəyini anladılar. Əlbəttə, demək olmaz ki, Ermənistan hazırda real məcraya qədəm qoymuş sülh danışıqlarında pozitiv mövqe tutur. Heç vaxt da tutmayıb.

Məsələn, rəsmi İrəvan dəfələrlə sülh sazişinin yarımçıq şəkildə imzalanmasına çalışmışdı. Paşinyan və komandasının üzvləri, habelə xaricdəki havadarları əvvəl barış sazişi mətninin 13, sonra 15 müddəası razılaşdırıldıqdan sona bəyanat yayıb elə fon yaratmışdılar ki, sanki sənəd tez bir zamanda imzalana bilər. Hətta, mövcud fonda Azərbaycanın, guya, barış istəmədiyinə dair sərsəmləmələrin də şahidi olmuşduq. Yenə də məqsəd avantürizmi qorumaq, onun üçün tutacaq yerlər saxlamaq idi.

Nəhayət, 2025-ci ildə Ermənistan sülh müqaviləsinin bütün bəndləri üzrə Azərbaycanla razılığa gəlməyə məcbur oldu. İndi qalır rəsmi İrəvanın sazişin imzalanması üçün iki şərtimizi yerinə yetirməsi. Yeri gəlmişkən, Prezident İlham Əliyev Macarıstanda da həmin şərtləri bir daha açıqlayıb: “Qaldı ki, sülh müqaviləsinin bağlanmasına, burada iki əsas şərt var. Birincisi, Ermənistan konstitusiyasında bu günə qədər Azərbaycana qarşı ərazi iddiası vardır. Bu, dəyişdirilməlidir. İkincisi isə Qarabağ münaqişəsini həll etmək üçün yaradılmış ATƏT-in Minsk qrupu ləğv edilməlidir. Bu, artıq de-fakto fəaliyyət göstərmir, de-yure bunun ləğvi zəruridir. Əfsuslar olsun ki, Ermənistan tərəfi hələ ki, bu iki şərtimizi qəbul etmək istəmir. Ancaq son illərin hadisələri və proseslərin gedişatı onu göstərir ki, gec-tez onlar bizim təklifimizlə razılaşmağa məcbur olacaqlar. Çünki bu təkliflərdə qeyri-adi heç bir məsələ yoxdur”.

*

Azərbaycan Cənubi Qafqazın lider ölkəsi kimi mövcud coğrafiyanı sülh, sabitlik və inkişaf məkanı kimi görməkdə maraqlı və israrlıdır. Dayanıqlı və davamlı inkişaf naminə regionda avantürizmə heç bir şans olmamalı, hansısa fürsət verilməməlidir. Ölkəmizin iki şərti də məhz bu prinsipiallıqdan qaynaqlanır və dövlətimizin başçısının təbirincə desək, bunda heç bir qeyri-adilik yoxdur.

Sonda qeyd edək ki, Azərbaycan 44 günlük müharibədən sonra bütün maneləri aşaraq istəklərinə çatıb. Prezident İlham Əliyevin Macarıstanda Bakı – İrəvan münasibətlərinə dair əvvəldə barəsində söz açdığımız xronologiyanı diqqətə çatdırmaqla verdiyi ən böyük mesaj da elə budur. Yəni, ölkəmizin lideri həm Ermənistanın, həm də havadarlarının yadına indiyədək olanları salıb və Azərbaycana qarşı çıxmağın heç bir fayda gətirmədiyini yenidən vurğulayıb. İndi qalır, qarşı tərəfin nəticə çıxarması. Necə deyərlər, top Ermənistan tərəfdədir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Baş nazirin DMF prezidenti ilə görüşü



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 21-də Dünya Minifutbol Federasiyasının prezidenti Filip Cuda ilə görüşüb.**

Görüşdə mayın 21-dən iyunun 1-nə qədər Bakıda keçirilən minifutbol üzrə dünya çempionatının əhəmiyyəti qeyd edilib.

Ölkəmizin beynəlxalq səviyyəli idman yarışlarına böyük uğurla ev sahibliyi etməsi xüsusi vurğulanaraq, minifutbol üzrə dünya çempionatının da yüksək standartlara uyğun təşkil ediləcəyinə əminlik ifadə olunub.

İdmanın inkişafının Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil etdiyi bildirilib, dövlət tərəfindən idmançılara göstərilən diqqət və qayğı barədə söhbət açılıb.

Görüşdə ölkəmizdə minifutbolun inkişafı və kütləviləşməsi məqsədilə həyata keçirilən tədbirlər təqdir edilib, bu sahədə əməkdaşlıq məsələləri müzakirə olunub.

***XQ***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu!**

Türkmənistan xalqı və hökuməti adından, həmçinin şəxsən öz adımdan Sizi və qardaş Azərbaycan xalqını ölkənizin Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Əminik ki, Türkmənistan ilə Azərbaycan Respublikası arasında mehriban qonşuluq, səmimi dostluq və qarşılıqlı anlaşma prinsiplərinə əsaslanan qardaşlıq münasibətləri xalqlarımızın işıqlı gələcəyi naminə bundan sonra da dinamik inkişaf edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, səadət və ali dövləti fəaliyyətinizdə yeni-yeni nailiyyətlər, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

**Dərin hörmətlə,**

***Sərdar BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistanın Prezidenti***

*

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının milli bayramı münasibətilə Sizə və xalqınıza səmimi-qəlbdən təbriklərimi çatdırıram.

Fürsətdən istifadə edərək, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq əlaqələrini gücləndirmək niyyətimizi bir daha bildirmək istəyirəm.

Sizə dərin hörmət və ehtiramımı ifadə edirəm.

***Migel Dias-Kanel BERMUDES,***
***Kuba Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

Ölkənizin Müstəqillik Gününün 107-ci ildönümü münasibətilə Sizə və Azərbaycan xalqına Myanma İttifaqı Respublikasının xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Ümidvaram ki, ölkələrimiz arasındakı əlaqələr gələcək illərdə də inkişaf edəcəkdir.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Min Aung HLAİNG,***
***Myanma İttifaqı Respublikasının Dövlət İdarə Şurasının Sədri***

*

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və Sizin şəxsinizdə ölkənizin hökumətinə və xalqına təbriklərimi çatdırıram.

Ümidvar olduğumu bildirirəm ki, ölkələrimiz arasında dostluq münasibətləri gələcəkdə də genişlənəcək və inkişaf edəcəkdir.

**Hörmətlə,**

**Kim Çen IN,**
**Koreya Xalq Demokratik Respublikasının Dövlət İşlərinin Sədri**

*

**Hörmətli İlham Heydər oğlu!**

Sizi və ölkənizin qardaş xalqını Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan müstəqillik illərində həyat fəaliyyətinin bütün sahələrində möhtəşəm uğurlar əldə edib, beynəlxalq arenada yüksək nüfuz və etimad qazanıb.

Əminik ki, mehriban qonşuluq, səmimi dostluq və etimad prinsiplərinə əsaslanan Türkmənistan-Azərbaycan strateji tərəfdaşlığı qardaş ölkələrimizin və xalqlarımızın rifahı naminə bundan sonra da dinamik inkişaf edəcəkdir.

Fürsətdən istifadə edərək, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

**Dərin hörmətlə,**

***Qurbanqulu BERDİMƏHƏMMƏDOV,***
***Türkmən xalqının Milli Lideri,***
***Türkmənistan Xalq Məsləhətinin sədri***

*

**Möhtərəm cənab Prezident!**

Sizi Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

1993-cü ildə müstəqilliyimiz böyük təhlükə ilə üzləşmişdi. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıtması müstəqilliyimizi qoruyub saxladı. Qısa bir zamanda Azərbaycanda sabitlik yarandı, enerji sahəsində dünyanın aparıcı şirkətləri ilə böyük layihələr həyata keçirildi, ölkəmiz bölgədə aparıcı dövlətə çevrildi. Böyük dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıtması ölkəyə barış və inkişaf gətirdi.

Siz Ulu Öndər Heydər Əliyev dəyərlərinə yeni nəfəs gətirdiniz və 30 ilə yaxın işğal altında qalan torpaqlarımızın azad edilməsi Sizin siyasətiniz nəticəsində mümkün oldu. Artıq bir neçə ildir ki, Azərbaycan xalqı Müstəqillik Gününü qalib xalq kimi qeyd edir.

Möhtərəm cənab Prezident, bu gün Azərbaycan regionun lider ölkəsidir. Son aylar ölkəmizə İranın və Vyetnamın liderlərinin səfərləri, Sizin Çin Xalq Respublikasına səfəriniz və orada ən yüksək səviyyədə qəbul olunmağınız, Albaniyada Avropa Siyasi Birliyinin Zirvə toplantısında dünya liderləri ilə keçirdiyiniz görüşlər bir daha Sizin dərin və incə düşünülmüş siyasətinizin nə qədər müdrik olduğunu və Azərbaycan xalqının inkişafına yönəldiyini təsdiq edir.

Sizə möhkəm cansağlığı, ailə səadəti, işlərinizdə böyük uğurlar arzulayıram.

**Dərin hörmətlə,**

***Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq***
***Təşkilatının Parlament Məclisinin Baş katibi***

# Dağıstan Hökuməti sədrinin müavini Azərbaycanda

**Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev mayın 21-də Dağıstan Respublikası Hökuməti sədrinin müavini Rizvan Qazimaqomedov ilə görüşüb.**



Nazirlər Kabinetindən bildirilib ki, görüşdə Azərbaycan və Rusiya arasında əməkdaşlıq çərçivəsində Rusiya Federasiyasının müxtəlif regionları, xüsusilə də ortaq tarixi və mədəni dəyərlərlə bağlı olan Azərbaycan–Dağıstan münasibətlərinin xüsusi önəm daşıdığı vurğulanıb.

Həmçinin Azərbaycan ilə Dağıstan arasında əməkdaşlıq münasibətlərinin ticarət-iqtisadi, nəqliyyat-logistika, sənaye kooperasiyası, kənd təsərrüfatı və aqrar sənaye, eləcə də humanitar sahələrdə uğurla inkişaf etdiyi qeyd olunub.

Görüşdə, həmçinin 2023-2025-ci illər üzrə Əməkdaşlığın əsas istiqamətlərinin inkişafına dair Tədbirlər Planının icrası müzakirə olunaraq, əməkdaşlığın genişləndirilməsi məqsədilə perspektivli istiqamətlər üzrə fikir mübadiləsi aparılıb.

***XQ***

(əvvəli 1-ci səhifədə)

# “Orta güc”ün qətiyyəti



Bəli, Azərbaycanın “Orta güc” ampluası təminatdır. Söhbət mühüm tərəfdaşlıq təminatından gedir. Tərəfdaşlıq inamdan qaynaqlanır. Deməli, ölkəmizin artan nüfuzunu şərtləndirən “Orta güc” mövqeyi təkcə coğrafi amillə əlaqədar reallıq deyil. Çünki tərəfdaşlıqda başlıca təminat etimaddır. Tirana sammiti Avropanın Azərbaycana yanaşmasındakı etimadın yüksəkliyini göstərdi.

Əlbəttə, mövcud nəticəyə heç də birtərəfli prizmadan yanaşıla bilməz. Birdən-birə heç nə olmur. Avropada hər şeyi yaxşı görürlər. Məsələn, Azərbaycanın Çinlə əməkdaşlıq xəttindəki dinamikanı dərk edirlər. Prezident İlham Əliyevin Çində yüksək səviyyədə qarşılanması da diqqətdən yayınmır. Dünyanın super güclərindən biri ilə münasibətlərimizdəki rəvanlıq özündə ölkəmizin Avropa ilə Asiyanın nəqliyyat qovşağında yerləşmə reallığını dividendə çevirmək potensialını daşıyır. Potensial isə elə-belədən formalaşmır. Bu, rasionallığın və praqmatikliyin bəhrəsidir.

Əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin siyasi xarakteri mürəkkəb coğrafi şəraitdə yerləşən ölkəmizin tutduğu xəttə yeni keyfiyyətlər qazandırır. Geridə qalan atların güllələndiyi zamanda yaşayırıq. Bir halda ki, həmin Ursula Fon der Lyayen Tiranadakı çıxışında “qlobal düzən qlobal özbaşınalığa çevrilib” deyir, başqa cür düşünməyə əsas yoxdur. Deməli, hər kəs, daha doğrusu, hər bir tərəf yalnız öz mənfəətini düşünür. Yəni, ASB-nin kluarlarındakı səmimilik jestlərinin, belə demək mümkünsə, gülüş və nəzakət mübadilələrinin sərt tərəfləri də var.

Bəli, indiki durumda arxayınlaşmaq, ehtiyatı əldən vermək qətiyyən olmaz. Beynəlxalq aləmlə, habelə Avropa ilə münasibətlərin stabillik xətti yetərli sayıla bilməz. Yeni inkişaf trayektoriyaları tapmaq mütləqdir ki, gerilik, ləngimələr olmasın, adekvatlıq qorunsun. Dünyanın sürətlə dəyişən reallıqları fonunda maraq və mənafelərin daim uzlaşdırılmış diapazonda saxlanılması, habelə uzlaşma nöqtələrinin artırılması şərtdir. Bunun üçün isə diplomatik tonu yüksək fazada saxlamaq lazımdır. Azərbaycan dövlətinin apardığı siyasət özündə məhz vurğuladığımız immunitet üstünlüyünə malikdir. Ölkəmizin Tirana uğuru da bundan irəli gəlir.

Azərbaycan “Orta dəhliz” layihəsi və “yaşıl enerji” təşəbbüsləri ilə regional və qlobal inteqrasiya baxımından önəm daşıyır. Önəmin müxtəlif təzahürləri var və onlar özünü həm Avropa İttifaqının Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi K.Kallasın Azərbaycana bir müddət əvvəlki rəsmi səfəri gedişində, həm də Aİ Şurasının prezidenti A.Koştanın 2025-ci ilin yanvarında Prezident İlham Əliyevə zəngində, tərəflər arasındakı telefon danışığının məzmununda göstərdi. Bu yerdə istər-istəməz, Aİ Şurasının əvvəlki prezidenti Ş.Mişelin timsalında Aİ-nin Azərbaycanla təmas gündəliyinə diqqət yetirmək lazımdır. Gündəlik əsasən Bakı-İrəvan münasibətlərinin tənzimləməsi ilə bağlı idi.

Əslində, söhbət həqiqi vasitəçilikdən yox, Aİ-nin müxtəlif diplomatik üsullarla ermənipərəstlik xətti yürütməsindən gedirdi. Daha doğrusu, Fransanın qurumu həmin xətt üçün, bir növ, alətə çevirməsindən. Lakin hazırda yaşananlar göstərir ki, Aİ Azərbaycana ölkəmizin Ermənistanla münasibətləri kontekstində yanaşmaqdan uzaqdır. Bu məqamın özü Bakının son dərəcə böyük diplomatik uğuru kimi qiymətləndirilə bilər.

Ümumən, ASB-nin Tirana Sammiti həm də onu göstərdi ki, Prezident İlham Əliyevin çoxvektorlu və uğurlu xarici siyasət konturları öz bəhrəsini Azərbaycanın regional aktorluğunu vurğulayan məqamlarda göstərir. Belə təəssürat var ki, mövcud trayektoriyada Ermənistan, bütövlükdə erməni amilinə yer yoxdur. Başqa sözlə desək, bu amil taleyin ümidinə buraxılmış vəziyyətdədir. Mövcud məqamı erməni ekspert cameəsi də vurğuladı, Ermənistandakı revanşist və şovinist kəsim də. Yəni, rəsmi İrəvanın qarşısında duran başlıca vəzifə Bakı ilə dil tapmaqdır. Başqa yol yoxdur.

Hazırda Azərbaycan ilə Aİ arasındakı münasibətlər gündəliyini nəqliyyat, xüsusilə Transxəzər – Orta Dəhliz marşrutu üzrə daşımalar, Xəzər və Qara dəniz hövzələrini birləşdirən yaşıl enerji dəhlizinin yaradılması layihəsi, Azərbaycanın Aİ-yə üzv ölkələrə qaz ixracı və enerji sahəsində əməkdaşlıq məsələləri təşkil edir. Bu Koştanın dövlətimizin başçısına haqqında söz açdığımız telefon zəngindən də göründü, Kallasın Bakıya səfərindən də, Tiranadakı üçlü təmasdan da.

Özü də yada salaq ki, Kallas İrəvana Bakıdan yollanmışdı. Bunun özü üzərində dayanılmalı məqamdır. Çünki, bir qayda olaraq, avropalıların ölkəmizə Ermənistandan və Gürcüstandan sonra təşrif buyurmalarına dair yazılmamış, sırf təəssübkeşliyə əsaslanmış qayda var. Azərbaycan Prezident İlham Əliyevin düşünülmüş siyasəti nəticəsində qaydalar və stereotiplər dəyişib. Nəticədə bu gün ölkəmiz Cənubi Qafqazın həm də təəssübünü çəkən aktora çevrilib.

Üstəlik, məsələ təkcə “təəssüb” sözünün hərfi mənasında deyil. Azərbaycan region üçün məsuliyyət daşıyan tərəfdir və bu cəhət rəsmi Bakıya öz oyun qaydalarını diktə etmək üçün fürsət verir. Deməli, hazırda Ermənistan qarşısında dayanan başlıca vəzifə həmin qaydalara uyğun fəaliyyət göstərmək, bağlanmış avantürizm kitabını açmağa cəhd göstərməməkdir. İrəvan nəzərə almalıdır ki, Azərbaycan o kitabın bağlandığını bəyan edirsə, bunun özü böyük lütfdür. Elə Avropanın müxtəlif dairələri, o cümlədən Fransa da durumu belə görməlidirlər.

Sonda ASB-nin Tirana Sammiti fonunda ümumiləşdirmə apararaq deyə bilərik ki, Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzu və aktiv diplomatik fəaliyyəti fonunda ölkəmizin Aİ ilə münasibətlərində yeni mərhələyə keçidin şahidiyik. Bu, Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın prinisipial mövqeyinin gücləndiyini bir daha, özü də dolğun şəkildə ortaya qoyur. Sübut olunur ki, bütün kənar təsir cəhdlərinə baxmayaraq, Azərbaycanın Avropa ilə əlaqələri qarşılıqlı maraq əsasında inkişaf etməkdədir. Ən başlıcası isə hər iki tərəf bundan dərin məmnunluq duyur. İnanırıq ki, hazırkı məmnunluq gələcəkdə özünü daha zəngin çalarlarda göstərəcək.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Sülh İrəvanın dalandan yeganə çıxış yoludur



**Ermənistan Qərbə inteqrasiya yolunda fəallaşıb. Bu məqsədlə ölkə parlamenti “Ermənistan Respublikasının Avropa İttifaqına üzvlük prosesinin başlanması haqqında” qanun layihəsini sonuncu oxunuşda qəbul edib. Bununla bağlı Ermənistan baş naziri Nikol Paşinyan qeyd edib ki, bu, hələ Ermənistanın Aİ-yə üzvlüyü demək deyil, çünki sözügedən məsələ ilə bağlı qərar yalnız referendumda qəbul edilə bilər: “Lakin qeyd etmək lazımdır ki, referendumdan əvvəl müəyyən addımlar atmalı, Avropa İttifaqı ilə yol xəritəsini müzakirə etməliyik”.**

Eyni zamanda, Hayastan Aİ ilə vizasız rejimə keçid, müşahidə missiyasının genişləndirilməsi və təhlükəsizlik sahəsində Brüssellə yaxınlaşmaq niyyətini də gizlətmir. İrəvan həm də ABŞ-la strateji tərəfdaşlıq haqqında saziş imzalayıb. İstənilən halda bu yanaşma bir tərəfdən Ermənistanın Rusiyadan uzaqlaşma cəhdinin, digər tərəfdən isə Cənubi Qafqazda Qərbin təsirinin artmasını göstərir. Mayın ortalarında xarici işlər naziri Ararat Mirzoyanın Aİ-nin Şərqi Avropa və Mərkəzi Asiya üzrə səfirləri qarşısında çıxışı da buna dəlalət edirdi.

Bəs Mirzoyan səfirlər qarşısında nədən danışıb? O, ilk növbədə, Aİ-dən təkcə Bakıya təsir göstərməyi deyil, həm də Avropa Sülh Fondu vasitəsilə yardım xahiş edib: “Aİ-nin keçən il Avropa Sülh Fondu vasitəsilə Ermənistanı dəstəkləmək qərarı mühüm nailiyyət olsa da, biz artıq 2025-ci ildə fond vasitəsilə yardımın davam etdirilməsini gözləyirik. Sizi əmin etmək istərdim ki, bu yardım Aİ-nin tərəfdaşlığımızı genişləndirmək və dərinləşdirmək üçün siyasi iradəsini aydın şəkildə nümayiş etdirməklə yanaşı, həm də çətin anlarda Ermənistanın müqavimətini gücləndirir”.

Onun sözlərinə görə, “Ermənistan Avropaya doğru – demokratiyaya, sülhə dönməz seçim edib”. İrəvan “təkcə dəstək üçün deyil, həm də tərəfdaşlıq, təkcə həvəsləndirmək üçün deyil, həm də daimi qarşılıqlı fəaliyyət üçün” çalışır.

Nazir həmçinin avropalı tərəfdaşlarından Azərbaycanla sülh sazişinin imzalanmasına dəstək verəcəklərini gözləyir: “Biz avropalı tərəfdaşlarımızı bu prosesə dəstəyini artırmağa çağırırıq. Gözləyirik ki, Aİ-dən olan tərəfdaşlarımız həm Bakı ilə birbaşa təmaslarında, həm də ictimai bəyanatlarında Ermənistanla dərhal sülh sazişinin imzalanmasının zəruriliyini ardıcıl olaraq vurğulayacaqlar”.

Mirzoyan onu da qeyd edib ki, Ermənistan dərhal bu sənədi imzalamağa və ratifikasiya etməyə hazırdır, “amma Azərbaycan prosesi süni surətdə ləngidir”: “Fakt odur ki, iki ölkə arasında razılaşdırılmış sülh müqaviləsi hələ imzalanmayıb. Əgər narahatlıqlar, məsələn, konstitusiya məsələsi ilə bağlıdırsa, onda sizi əmin edə bilərəm ki, tərəflərin bütün problemləri həll etməyin ən aydın və birbaşa yolu sazişi imzalamaq və onu Ermənistan konstitusiya məhkəməsinin müsbət rəyindən sonra parlamentdə ratifikasiya etməkdir”.

Ararat Mirzoyanın “biz hazırıq, amma Bakı tərəddüd edir” iddiası beynəlxalq ictimaiyyət qarşısında məsuliyyəti Azərbaycanın üzərinə yükləməyə yönəlmiş klassik siyasi manevrdir. Məlum olduğu kimi, Ermənistan Zəngəzur dəhlizi məsələsində və sərhədlərin delimitasiyası ilə bağlı razılaşdırılmış prinsiplərin icrasında qeyri-konstruktiv mövqe nümayiş etdirir. Belə olan halda sülh müqaviləsinin imzalanmasının ləngiməsinə görə Bakını günahlandırmaq manipulyativ yanaşmadır.



Nazir çox yaxşı başa düşür ki, sülh sazişinin imzalanmasına mane olan səbəblərdən biri Ermənistanın Azərbaycana qarşı ərazi iddiasıdır. Məsələnin həlli Cənubi Qafqazda daimi sülhün bərqərar olmasını təmin edəcək addımlardan biridir. Ararat Mirzoyan bundan xəbərdardır. O, səfirlər qarşısında çıxış edərkən özünü elə aparıb ki, sanki belə bir problem, ümumiyyətlə, yoxdur. Bu, Azərbaycanın ünvanına yönəlmiş dezinformasiyadır.

***

Həmin tədbirdə İrəvanın Aİ müşahidə missiyasına verdiyi əhəmiyyət Mirzoyanın dilindən bir daha səslənib. O bildirib ki, “müşahidə missiyası atəşkəs pozuntularının tək obyektiv şahididir”. Əslində, bu missiyanın fəaliyyəti Ermənistan–Azərbaycan münasibətlərinin normallaşmasına yardım etməklə bağlı deyil, regionda kənar müdaxilənin gücləndirilməsinə və sabitliyinin pozulmasına yönəlib.

Maraqlıdır ki, Ermənistan rəhbərliyi öz çıxışlarında “hibrid müharibə”, “demokratiyaya müdaxilə”, “kənar təsir” kimi anlayışlardan tez-tez istifadə edir. Bu terminlər yalnız Ermənistanın Qərbə inteqrasiya xəttini gücləndirmək üçün deyil, həm də özünü informasiya müstəvisində “məzlum” və “qurban” obrazında təqdim etmək üçün işlədilir. Mirzoyan da bu ritorikadan faydalanaraq Aİ ölkələrini Ermənistana daha çox siyasi dəstək verməyə çağırıb.

Onu da qeyd edək ki, son vaxtlar layihə barədə Ermənistan mətbuatı tez-tez məlumatlar yayır. Bildirilir ki, marşrut Hindistanın Mumbay limanından başlayacaq, sonra İranın Çabahar limanından və Ermənistan ərazisindən keçməklə Gürcüstan və ya Rusiyaya çıxış əldə edəcək. Eyni zamanda, körfəz ölkələrindən və Hindistandan yüklərin optimal marşrutla Aİ və Avrasiya İqtisadi İttifaqına (AİI) daşınmasına imkan verəcək. İran və Hindistan üçün bu marşrut mürəkkəb dəniz yollarından yan keçməklə tədarükün diversifikasiya yolu kimi xüsusi əhəmiyyət daşıyacaq. Hay mətbuatının məlumatına görə, dəhliz logistika xərclərini 25 faiz, daşınma müddətini, demək olar ki, iki dəfə – 40 gündən 18 günə qədər azalda bilər. Bu sxemdə Ermənistan Gürcüstanın Qara dəniz limanları vasitəsilə Asiyanı Avropa ilə birləşdirən əsas tranzit qovşağına çevrilir. Bu marşrut həm də Süveyş kanalından keçən marşruta perspektivli alternativ kimi qiymətləndirilir.

İlk baxışdan hər şey Ermənistan üçün gözəl görünür. Amma aysberqin suyun altında qalan hissəsi çox təhlükəlidir. Birincisi, Hindistandan Rusiyaya və əks istiqamətdə göndərilən yüklər Yuxarı Lars gömrük-keçid məntəqəsindən keçməlidir. Çünki Ermənistanı ən böyük iqtisadi tərəfdaşı olan Rusiya ilə birləşdirən yeganə quru yolu Kazbek dağından keçən Yuxarı Lars gömrük-keçid məntəqəsidir. Bu məntəqənin yerləşdiyi ərazi olduqca çətin coğrafi relyefə malikdir. Əksər aylarda yol şaxtalı və buzlu olur və yük maşınlarının keçməsinə böyük çətinliklər yaradır. Digər tərəfdən, dayanacaq yerlərinin olmaması səbəbindən qoşqu növbəsi yaranır. Bu, əlavə xərc və vaxt itkisi yaradır. Onun buraxılış gücünü artırmaq üçün böyük məbləğdə vəsait tələb edilir. Yəni, Yuxarı Lars gömrük-keçid məntəqəsi böyük yük axınına hazır deyil.

Bu, beynəlxalq marşrutu perspektivsiz edən ikinci səbəb Ermənistan dəmir yolu infrastrukturunun iflic vəziyyətdə olmasıdır. Mehridən Qərbi Zəngəzuru keçməklə Gürcüstan sərhəddinə dəmir yolu xəttini çəkmək iqtisadi cəhətdən sərfəli deyil. Ermənistanı şimala bağlayan iki fərqli dəmir yolu var ki, onlardan biri Tbilisiyə, digəri isə Qazax vasitəsilə Bakı və Rusiyaya gedir. Ermənistanı Rusiyaya birləşdirən digər istiqamət isə Naxçıvan, Zəngəzur dəhlizi vasitəsilə Azərbaycanın cənubundan keçir. Beləliklə, dəmir yolu xətti əvvəllər üç istiqamətdən hərəkət edərək Rusiyaya çıxış əldə edə bilirdi.

***

Cənubi Qafqazda məlum münaqişələr səbəbindən hər üç istiqamətdə Rusiyaya çıxış bağlıdır. Abxaziyadan keçən dəmir yolu 1991–93-cü illərdə gürcü–abxaz münaqişəsi nəticəsində fəaliyyətini dayandırıb. Nə vaxt açılacağı məlum deyil. Deməli, yeni beynəlxalq nəqliyyat dəhlizinin yaxın onilliklərdə reallaşması qeyri-mümkündür. Avtomobil yolları da eyni vəziyyətdədir. Beynəlxalq daşımalar üçün dəhlizi işlək vəziyyətə gətirmək üçün milyardlarla dollar vəsait tələb olunur.

Bəs Ermənistanın çıxış yolu varmı? Bu barədə Milli Məclisin deputatı Fatma Yıldırım bildirdi ki, Ermənistan üçün bütün istiqamətlərdə ən əlverişli çıxış Zəngəzur dəhlizidir: “İrəvan üçün bu, iqtisadi inkişaf və regional təşəbbüslərə inteqrasiya imkanı yaradır, potensial olaraq ənənəvi marşrutlardan asılılığı azaldır”.

Beləliklə, Ararat Mirzoyanın çıxışı Ermənistanın Qərblə münasibətlərdə yeni dönəmə qədəm qoymaq istədiyini təsdiqləyir. Lakin bu açıq diplomatiya arxasında məqsədyönlü informasiya manipulyasiyası, regiondakı reallıqların birtərəfli təqdimatı və Azərbaycanın maraqlarına zidd çağırışlar gizlənir.

Fatma Yıldırım dedi ki, Azərbaycanın bu mənzərədə öz mövqeyini gücləndirməsi üçün həm Aİ ilə münasibətlərdə fəal diplomatik xətt yürütməsi, həm də informasiya sahəsində çevik davranması zəruridir: “Buna görə də, Azərbaycanın Aİ-dəki diplomatik kanallar vasitəsilə alternativ informasiya təqdimatı və həqiqətlərin sübutlarla ortaya qoyulması xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda, Azərbaycanın iştirak etdiyi regional kommunikasiya layihələrinin üstünlüyünü və iqtisadi rasionallığını daha geniş beynəlxalq platformalarda əsaslandırması vacibdir”.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Bəşəri ədalətə etimadsızlıq

## *Macarıstanın Beynəlxalq Cinayət Məhkəməsindən çıxma qərarı və yeni diplomatik reallıq*

**2025-ci il mayın 20-də Macarıstan parlamentinin Beynəlxalq Cinayət Məhkəməsi (BCM) ilə bağlı verdiyi qərar hüquqi müstəvidə və geosiyasi miqyasda rezonans doğurdu. Macarıstanın rəsmi olaraq Roma Statutundan çıxmaq üçün prosesə başlaması bu ölkənin beynəlxalq hüquqa münasibətində dönüş nöqtəsi oldu. Aİ-nin tamhüquqlu üzvü olan və Avropada hüquqi dövlət prinsipləri ilə idarə olunması gözlənilən bir ölkənin belə addım atması beynəlxalq münasibətlər sistemindəki dərin fikir ayrılıqlarının, ikili standartların və qlobal hüquqi mexanizmlərə inamsızlığın göstəricisidir.**



Macarıstanın bu addımı, eyni zamanda, müasir beynəlxalq nizamda suverenlik, hüquq və ədalət anlayışlarının necə qarşıdurma şəklində təzahür etdiyini göstərir. İndiyədək BCM-dən çıxan ölkələr əsasən Afrika və Karib hövzəsində yerləşən inkişaf etməkdə olan dövlətlər olsa da, Macarıstanın çıxışı yeni presedent yaradır: Aİ daxilində "Qərb bloku"na mənsub olan bir ölkənin bu sistemə etimadsızlıq bildirməsi.

Bəs bu qərarın arxasında hansı motivlər dayanır? Niyə Macarıstan indi və bu şəkildə belə bir addım atdı? BCM hansı səbəblərlə tənqid olunur? Bu sualları cavablandırmaq üçün məhkəmənin tarixi, məqsədləri və fəaliyyət mexanizmlərini təhlil etmək vacibdir.

Beynəlxalq Cinayət Məhkəməsi (BCM) 17 iyul 1998-ci ildə Roma Statutunun qəbul edilməsi ilə əsası qoyulan və 1 iyul 2002-ci ildə hüquqi qüvvəyə minən ilk daimi beynəlxalq tribunal kimi tarixə düşdü. Onun əsas məqsədi insanlıq əleyhinə cinayətlər, soyqırımları, müharibə cinayətləri və təcavüz aktlarına görə fərdlərin məsuliyyətə cəlb olunmasıdır.

BCM-in yaradılması beynəlxalq ictimai rəyin və qlobal güc balansının diktə etdiyi bir zərurət idi. 1990-cı illərdə Balkanlarda (xüsusilə Bosniya və Hersoqovinada) və Ruandada baş verən kütləvi qırğınlar beynəlxalq ictimaiyyətin vicdanında dərin izlər qoydu. Soyqırımları, etnik təmizləmələr və müharibə cinayətləri beynəlxalq hüququn səmərəliliyinə və milli məhkəmə sistemlərinin ədaləti təmin etmə qabiliyyətinə dair ciddi şübhələr doğurdu.

Cinayətlərin törədildiyi kontekstdə ən çox verilən sual bu idi: "Əgər dövlət özü cinayətkarları cəzalandırmaq istəmirsə və ya edə bilmirsə, beynəlxalq ictimaiyyətin reaksiyası nə olmalıdır?". Deməli, BCM-in daimi və müstəqil qurum kimi meydana çıxması beynəlxalq hüquqi sistemdə mühüm boşluğu doldurmağa yönəlmişdi.

BCM-in yaranması dövründəki beynəlxalq nizam bu gün ciddi şəkildə dəyişib. Multipolyar dünya düzəni, yeni regional güclərin ortaya çıxması, Qərb hüquqi institutlarına inamın azalması fonunda BCM-in nüfuzu da zərbə alıb. Rusiya və ABŞ kimi ölkələrin BCM-in qərarlarını tanımaması, Afrika dövlətlərinin bir-birinin ardınca məhkəmədən çıxmaq istəməsi legitimlik böhranının əlamətləridir.

Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) səlahiyyətləri və yurisdiksiyası müəyyən hüquqi çərçivələrlə məhdudlaşdırılıb. Onun müdaxilə edə bilməsi üçün konkret şərtlər mövcuddur: ya müvafiq ölkə Roma Statutunu ratifikasiya etməli, ya da BMT Təhlükəsizlik Şurası məsələnin BCM tərəfindən araşdırılmasına qərar verməlidir. Alternativ olaraq, müvafiq cinayət hadisəsi Roma Statutuna qoşulmuş ölkənin ərazisində baş verməlidir. Həmin mexanizm BCM-ə müəyyən dərəcədə beynəlxalq hüquqi səlahiyyət versə də, eyni zamanda, ciddi struktur məhdudiyyətlər yaradır.

Problemin əsas məğzi ondan ibarətdir ki, dünyanın bir sıra aparıcı dövlətləri, o cümlədən, ABŞ, Rusiya, Çin və İsrail Roma Statutunu ratifikasiya etmədikləri üçün BCM-in yurisdiksiyasını tanımırlar. Nəticə etibarilə, məhkəmənin hüquqi təsir dairəsi qlobal deyil, yalnız bu sistemə razılıq verən dövlətlərlə məhdudlaşır ki, bu da BCM-in iddia edilən beynəlxalq obyektivliyini və bərabər yanaşma prinsipini sual altına qoyur.

BCM-in praktik fəaliyyəti illər keçdikcə onu qlobal siyasi proseslərin ayrılmaz tərkib hissəsinə çevirdi. Lakin bu, həm də onu ciddi tənqidlərə məruz qoydu. Məhkəmənin istintaq açdığı və hökm verdiyi halların əksəriyyətinin Afrika ölkələri ilə bağlı olması "Beynəlxalq Qərb Məhkəməsi" damğasını doğurdu. BCM-in, əslində, zəif dövlətlərə tətbiq olunan, lakin böyük gücləri kənarda saxlayan selektiv bir institut olduğu fikri beynəlxalq münasibətlərdə daha da yayılmağa başladı.

Macarıstanın Baş naziri Viktor Orbanın Beynəlxalq Cinayət Məhkəməsinin qərarlarını icra etməyəcəklərini bildirməsi Avropa və beynəlxalq hüquq ictimaiyyətində ciddi rezonans doğurdu. Orbanın fikrincə, BCM artıq hüquqi ədalət mexanizmi olmaqdan çıxıb və böyük güclərin siyasi məqsədləri naminə yönləndirdiyi bir vasitəyə çevrilib. Fikir Orban hökumətinin illərdir vurğuladığı bir məqamdır: beynəlxalq institutların qərarlarının getdikcə daha çox "ideoloji ədalət" deyil, "siyasi manipulyasiya" ilə formalaşdığına dair narahatlıq. Orban bu addımı ölkəsinin artıq "yarımçıq üzvlük"



dövrünü başa vurması kimi qiymətləndirir. Başqa sözlə, Macarıstan suveren qərar vermək hüququnu müdafiə edir və beynəlxalq tribunal qarşısında tabeçiliyi milli maraqlara zidd hesab edir

Roma Statutunun prosedurlarına əsasən, Macarıstan BMT Baş Katibliyinə rəsmi bildiriş verdikdən sonra bu çıxış bir il ərzində qüvvəyə minəcək. Bu müddət ərzində Aİ daxilində və beynəlxalq arenada Macarıstanın qərarına münasibət daha da formalaşacaq. Nəzərə alsaq ki, bu, Avropa İttifaqı (Aİ) daxilində belə bir addımı atan ilk ölkə olacaq, bu hadisə sadəcə hüquqi dəyişiklik deyil, həm də siyasi presedent xarakteri daşıyır.

Macarıstanın BCM-dən çıxmaq qərarı Aİ daxilində uzun zamandır davam edən siyasi və hüquqi parçalanmanı bir daha üzə çıxardı. Belçika, Avstriya və Almaniya kimi ölkələr bu addımı sərt şəkildə tənqid etdilər. Bildirdilər ki, Beynəlxalq Cinayət Məhkəməsi universal hüququn dayaqlarından biridir və bu institutun nüfuzuna xələl gətirəcək istənilən qərar beynəlxalq ədalət sisteminə zərbə vurur.

Avropa İttifaqı əsas dəyərlərindən biri kimi beynəlxalq hüququn aliliyini və insan haqlarının qorunmasını qəbul edir. Elə bu səbəbdən, Macarıstanın BCM-dən çəkilməsi Aİ-nin "hüquq birliyi" konseptinə qarşı təhdid kimi qəbul olunur. Eyni zamanda, bu addım hüququn siyasətə tabe edilməsinə qarşı çıxan Avropa dövlətlərinin prinsipial mövqeyi ilə ziddiyyət təşkil edir. Nəticədə, Macarıstan Aİ-nin daxilində hüquqi mənsubiyyət məsələsində "ayrı yol seçən ölkə" statusunu daha da möhkəmləndirir.

Hadisələrin fonunda Avropa Komissiyası ilə Macarıstan arasında artıq davam edən hüquqi mübahisələrə yeni bir məsələ əlavə olunur. Artıq müxtəlif Avropa paytaxtlarında səslənən fikirlər qərarın gələcəkdə Aİ ilə münasibətlərə təsir edə biləcək hüquqi tədbirlərlə nəticələnə biləcəyinə işarə edir. Macarıstanın daxili hüquqi sistemi və konstitusiyası ilə beynəlxalq öhdəlikləri arasında yaranan ziddiyyətlər Avropa Məhkəməsi tərəfindən də incələnə bilər.

Macarıstanın BCM-dən çıxması həm də qlobal geosiyasi baxımdan maraqlı proseslərin xəbərçisidir. Orban hökuməti son illər Qərb blokunun sərt tələblərinə qarşı Rusiya və Çin kimi güclərlə daha çox balanslı və praqmatik münasibətlər qurmağa çalışır. Məhz bu kontekstdə BCM-dən çıxmaq qərarı Moskvanın maraqlarına da uyğun gəlir. Xüsusilə, Rusiya Prezidenti Vladimir Putinə qarşı BCM tərəfindən çıxarılan həbs qərarına Macarıstanın reaksiyası bu geosiyasi oxun formalaşdığını göstərdi. Budapeştin bu qərarı icra etməyəcəyini bəyan etməsi rəsmi Moskva tərəfindən yüksək qiymətləndirildi, bu da Macarıstanın beynəlxalq hüquqi sistemdən çəkilərək alternativ geosiyasi bloklarda öz yerini möhkəmləndirməyə çalışdığını göstərir.

Azərbaycan da BCM-in selektiv və bəzən ikili standartlara əsaslanan davranışına qarşı tənqidi mövqedədir. Xüsusilə, Ermənistan – Azərbaycan münaqişəsi fonunda Ermənistan tərəfindən törədilmiş hərbi cinayətlər, Xocalı soyqırımı və işğal dövründə beynəlxalq hüququn pozulmasına dair çoxsaylı sübutlar olmasına baxmayaraq, bu məsələlərin BCM gündəminə çıxarılmaması və araşdırılmaması rəsmi Bakının haqlı narazılığına səbəb olur.

Beynəlxalq hüququn universal prinsipləri çərçivəsində 30 ilə yaxın işğal altında qalmış Azərbaycan ərazilərində həyata keçirilmiş sistemli mülki infrastrukturun dağıdılması, minalanma, qeyri-qanuni məskunlaşdırma kimi hərəkətlər ciddi hərbi və humanitar cinayətlər kontekstində qiymətləndirilməlidir. Lakin bu cinayətlərə qarşı BCM tərəfindən heç bir hüquqi reaksiya verilməməsi məhkəmənin qərəzli və siyasi sifarişli fəaliyyət göstərdiyinə dair təsəvvürü gücləndirir.

2020-ci ildə İkinci Qarabağ müharibəsindən sonra ortaya çıxan yeni geosiyasi reallıq fonunda Azərbaycanın beynəlxalq hüquq institutlarına çağırışları və təqdim etdiyi sənədlər hüquqi əsaslara söykənsə də, yenə BCM tərəfindən adekvat cavab almamışdır və bunlar regionda ədalətli hüquqi mexanizmlərin işləmədiyini, beynəlxalq hüququn yalnız bəzi aktorlar üçün tətbiqini nümayiş etdirir.

Macarıstanın Roma Statutundan çıxmaq qərarı təkcə onun beynəlxalq hüquqla deyil, həm də onun ikitərəfli münasibətlərində yeni mərhələ başlada bilər. Xüsusilə, Azərbaycanla münasibətlər baxımından bu addım əhəmiyyətli siqnal kimi qəbul olunur. Budapeştin BCM-nin selektiv ədalətinə qarşı çıxması və bu məhkəməni siyasi təsirlərə açıq platforma kimi tənqid etməsi Azərbaycanın bu sahədəki narahatlıqları ilə üst-üstə düşür.

Macarıstan Baş naziri Viktor Orbanın "milliləşdirilmiş diplomatiya" və "suveren hüquqi qərarlar" xətti Azərbaycanın suverenlik və milli maraqlara əsaslanan xarici siyasət fəlsəfəsinə yaxındır və bu paralellik Bakı – Budapeşt əməkdaşlığının hüquqi və ideoloji kontekstini gücləndirə bilər. Macarıstanın BCM-dən uzaqlaşması Azərbaycanın da gələcəkdə bu institutla bağlı qərarlarında daha sərbəst davranmasına və daha açıq müttəfiqlik modelini inkişaf etdirməsinə zəmin yarada bilər.

Azərbaycan və Macarıstan son illərdə siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığı dərinləşdirib. Xüsusilə, enerji təhlükəsizliyi, nəqliyyat layihələri və Avropa İttifaqı ilə əlaqələr çərçivəsində strateji dialoq formalaşıb. Macarıstan Azərbaycanın Avropa ilə enerji körpüsü rolunu açıq şəkildə dəstəkləyən ölkələrdən biridir. Bundan əlavə, Macarıstan Aİ daxilində Azərbaycana münasibətdə balanslı və obyektiv mövqe tutan azsaylı dövlətlərdəndir. Deməli, onun BCM-dən çıxması rəsmi Bakının da bu platformaya qarşı daha sərt və prinsipial mövqe sərgiləməsinə diplomatik rahatlıq qazandıra bilər.

Bakı – Budapeşt xəttində bu qərarın müsbət nəticəsi olaraq, hüquqi təcrübə və diplomatik əlaqələrin dərinləşməsi, hüquq və ədalət sahəsində yeni əməkdaşlıq modellərinin formalaşması ehtimalı yüksəlir. Hər iki dövlətin ortaq təməl dəyərlərə – suverenlik, milli maraqların qorunması və ikili münasibətlərdə bərabərlik prinsipinə – əsaslanaraq beynəlxalq platformalarda bir-birinə dəstək verməsi gələcəkdə həm regional, həm də qlobal səviyyədə onların təsir imkanlarını genişləndirə bilər.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

Qoy dünya görsün!

# Erməni vandalizminin səssiz şahidləri



**Dünən Prezident Kitabxanasında Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Mədəniyyət Nazirliyi və Qarabağ Dirçəliş Fondu ilə birgə layihəsi olan "Dağıdılmış irs: səssiz şahidlər" fotoalbomunun təqdimatı keçirilib.**




Prezident Kitabxanasının direktoru Afət Abbasovanın moderatorluğu ilə keçən təqdimatda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Himayəçilik Şurasının sədri, akademik Kamal Abdulla bildirib ki, tanınmış fotoqraf soydaşımız Reza Deqatinin tərtib etdiyi fotoalbom Azərbaycanın işğaldan azad edilmiş ərazilərindəki dini və mədəni irsin dağıdılmasını sübut edən zəngin mənbədir və 30 illik işğal müddətində baş verənlər haqqında dolğun təsəvvürün yaradılmasında mühüm rol oynayır. Alim fotoalbomun təkcə sənədli material deyil, həm də tarixi yaddaşın qorunması baxımından mühüm əhəmiyyət daşıdığını qeyd edib.

Mərkəzin icraçı direktoru Rəvan Həsənov kitab haqqında ətraflı məlumat verib. O bildirib ki, fotoalbom Ermənistan tərəfindən Qarabağ və Şərqi Zəngəzurun işğalı zamanı Azərbaycanın mədəni irsinin məruz qaldığı çoxsaylı vandalizm aktlarına və dağıntılara işıq salır. Əsasən beynəlxalq auditoriya üçün nəzərdə tutulan nəşrdə Qarabağ ərazisində yerləşən, tarixin səssiz şahidləri olan, məhv edilən və dağıdılan mədəni irs nümunələrinin işğaldan əvvəlki və sonrakı fotoları yer alıb.

Diqqətə çatdırılıb ki, işğal zamanı təkcə İslam dini abidələri deyil, həmçinin Qafqaz Albaniyasına aid xristian abidələri də erməni vandalizminin və saxtakarlığının hədəfinə çevrilib. İşğal altında qalmış ərazilərimizdə tarix və mədəniyyət abidələrinin məqsədyönlü şəkildə məhv edilməsi, onların etnik, hətta dini mənşəyinin qəsdən saxtalaşdırılması və mənimsənilməsi beynəlxalq humanitar hüquqa, müvafiq beynəlxalq hüquqi sənədlərə ziddir, müharibə cinayətidir.

Qarabağ Dirçəliş Fondun İdarə Heyətinin sədri Rəhman Hacıyev qeyd edib ki, təqdim edilən fotoalbom Azərbaycanın işğaldan azad olunmuş ərazilərindəki mədəni və dini abidələrin məhv edilməsini sənədləşdirən mühüm bir layihədir. Mədəniyyət nazirinin müşaviri Orxan Fikrətoğlu isə bildirib ki, belə layihələrin davamlı olmasını nazirlik fəal dəstəkləyir.

Himayəçilik Şurasının üzvü Elmira Axundova, Milli Məclisin deputatı Ceyhun Məmmədov, Arxeologiya və Antropologiya İnstitutunun direktoru Fərhad Quliyev, Mətbuat Şurasının sədri Rəşad Məcid, Birinci vitse-prezidentin Katibliyinin baş məsləhətçisi Fərqan Abaszadə, Tarix və Etnologiya İnstitutunun əməkdaşı Faiq İsmayılov Azərbaycanın işğaldan azad olunmuş ərazilərində mədəni, dini və tarixi irsə qarşı törədilmiş vandalizm aktlarının sənədləşdirilməsinin və beynəlxalq ictimaiyyətə çatdırılmasının vacibliyini vurğulayıblar.

İştirakçılar "Dağıdılmış irs: səssiz şahidlər" fotoalbomunda yer alan fotolardan ibarət sərgi ilə də tanış olublar.

***T.RÜSTƏMLİ***
***XQ***

# XİN-in İranda səfirliyimizə hücum etmiş terrorçunun edamı ilə bağlı şərhi

**Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə hücum etmiş terrorçuya qarşı edam hökmünün icrasını şərh edib.**

A.Hacızadə bildirib: "2023-cü il yanvarın 27-də Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə qarşı terror hücumu həyata keçirmiş, səfirliyin bir əməkdaşını qətlə yetirmiş, iki əməkdaşını isə yaralamış Yasin Hüseynzadəyə qarşı 2024-cü il yanvarın 28-də çıxarılmış ölüm hökmü 2025-ci il mayın 21-i səhər saat 5-də icra olunub.

Edamın icra olunması prosesini səfirliyimizin iki nəfər əməkdaşı və məhkəmə prosesində Azərbaycan tərəfindən təyin edilmiş vəkil müşahidə edib.

Sözügedən terror aktını həyata keçirmiş şəxsin ən ağır şəkildə cəzalandırılması Azərbaycanın İran tərəfindən əsas gözləntiləri sırasında idi.

Diplomatik əlaqələr haqqında Vyana Konvensiyasına uyğun olaraq, diplomatik missiyalarımızın təhlükəsizliyinin təmin olunması və bu qəbildən əməllərin qarşısının alınması istiqamətində yerləşmə ölkəsi tərəfindən müvafiq tədbirlərin görülməsi hər zaman əhəmiyyət kəsb edir.

Qarşılıqlı hörmətə və mehriban qonşuluğa əsaslanan Azərbaycan-İran əlaqələrinin inkişafı istiqamətində birgə səylərin davam etdirilməsini vacib hesab edirik".

***XQ***

# Azərbaycan–Xorvatiya siyasi məsləhətləşmələri

**Zaqreb şəhərində Azərbaycan Respublikası və Xorvatiya Respublikası xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti iclası keçirilib.**

Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Fariz Rzayev, Xorvatiya nümayəndə heyətinə isə bu ölkənin Xarici və Avropa İşləri Nazirliyinin dövlət katibi Frano Matuşiç rəhbərlik edib.

Görüşdə Azərbaycan ilə Xorvatiya arasında siyasi əlaqələrin inkişaf dinamikası haqqında fikir mübadiləsi aparılıb. Son illərdə yüksəksəviyyəli səfər mübadilələrində müşahidə olunan canlanma təqdir edilib, siyasi dialoqun intensivliliyinin təmini məqsədilə bu səfərlərin davam etdirilməsinin və beynəlxalq təşkilatlar çərçivəsində təmasların gücləndirilməsinin vacibliyi vurğulanıb. Sonra iqtisadi-ticari sahədə, o cümlədən ənənəvi və alternativ enerji sahələrində aparılan əməkdaşlıq və inkişaf perspektivləri müzakirə olunub. Bununla yanaşı, humanitar minatəmizləmə sahəsində həyata keçirilən layihələr haqda danışılıb, bu və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün müvafiq müqavilə-hüquq bazasının inkişaf etdirilməsinin önəmi qeyd olunub.

***XQ***

# Qlobal geosiyasət və Türk Dövlətləri Təşkilatı



*II məqalə*

## Yeni antitürk dalğası

Bu, xırda hadisə deyil. Çünki türk dövlətləri elə bir geosiyasi və siyasi passionarlıq səviyyəsinə yüksəlmişlər ki, təsirləri regionlararası miqyası da aşaraq qlobal miqyasda özünü ciddi surətdə hiss etdirməkdədir. Özlərini dost kimi təqdim edənlər, lakin şəxsi ambisiyaları olan bir sıra dövlətlər belə bunu qəbul etmək istəmirlər. Məhz böyük güclərlə (ABŞ, Aİ, Rusiya, Çin, Hindistan) yanaşı, onlar da türk cəmiyyətlərinə sistemli və davamlı olaraq informasiya təsirlərinə başlamışlar. Burada bir-birinə şeytan deyənlər belə birləşmişlər.

Bir mərkəzdən türk dövlətləri daxilində təxribatçı, aravuran, türk kimliyini aşağılayan sosial, mədəni, ideologiya və s. xarakterli uydurma informasiyalarla insanları qarşı-qarşıya qoymağa, hakimiyyət – xalq birliyini pozmağa və yekunda Azərbaycan cəmiyyətini üzünü əsrlərcə ona düşmənçilik edən dairələrə tərəf tutmağa məcbur etmək istəyirlər. Həmin təsirlər okeanın o tayından – bu tayından, Şimaldan və Cənubdan və son zamanlar daha çox Yaxın Şərqdən gəlir.

## Qlobal geosiyasətin sifarişçiləri

Bu prosesdə təbliğat və geosiyasət baxımından bir incə məqam vardır ki, qeyd edilməlidir. İndi antitürk əhval-ruhiyyəsi yaratmağa çalışanların təməldə olan maraqları əsrlərlə üsütörtülü yeridilən bir xəttə bağlıdır. Türk coğrafiyasına ayaqlarını basandan burada türk dövlətçilik ruhunu yox etmək və geniş əhatədə geosiyasi nizamı öz maraqlarına uyğun formalaşdırmaq istiqamətini yeritmişlər. Keçən əsrin əvvəllərində Səfəvi ilə Osmanlını tam dağıtmaq üçün (Səfəvi faktiki olaraq bir qədər əvvəl çökdürülmüşdü, lakin hüquqi ifadəsi tam başa çatmalı idi ki, "İran" adlanan dövlətin yaradılmasında öz əksini tapdı) bir neçə imperiya (Qərb imperiyaları və Rusiya) məhz həmin qlobal məqsəd üçün birgə fəaliyyət göstərdilər. Nəticədə beə bir geosiyasi mənzərə alındı:

Türk dövlətçiliyinin olduğu coğrafiyada ən geniş geosiyasi çərçivə yadlar tərəfindən müəyyənləşdirilməli idi. Türk dövlətlərinin mövcudluğu və ya yoxluğu həmin dairələr tərəfindən müəyyənləşdirilməli idi. Buna görə də türklərin siyasi şüuruna və cəmiyyətin psixologiyasına, ümumi deyirik, "ən yaxşısı və güclüsü yadlardır və onların dediklərinə əməl etsəniz xoşbəxt olacaqsınız", fəlakətini yerləşdirdilər. "Yadlar" obrazına ruslar, yəhudilər, ingilislər, almanlar, fransızlar, amerikanlar və farslar daxil idi (lakin farslar onlardan xeyli aşağı səviyyədə imkana malik idilər).

Bu xətti Azərbaycanın Qarabağ savaşındakı qələbəsi tam sındırdı. Avtomatik olaraq, türk coğrafiyasında ən geniş anlamda geosiyasi düzənin sifarişini yad dairələr deyil, yerli dövlətlərin verməli olduğu zərurət kimi qarşıya çıxdı. 2020-ci ildən bu yana Cənubi Qafqazda, Mərkəzi Asiyada və Yaxın Şərqdə gedən siyasi, geosiyasi, informasiya, energetika, hərbi proseslər göstərdi ki, əsrlərcə hökmranlıq edənlər aparıcı rollarını itirirlər. Onlar üçün ən ağırı ondan ibarətdir ki, türk coğrafiyasının geosiyasi kimliyinin sifarişçisi, ağası və idarəedicisi olmaq rollarından məhrumdurlar.

Anlamaq lazımdır: bundan aşağı səviyyədə biz türklərə çox şirin vədlər verə bilərlər. Biri Avrasiya inteqrasiya modelini, digəri daha hiyləgər, lakin yad ssenari üzrə Avrasiya inteqrasiya ideyasını, digəri "İbrahim uşaqları" ideologiyasını, bir başqası açıqca rusçuluğu, digərləri "xilaskar Çindir" obrazını və s. sırımağa çalışarlar. Və bu zaman dostluqdan, bizim yaxşılığımızı öz türk qardaşlarımızdan daha çox istəməkdən dəm vurarlar. Onlar Qarabağ münaqişəsinin həllində ya tam olaraq ortada yox idilər, ya da Azərbaycana müəyyən silahlar satırdılar. Azərbaycanın siyasi, ideoloji, informasiya və diplomatik aspektlərdə əvvəldən axıra yanında olan tək dövlət Türkiyə oldu! Qardaş Pakistan çox dəstək verdi, lakin Türkiyə qədər əmək qoyan başqası olmadı!. Əksinə, müsəlman qardaş dediklərimiz açıq və gizli olaraq ermənilərə ciddi dəstək verdilər və indi də edirlər. Bir başqaları məsafəni nə uzaq, nə da yaxın saxlamadılar – özlərinə sərf edən məsafədə qaldılar. İndi isə nələr etməyə çalışırlar?

İki qardaş dövlət arasında nifaq salmaq üçün çox cəfəngiyyat uydururlar. Məsələn, "əsl təhlükə Türkiyədəndir, görün başınıza nə oyun açacaq, hətta dilimizə də təhlükə türk dilindəndir, səmimi və tarixi sədaqətli dost bizlərik"! Yəni real həyatda, tarixdə açıq və gizli düşmənçilik edənlər mənə yol göstərir. Ağıl verir, dostu-düşməni onun meyarları ilə müəyyən etməyimi az qala tələb edir. Hətta radikal təşkilatları ilə təhdid etməyə çalışırlar. Onun yanında sanksiyaları, "bir anda sizi məhv edərik" və sair kimi nağılları da az deyildir. Bunların fonunda bir tərəfdən tarixi faktları antitürk və anti-Türkiyə istiqamətində saxtalaşdırır, müxtəlif məkrli suallar qoyur və böhtanlar atırlar. Onların "neçənci kalonları"nın səsləri Azərbaycan KİV-in məkanından və internetdən bağırmaqdan batmaqdadır. Bütün məkrləri qardaşlığın inkişafına, türkün öz yolunu özünün müəyyənləşdirməsi hüququna malik olmasına əngəl olmaqla əlaqəlidir.

Digər fəaliyyətləri Azərbaycan cəmiyyətini daxildən qiymətsizləşdirmək, insanları bir-birinə qarşı qoymaq, etnik zəmində ixtilaflar yaratmaqla bağlıdır. Bunun üçün Azərbaycanın tarixini, onun böyük şəxsiyyətlərinin kimliyini və fəaliyyətlərini saxtalaşdırmağa girişmişlər. İndi yeni səviyyədə "arqumentli, tarixi mənbələrə əsaslanan real Azərbaycan tarixini yazmaq"la belə məşğul olanları vardır. İnternet kanallarında müxtəlif sosial, məişət, siyasi, mədəni, elmi hadisələri öz ssenarilərinə uyğun təqdim etməkdən halsızlaşmışlar. Və ən pisi odur ki, bu prosesdə özünü azərbaycanlı kimi təqdim edən, zahirən müasir görünüşlü kəslər də canfəşanlıq edirlər. Onlar Qərb, rus, fars, yəhudi, Avropa, Çin və digər dəyərləri nümunəvi obraz kimi müxtəlif kontekstlərdə təbliğ və təşviq etməyə çalışırlar.

Müşahidələr göstərir ki, bu dalğa türk dövlətləri hər hansı uğura imza atanda və ya türk mədəni, siyasi, müdafiə, təhlükəsizlik, enerji birliyini ifadə edən tədbir keçirəndə daha da qabardılır. Macarıstanda türk liderlərin qeyri-rəsmi sammiti ərəfəsi də eyni mənzərə müşahidə edildi. Türk tarixi və Azərbaycan dili ilə bağlı bir sıra qondarma fikirlər ortaya atıldı. Bəlkə də tarix və dillə bağlı bir sıra məqamlar keçicidir, lakin elə terminoloji dolaşıqlıq yaratmaq cəhdi özünü göstərir ki, üzərində bir qədər geniş dayanmaq lazımdır.

## "Türkdilli dövlət", yoxsa "türk dövləti"?

Bəzi "milli" və real antimilli dairələr türk dövlətlərinin kimliyini müxtəlif terminlərlə təhrif edərək, əslində, Türk dünyasının real birliyinə qarşı çıxırlar. Onun əlamətlərindən biri hələ də hətta Azərbaycn KİV-də "türkdilli dövlət" ifadəsini TDT kontekstində işlətmələridir. "Türkdilli dövlət" nə deməkdir? Yəni bir dövlətin dili türkdürsə, onun mahiyyətini, dövlətçilik kimliyini necə adlandırmaq olar? Burada iki variant ola bilər: birincisi, dili türk olan dövlətin özü də türk dövlətidir, ikincisi, dili türkdür, lakin cəmiyyəti və dövlətin mahiyyəti türk deyil. Bu suallara cavab üçün iki nümunəyə baxaq.

Nursultan Nazarbayev təklif etmişdi ki, türk dövlətləri üçün "türkdilli" deyil "türk dövlətləri" ifadəsi işlədilsin. Ondan əvvəl Ulu öndər dəfələrlə bəzi istisnalar olmaqla (mövzudan asılı olaraq) "biz türkük", "türk dövlətləri", "bir millət iki dövlət" ifadələrini işlətmişdir. Prezident İlham Əliyev TDT kontekstində daim "türk dövlətləri" ifadəsinə üstünlük verir. Ayrıca dil məsələsinə gəldikdə isə "türkdilli dövlət" termini işlədilə bilər ki, bu da tamam başqa vurğudur.

İndi "türkdilli dövlətlər"i TDT kontekstində işlədənlər, əslində, bu dövlətlərin türk olmadığını üstüörtülü demək istəyirlər. Bəs onda həmin dövlətlərin kimliyi necədir? Azərbaycan, Qazaxıstan, Türkiyə, Özbəkistan, Qırğızıstan və s.

Bəs, Macarıstan necə, türkdilli dövlətdir? Bilirik ki, türkdilli deyil! Hamı bilir! Lakin rəsmi olaraq bəyan edirlər (reallıq da belədir!) ki, türk kökənlidirlər. Mayın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Macarıstanın Baş naziri Viktor Orbanın mətbuata verdikləri bəyanatlarda işlətdikləri terminlərə baxaq.

Azərbaycan Prezidenti İlham Əliyev: "Biz dost ölkələrik, strateji tərəfdaşıq. Azərbaycanla Macarıstan arasında bir çox oxşarlıqlar var. Birincisi, bizim tarixi köklərimiz. Bilirəm ki, macar xalqı öz tarixi köklərinə çox bağlıdır".

Macarıstanın Baş Nazri Viktor Orban: "Tarixdə ilk dəfədir ki, Türk Dövlətləri Təşkilatının Zirvə toplantısı Macarıstanda keçirilir. Biz bu təşkilata tamhüquqlu üzv deyilik, biz müşahidəçi ölkəyik. Ancaq istənilən şəkildə biz bu gün bu zirvə toplantısına ev sahibliyi edirik. Bizi sevindirən digər bir amil odur ki, bu gün beynəlxalq diplomatiyada qasırğanın hökm sürməsi, vəziyyətin gündən-günə dəyişməsi, təhlükələrin və çağırışların artması fonunda dost ölkələr bir araya gələrək beynəlxalq münasibətləri müzakirə edirlər... Türk ölkələri olmasaydı, bu gün macar əhali enerjiyə 3-4 dəfə daha çox pul sərf etməli olardı".

Yəni, hətta Avropada yerləşən Macarıstan kökdən türk dövlətidir və buna görə də dilində digər türk dövlətlərində işlənən türkcələrə oxşar sözlər vardır. Konkret desək, məsələ bəzilərinin sırımaq istədiyi kimi, dildən dövlətə keçidlə kimlik qiyməti prosesi deyildir, dövlətdən dilə keçidlə kimlik qiyməti verməklə bağlıdır.

Bundan başqa, "türkdilli dövlətlər" ifadəsini TDT kontekstində işlədən kəslərə "ortaq türk dili" ifadəsini deyən kimi sifətləri tamam əyilir. Onda da özlərini məntiqi olaraq təkzib edirlər. Yəni, "türk dili" nədir? sualına "türkdilli dövlət" kontekstində cavab verə bilmirlər. Məntiqlə bir neçə dövlət "türkdilli"dirsə, onda vahid türk dilinə malikdirlər, yaxud işlətdikləri ya ləhcədir, ya da əsasən eynidir. Bunların hər ikisi inkaredici formada qəbul edilmir: "Azərbaycan, qazax, özbək dilləri və s. vardır", – deyirlər. Bəs onda TDT konstekstində işlədilməyə çalışılan "türkdilli" terminində bu "türk dili" konkret hansı dili ifadə edir?

## Bəxtiyar Vahabzadə nə deyərdi?

Bunları həmin "neçənci kolonlar"ın ağaları bilmirlər? Çox gözəl bilirlər. Bildikləri üçün də çılğınlıqla isteriya yaratmağa çalışırlar. Ona görə ki, reallıq belədir: Yer kürəsində bir neçə türk dövləti mövcuddur. Onların ümumi olaraq dili türk dilidir. Lakin tarixi və digər səbəblərdən hər birinin indi avtonom substantiv və funksional özəllikləri olan dili formalaşmışdır. Bizim Azərbaycan dilimiz vardır! Onu heç nə ilə əvəz etmək mümkün deyildir! Çünki Azərbaycan dili inkişaf etmiş, tam formalaşmış və özünütəşkil edən semantik, rəmzi, qrammatik, forma özəlliyinə malik zəngin dil sistemidir!

Bu dili genişləndirmək və ya zənginləşdirmək istəyənlər "nu çto", "koneçno", "prosto", "tak çto" və s. kimi tamam yad kəlmələrə deyil, Azərbaycanda qədimdən işlənən təmiz türk sözlərinə və ya müasir, ən inkişaf etmiş dillərdə olan elmi, fəlsəfi, texnoloji və s. kəlmələrə baxsınlar.

"Nu çto"lar bizi nəinki inkişaf etdirmir, əksinə, təfəkkürümüzün köləliyinin düşmən ssenarisi üzrə dərinləşməsinə, davam etməsinə, ömrünün uzadılmasına təkan verir! Hörmətli dilçilər, sizlər "yeltək" (yəni "yel təki", "yel kimi") sözünü təkrar dilimizə qazandırın! Azərbaycan cəngavərliyinin, vətənsevərliyinin, torpağı, namusu, yurdu, ailəsi uğrunda yenilməz mübarizliyin rəmzlərindən biri olan bu sözü qazandırın bizə! Bu istiqamətdə dilimizi inkişaf etdirib, onun semantik prioritetini milliliyə yönəldin ki, valideynlər uşaqlarına türk adını qoymaqdan çəkinməsinlər.

Türk adının əvəzinə mənasını belə anlamadığımız fars, ərəb, yəhudi, ingilis, rus və sair qondarma adlar qoymasınlar. Məsələn, uşaqlara şəhadətnamə verən qurum "qotaz" adına etiraz edir, lakin, deyək ki, "zuqaqqa" (sovet dönəmində "kombayn", "traktor", "sovet" və s. cəfəngiyyatlar olardı, ancaq qədim türk kəlməsi olmazdı) kimi bir şey qondar və ya anlaşılmayan bir ərəb sözü de, onu qəbul edəcək.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

Replika

# Lavrov, Ermənistan və Mozambik

## *Yaxud Rusiya XİN rəhbərinin İrəvan səfərinə sözardı*

**Xarici işlər naziri Sergey Lavrov İrəvana Rusiya amilini xatırlatmaq üçün getmişdi. Əslində, bu, gözlənilən idi. Mövcud fonda ikitərəfli münasibətlərə dair müəyyən pozitiv fikirlərin səslənəcəyini də proqnozlaşdırmaq olardı. Ancaq bəribaşdan deyək ki, Rusiya XİN rəhbəri Ermənistanda diplomatik subliminalizmin dozasını həddən artıq yüksəyə qaldırdı. Bu barədə sonda söz açacağıq. Hələlik isə...**



Anlayırıq ki, Rusiya və Ermənistan müttəfiqdirlər və birincinin ikincini qorumaqla bağlı yazılı öhdəliyi var. Hərçənd, müttəfiqliyin qarşılıqlı əsasda olduğunun fərqindəyik. Axı Moskva ilə Bakı arasında da müttəfiqlik müqaviləsinin mövcudluğuna baxmayaraq, heç vaxt Şimal qonşumuzun hansısa rəsmisinin dilindən eşitməmişik ki, Rusiya Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini qorumağa hazırdır. Əlbəttə, sözümüz bunda deyil. Birincisi, özümüz hər şeyə qadirik, hansısa dövlətə ehtiyacımız yoxdur. İkincisi isə Rusiyada erməni sevdasının xroniki xəstəliyə çevrildiyindən xəbərdarıq.

Əlqərəz, indi Lavrov özü müəyyənləşdirsin ki, onun İrəvana səfərindən əvvəl baş nazir Nikol Paşinyanın blogerlərinin Prezident Vladimir Putini, az qala, Hitler kimi göstərən plakatlarında pis nə isə var, yoxsa yox? Məsələn, biz duruma tolerant yanaşırıq. Çünki Qərb Ermənistanda demokratiyanın olduğunu deyir. Ola bilər, erməni demokratların Lavrovdan və Putindən xoşları gəlmir...

Bəli, bütün bunlara rəğmən Kremlin baş diplomatı İrəvanda Rusiyanın Ermənistanı qorumağa hazır olduğunu bildirirsə, deməli, ən azından, yumor hissi çox güclüdür. Amma sual olunur: Moskva İrəvanı kimdən müdafiə edəcək? Axı ikincini qoruyanlar var. Məsələn, Avropa İttifaqının Azərbaycan-Ermənistan şərti sərhədinin Ermənistan tərəfində lövbər salmış mülki müşahidə missiyası. Missiyanın üzvləri təpədən-dırnağadək binoklla "silahlanıblar". Ermənistanın baş diplomatı Ararat Mirzoyandan, N.Paşinyandan tutmuş, hay hakim komandasının ən xırda məmurunadək, hamı bir ağızdan deyir ki, Aİ müşahidəçiləri olmasaydılar, Azərbaycan əsgərləri İrəvanda parad keçirirdilər.

O zaman ehtimal edək ki, Rusiya kosmik dövlət kimi müttəfiqi Ermənistanın yadplanetlilərdən müdafiəsini təşkil edəcək. Yəni, bu yerdə Lavrovun Kremlin hakim rol oynadığı və İrəvanın da üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından danışması bir o qədər yerinə düşmür. Çünki qurum, tutaq ki, Marsdan, yaxud Yupiterdən müdafiə məsələlərinə baxmır. Üstəlik, haylar təşkilatın işindən qane olmadıqlarını dəfələrlə bildiriblər. Hətta, KTMT-dəki fəaliyyətlərini dondurduqlarını açıqlayıb, onun sıralarını tərk edəcəklərini dilə gətiriblər. Ermənistan KTMT-ni bəyənmir. Zorla deyil ki?

Hə, az qala, unutmuşduq. Rusiyanın XİN başçısı İrəvanda ölkəsinin Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına dəstək göstərməyə hazır olduğunu da dilə gətirib. Hesab edirik ki, cənab Lavrov, yenə düz eləmir. Axı həm Paşinyan, həm Mirzoyan, həm də digər yanlar dəfələrlə deyiblər ki, Moskvanın vasitəçiliyinə ehtiyac duymurlar. Hələ Ermənistan parlamentinin spikeri Alen Simonyan əsəbi halda bildirmişdi ki, Qarabağı Ermənistandan alıb Azərbaycana verən Rusiya olub. Ona görə də Lavrov gərək məsələnin üzərinə gəlməyəydi. Amma nə etsin, yəqin yaşlanıb, bir çox şeylər yadından çıxıb. Hərçənd, buna bir o qədər inanmırıq.

O səbəbdən inanmırıq ki, dünən, srağagün yaşananlar bir yana, Lavrov daha əvvəl, hətta otuz il əvvəl baş verənləri də xatırlayır. Amma Paşinyanın jurnalistləri belə şeyləri bilmir, qoca diplomatın üstünə son dərəcə aqressiv formada düşür, Rusiyanı Qarabağın itirilməsinə görə günahlandırırlar. Əlbəttə, Lavrov söz altda qalan deyil və bildirir ki, heç kəs Moskvanı bu məsələdə qınaya bilməz. Çünki Rusiya rəhbərliyi artıq olmayan Qarabağ münaqişənin həlli üçün ədalətli baxış irəli sürüb (?). Baxış da bu imiş ki, Azərbaycanın 7 rayonu geri qaytarılacaq, Qarabağın statusu məsələsinin həlli isə gələcək nəsillərin öhdəsinə buraxılacaq.

Bu cavabına görə Lavrova nə isə demək fikrindən uzağıq. Adam İrəvanda başqa nə danışmalıdır ki? Ancaq bir problem var. Rusiya XİN rəhbəri sözügedən variantı ədalətli saydığını deyib. Elə isə məsələnin üzərində bir qədər ətraflı dayanaq. Təsəvvür edin, Moskva əvvəl ermənilərə dinc şəkildə yeddi rayonu geri qaytarmağı təklif edir, onlar razılaşmırlar. Axırda da Paşinyan "Qarabağ Ermənistandır nöqtə" bəyanatını verib Rusiyanın erməni təəssübkeşliyi üzərində qurulmuş oyunlarını pozur, müharibəyə səbəb olur və Ermənistan savaşda rüsvayçı məğlubiyyətə uğrayır. Mövcud fonda isə Lavrovun "yaddan çıxardığı" bir məqam var – Azərbaycanın şəhidlər verərək, öz haqqını əldə etdi. Bu, heç bir halda unudulmamalıdır.

Problem ondadır ki, Rusiyada 44 günlük müharibədən sonra da Qarabağın statusu məsələsinin həllini gələcək nəsillərə saxlamaqdan dəm vurulurdu. Elə Lavrovun özü də bu haqda danışırdı. Görəsən, Bakıdan möhkəm qışqırsaq, İrəvana "cəhənnəmə getdi status" fikri çatarmı? Amma qışqırmırıq, cənab Lavrovun qulağında problem yaranar. Qərib və son zamanlar daha da qəribləşmiş Ermənistanda narahatlıq keçirməsini istəmirik.

Digər tərəfdən, Lavrov, nə qədər danlasa da, mahiyyətcə, qəmgin hayların başını sığallamaqla, könüllərini almaqla məşğuldur və düşünürük ki, ona "nəcib işində" maneçilik törətməyək. Həm də ona görə problem yaratmayaq ki, Rusiya XİN başçısının ermənilərin "üstünə bağırmağı" da var: "Baş verənlər (Qarabağın əldən çıxmasını nəzərdə tutur – red.) kompromis təkliflərin geri çevrilməsinin nəticəsində oldu. Seçim hüququ realizə edilmədi".

Əslində, Lavrov onu da demək istəyirdi ki, Ermənistan üçün faciəli durum ölkənin üzünü Qərbə çevirməsinin nəticəsində baş verdi. Obrazlı desək, it arabanın kölgəsini öz kölgəsi hesab etdi. Məsələn, Rusiya XİN rəhbəri bildirib ki, Ermənistan müstəqillik əldə etdikdən sonrakı bütün illərdə rus silahlarından istifadə edib, o cümlədən heç vaxt rəsmi olaraq iddia etmədiyi 7 rayonu ələ keçirmək üçün: "Ermənistanın ilk liderlərindən də heç biri Dağlıq Qarabağı müstəqil quruluş kimi tanımaqdan danışmırdı. Rusiya silahı Azərbaycanın mübahisəsiz ərazilərini ələ keçirmək və orada istehkamlar, döyüş xətləri qurmaq üçün istifadə edilib. Bu onu göstərirdi ki, ərazilərin çox uzun müddət saxlanılması gözlənilirdi. Bəzi analitiklər isə onların Azərbaycana qaytarılması niyyətinin ümumiyyətlə olmadığını bildirmişdilər".

Sonda üzərində dayanacağımızı bildirdiyimiz diplomatik subliminalizm də Lavrovun indi diqqətə çatdırdığımız məhz bu iqtibasıdır. Bəli, Rusiya XİN rəhbərinə verilmiş sual Ermənistanın Rusiya silahları ilə Azərbaycan torpaqlarını ələ keçirməsi ilə bağlıdır. Hesab edirik ki, sualın qoyuluşu qəribədir və belə təəssürat yaranır ki, burada əvvəlcədən planlaşdırılmış motiv var. Kremlin baş diplomatının Mozambikin bayrağında "Kalaşnikov" avtomatının təsvirinin yer aldığını xatırlatmasında da həmçinin. O zaman belə nəticəyə gələk ki, əslində, Rusiya XİN rəhbəri cavabında təxminən bunları deyirdi: Bizim silahımızla ərazilər tutdunuz. O əraziləri ki, sizə məxsusluğunu deməkdən qorxurdunuz. Belə qorxurdunuzsa, niyə Rusiyadan üz döndərdiniz? Mozambik kimi yaşayardınız da. Bəs bilmirdiniz ki?..

***Ə.RÜSTƏMOV***
***XQ***

# Yüksək hədəflərə ortaq əzmlə

## Azərbaycan–İran münasibətləri yeni mərhələdə

**Qonşu ölkələrlə səmimi münasibətlərin, qarşılıqlı faydalı əməkdaşlığın qurulması, regional təhlükəsizlik məsələlərinin birgə və yüksək səviyyədə təşkili, bölgədə möhkəm və uzunömürlü sülh və əmin-amanlığın bərqərar olması. Bunlar Azərbaycanın xarici siyasət kursunun əsas istiqamətləridir. Bakı daim regional əməkdaşlığın, qonşularla faydalı dialoqun tərəfdarı kimi çıxış edib. Yəni, bu istiqamətlərdəki fəaliyyətində açıq siyasət yürüdüb. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, qonşu ölkələrlə əlaqələr hər zaman bizim üçün əsas prioritetlərdən olub və bu istiqamətdə konkret addımlar atılıb.**



Azərbaycan–Gürcüstan–Türkiyə, Azərbaycan–İran–Türkiyə, Azərbaycan–İran–Rusiya üçtərəfli əməkdaşlıq formatları Cənubi Qafqazda siyasi, iqtisadi təhlükəsizliyin təmin edilməsində bir sıra uğurlara nail olub. Ölkəmiz o cümlədən, qonşu İranla əməkdaşlığın şaxələnməsində və dərinləşməsində maraqlı olduğunu əməldə sübut edib. İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın ölkəmizə səfəri, Bakıda keçirilən yüksək səviyyəli görüşlər, imzalanan sənədlər onu deməyə əsas verir ki, qarşılıqlı əməkdaşlıq əlaqələri daha da möhkəmlənəcək. Buraya dövlət başçıları arasında yaranmış səmimi dostluq münasibətini, onların bir-birinə "Əziz qardaşım!" deyərək müraciət etmələri ölkələrimizin yeni hədəflərə doğru yeni nəfəslə gedəcəyinə böyük ümidlər verir.

*

Son üç ildə məlum səbəblərdən Azərbaycan–İran münasibətlərində müşahidə olunan soyuqlaşmanın ardınca istiləşmə mərhələsinin başlanması təsadüfi sayıla bilməz. Qonşu dövlətlərin rəsmiləri arasında təmasların intensivləşməsi, hökumətlərarası işçi qrupunun yeni layihələr üzərində çalışmalara başlaması, Bakıda və Tehranda keçirilən regional tədbirlərdə əksər məsələlərə yanaşmada mövqelərin yaxınlaşması və nəhayət, İİR Prezidenti Məsud Pezeşkianın Bakıya rəsmi səfəri gözlənilən bəhrəni verməli idi və verdi. Azərbaycan bu gün ikitərəfli münasibətlərdə müşahidə olunan pozitiv dinamikanı ləngidən səbəbləri, daha doğrusu, konkret səbəbi unutmayıb. 2023-cü il yanvarın 27-də Azərbaycanın Tehrandakı səfirliyinə qarşı törədilən terror hadisəsi, bu zaman diplomatik nümayəndəliyin bir əməkdaşının həlak olması və ikisinin yaralanması heç də üstündən sükutla keçiləsi olay deyildi. Rəsmi Bakı hətta o həssas dönəmdə belə hadisənin beynəlxalq hüquq və diplomatik toxunulmazlıq prinsipləri əsasında araşdırılması və cinayətkarın cəzalandırılması tələbi üzərində dayandı. Bu, Prezident İlham Əliyevin ədalətin bərpa olunması üçün nümayiş etdirdiyi qəti və prinsipial mövqe idi.

Həmin hadisə baş verəndən dərhal sonra İlham Əliyev səfirliyin fəaliyyətinin dayandırılması, diplomatlarımızın geri çağırılması ilə bağlı tapşırıq verdi. Eyni zamanda, məsələ ilə əlaqədar Azərbaycan dövlətinin prinsipial və dəyişməz mövqeyini açıqladı. Bakının haqlı narazılığına, hətta hiddətinə səbəb olan bu qanlı hadisə ilə bağlı "cinayətkar həbs olunmalı və cəzasını almalıdır" tələbinə uyğun şəkildə Tehranın, nəhayət, zəruri tədbirləri görməklə son qərarını verməsi iki ölkənin münasibətlərində gərginliyə səbəb olmuş xoşagəlməz olayı artıq arxada qalmış mərhələ kimi qəbul edə bilərik. Mövzuya yekun olaraq onu bildirmək istəyirik ki, terrorçu ilə bağlı məhkəmə qərarının icrası bir daha Azərbaycan dövlətinin, Prezident İlham Əliyevin öz vətəndaşının yanında olmasının, ona sahib çıxıb arxasında durmasının – rəhbər qətiyyətinin və prinsipiallığının aydın nümayişi kimi qəbul edilməlidir.

*

İkitərəfli münasibətlərin müsbət məcraya düşməsini şərtləndirən amillərdən danışarkən, Prezident Məsud Pezeşkianın Azərbaycana rəsmi səfərinə qədər aparılan müzakirələr, eləcə də nümayəndə heyətləri səviyyəsində baş tutan yüksək səviyyəli görüşlər əlaqələrin donunun açılmasına rəvac, inkişafına yeni təkan və yeni nəfəs verdi. Bakı Tehranla bütün müstəvilərdə səmimi qonşuluq münasibətlərinə sadiqliyini, beynəlxalq hüquqa və ədalətə söykənən haqlı mövqeyini nümayiş etdirdi. Elə Qarabağ zəfərinin qazanılması, sonda ədalətin təntənəsinə nail olunması da Azərbaycanın bu prinsiplərə daim sadiq qalmasının təbii nəticəsi sayılmalıdır. Həmin mərhələdə də İran–Azərbaycan münasibətləri müəyyən sınaqlardan keçməli oldu.

2025-ci ili tam cəsarətlə son 30 ildə Bakı–Tehran dialoqunun özünün zirvə nöqtəsinə çatdığı il adlandırmaq olar. İndi bu zirvədən baxanda irəlidə tərəflərə yalnız fayda verəcək, uğur gətirəcək perspektivləri görürük. Cari ilin diplomatik yaddaşında qalacaq hadisələrdən biri də mayın 18-19-da Tehranda keçirilən Dialoq Forumu və burada Cənubi Qafqazdan tutmuş Yaxın Şərqə, Orta Asiyadan Avropaya qədər müxtəlif ölkələrdən nümayəndələrin iştirakı ilə regional və qlobal məsələlərin müzakirə edilməsi oldu. "Bu gün regionda sülh üçün ideal şərait yaradılıb. Hətta deyə bilərik ki, regionda faktiki sülh və sabitlik hökm sürür. Azərbaycan əlindən gələni edəcək ki, regionda tam və yekun sülh bərqərar olsun". Bu sözləri Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Tehran Dialoq Forumunun panelində bildirib. O, həmçinin çıxışında İranın da milli maraqlarına cavab verən "3+3" regional formatın əhəmiyyətini, bölgə ölkələri arasında əməkdaşlığın funksionallığının artırılmasının vacibliyini qeyd edib. Azərbaycan–İran münasibətlərinin artıq yeni mərhələyə qədəm qoyduğu danılmaz fakt və günün reallığıdır. Tarixi, mədəni və dini tellərlə bir-birinə bağlı bu iki qonşu ölkə qarşılıqlı hörmət, mehriban qonşuluq və dinc yanaşı yaşamaq prinsipləri əsasında əməkdaşlığı daha da dərinləşdirilməkdə qərarlıdırlar. İran Prezidenti Bakıya səfərində vurğuladığı kimi, ölkələrimiz bütün sahələrdə əməkdaşlıq edə bilərlər: "Elə bir bölgə yarada, ölkələr arasında elə bir əlaqə qura bilərik ki, Avropa ölkələri arasında olan əlaqələrdən daha üstün olsun. Bunun üçün yolları birləşdirək, maliyyə, ticarət əlaqələrimizi düzəldək, Şimal–Cənub, Şərq–Qərb dəhlizlərini yaradaq. Bütün bunları qarşılıqlı dəstək sayəsində həyata keçirək". Siyasi iradənin göstəricisi sayılan bu mesaj Azərbaycan lideri tərəfindən məmnunluqla qəbul edildi və dəstəkləndi. Məsud Pezişkianın "İran və Azərbaycan Şərqi Qərbə, Şimalı Cənuba birləşdirən dördyol ola bilər" fikri isə dünyaya ünvanlanan ciddi mesaj idi. Buna cavab olaraq, Azərbaycanla İranın önəmli beynəlxalq layihələrdə iştirak etdiyini diqqətə çatdıran dövlətimizin başçısı iki ölkənin Şimal–-Cənub nəqliyyat dəhlizi üzrə sıx əməkdaşlıq etdiyini söylədi. Prezident İlham Əliyevin açıq şəkildə söylədiyi "biz bütün istiqamətlər üzrə bir-birimizə daha yaxın olmağa çalışırıq" fikri qarşılıqlı əməkdaşlığın daha geniş üfiqlərə yönələcəyinin ismarıcı idi.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi

***Rasim MUSABƏYOV,***
***Milli Məclisin deputatı, politoloq***



– Əslində, Azərbaycan–İran münasibətləri indikindən daha geniş və çoxşaxəli olmalıdır. Nəzərə alsaq ki, bizim min illər əvvələ gedib çıxan tarixi, mədəni, dini, etnik bağlarımız var, hazırda iki ölkə arasında həm ticarət dövriyyəsi, həm də mədəni əlaqələr heç də istədiyimiz səviyyədə deyil. Çünki hər iki tərəf böyük potensiala malikdir və bu potensialdan maksimum faydalanmaq olduqca vacibdir. Təəssüf olsun ki, müəyyən qüvvələr bu münasibətlərə xələl gətirməkdən ötrü uzun müddət çalışıblar. Məqsəd qonşu ölkələr arasında əlaqələrə mənfi təsir göstərmək idi. Həmin bədxahlarımızın, kənar aktorların adları çəkilməsə də, onları Bakı da yaxşı tanıyır, Tehran da. Artıq aşkar görünməkdədir ki, o manеələrin aradan götürülməsi prosesi başlanıb. İki ölkə rəsmilərinin görüşlərində sənaye, nəqliyyat, energetika sahələri ilə bağlı birgə layihələrin reallaşdırılması müzakirə edilir. Bu layihələr tam gerçəkləşdiyi halda, təbii ki, ticarət dövriyyəsinin həcmi də artacaq. Eyni zamanda, siyasi əlaqələr də xeyli genişlənəcək.

İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana rəsmi səfəri siyasi dialoqun yüksək səviyyəyə çatmasının göstəricisidir. Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev son dörd-beş ayda bir neçə dəfə İrana səfər edib, Tehranda yüksək səviyyəli görüşlər keçirib. Xarici işlər nazirlərimiz mütəmadi görüşür və məsləhətləşmələr aparırlar. Bu təmaslar böyük əhəmiyyət kəsb edir. Düşünürük ki, İranla münasibətlərin möhkəmlənməsi və genişlənməsi iki qonşu dövlətin və xalqın mənafeyinə xidmət edəcək.

# Ermənistan Avropa Sülh Fondundan sülh yox, silah istəyir

*(əvvəli 1-ci səhifədə)*

Əlbəttə, A.Mirzoyan Aİ ilə münasibətlərdən danışarkən bölgəyə yerləşdirilmiş qurumun yarımhərbi missiyasından bəhs etməyə bilməzdi: "Ermənistan–Aİ əməkdaşlığının digər sütunlarından danışarkən, biz bir neçə il əvvəl ağlasığmaz hesab edilən təhlükəsizlik məsələlərində qarşılıqlı fəaliyyətin vacibliyini qəbul edirik. Avropa İttifaqı Ermənistanda Monitorinq Missiyasının yerləşdirilməsindən bəri Ermənistanın təhlükəsizlik gündəliyi ilə məşğuldur və biz missiyanın mandatının uzadılmasını alqışlayırıq. Keçən il Azərbaycanla delimitasiya prosesində nəzərəçarpacaq irəliləyişlərə baxmayaraq, təəssüf ki, atəşkəs rejiminin pozulması davam edir və bu, missiyanın yalan ittihamlara (?) qarşı mübarizədə və sərhədyanı ərazilərdə sabitliyin qorunmasında həyati vacib rolunu vurğulayır. Buna görə də hazırkı qeyri-sabit vəziyyətdə atəşkəs rejiminin pozulmasına məqsədyönlü və prinsipial reaksiya son dərəcə vacibdir".

Mirzoyan Ermənistana silah-sursat alması üçün vəsait ayıran Avropa Sülh Fondu adlanan qurumdan daah çox pul istədiklərini bu sözlərlə ifadə edib: "Ötən il Aİ-nin Avropa Sülh Fondu vasitəsilə Ermənistanı dəstəkləmək qərarı mühüm mərhələ olsa da, biz artıq 2025-ci ildə fond vasitəsilə davamlı dəstək xahiş etmişik. Sizi əmin etmək istəyirəm ki, bu yardım Aİ-nin tərəfdaşlığımızı genişləndirmək və dərinləşdirmək üçün siyasi iradəsinin bariz nümayişi olmaqla yanaşı, həm də çətin anlarda Ermənistanın dayanıqlığını gücləndirir. Biz bütün üzv dövlətlərlə işləməyə davam edərkən belə yardımın proqnozlaşdırıla bilən və əlaqədar olmayan mülahizələrdən azad olmasını təmin etmək üçün tərəfdaşlarımıza arxalanırıq".

Sülh və qonşuluq münasibətlərinə dair fikirlərini bölüşən nazir ənənəyə sadiq qalaraq yenə də ölkəsini "sülh göyərçini" qismində təqdim etməyə çalışıb: "Mənim ölkəm üçün sülhün alternativi yoxdur. Hökumətimiz Cənubi Qafqazda davamlı sülhün və rifahın təşviqinə əvvəlkitək qətiyyətlə sadiqdir. Biz Azərbaycanla hərtərəfli və institusionallaşdırılmış sülhə can atırıq. Bildiyiniz kimi, Ermənistan və Azərbaycan sülh sazişinin layihəsinin mətninin tamamlandığını, İrəvan isə daha gecikmədən bu sənədi imzalamağa və ratifikasiya etməyə hazır olduğunu bildirib.



Azərbaycanın həqiqi narahatlığının olub-olmaması və ya prosesi süni surətdə ləngitməsi (?) hələlik bəlli olmasa da, fakt odur ki, hər ikimizin razılaşdırdığı sülh sazişi layihəsi hələ də imzalanmayıb. Əgər narahatlıqlar, məsələn, konstitusiya məsələsi ilə bağlı səmimidirsə, onda təfərrüatlara varmadan sizi əmin edə bilərəm ki, tərəflərin bütün problemlərini həll etməsinin ən aydın və birbaşa yolu Ermənistan konstitusiya məhkəməsinin müsbət rəyindən sonra saziş imzalamaq və onu parlamentdə ratifikasiya etməkdir".

Bundan əlavə, A.Mirzoyan istənilən halda avropalı tərəfdaşlarını bu prosesə dəstəyi artırmağa çağırıb: "Ona görə də biz Aİ tərəfdaşlarımızın həm Bakı ilə birbaşa təmaslarında, həm də ictimai bəyanatlarında və mesajlarında Ermənistanla tezliklə sülh sazişinin imzalanmasının zəruriliyini ardıcıl olaraq vurğulayacaqlarını gözləyirik".

*

A.Mirzoyanın Avropa Sülh Fondundan daha çox vəsait istəməsi Ermənistanın silahlanmaya dair məqsədlərini birbaşa Aİ-nin maliyyə resursları ilə həyata keçirdiyini aydın şəkildə nümayiş etdirir. Bu açıqlama təkcə bölgəmiz üçün deyil, Aİ-nin siyasəti üçün də bir neçə narahatedici məqamı üzə çıxarır. Onun "Ermənistan 2025-ci ildə Avropa Sülh Fondu vasitəsilə daha çox yardım gözləyir və bu yardımın proqnozlaşdırıla bilən, davamlı və siyasi təsirlərdən azad" şəkildə olmasını istəyir" bəyanatı təkcə rəsmi İrəvanın deyil, həm də Aİ-nin Cənubi Qafqaz siyasətinin ikili standartlara əsaslandığını aydın göstərir.

Əslində, ziddiyyət bundadır ki, adı Sülh Fondu olan qurumdan silah almağa və bu silahların daha da çoxalması üçün əlavə vəsait istəməyə çalışan Ermənistan sanki öz ritorikasında sülh, real fəaliyyətində isə hərbi güc amilini önə çıxarır. Mirzoyanın bu cür açıq şəkildə daha çox yardım istəməsi göstərir ki, Ermənistan yeni təhlükəsizlik arxitekturası qurmaq adı altında regionda hərbi balansı dəyişməyə çalışır.

Yeri gəlmişkən qeyd edək ki, Avropa Sülh Fondu Aİ-nin dinc məqsədlərlə fəaliyyət göstərən təhlükəsizlik və müdafiə təşəbbüsüdür. Lakin son illərdə Ukrayna, Moldova və Ermənistan kimi ölkələrə verdiyi dəstəyin forması bu fondun daha çox geosiyasi və hərbi təzyiq alətinə çevrildiyini sübut edir. Ermənistan bu imkanlardan istifadə edərək, özü üçün hərbi baza formalaşdırmağa çalışır. Əgər bu fond həqiqətən "sülh" məqsədi daşıyırsa, bəs niyə Ermənistan bu vəsaiti yalnız silahlanmaya yönəldir? Bəs sülhə xidmət edən diplomatik institutlar, infrastruktur layihələri, təmas xətləri ətrafında etimad quruculuğu təşəbbüsləri niyə bu fondun gündəmində deyil?

Bu bəyanat Ermənistan rəhbərliyinin daxildə və beynəlxalq aləmdə ikili oyun oynadığını növbəti dəfə sübuta yetirir. Paşinyan iqtidarı son aylarda sülh çağırışlarını gücləndirib, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edib, hətta delimitasiya prosesinə dair addımlar atıb. Lakin paralel olaraq silahlanmanı genişləndirmək üçün Avropadan daha çox pul istəyir. Bu, Paşinyanın rəhbərlik etdiyi komandanın hansısa strateji konsepsiyaya yox, ziddiyyətli və fürsətcil siyasətə əsaslandığını göstərir. Bir tərəfdə sülhdən danışılır, digər tərəfdən isə yeni silahlar almaq üçün Avropa fondlarına, belə deyək, "siyasi təzyiq" göstərilir.

A.Mirzoyan ölkəsini sülhün və qonşuluq münasibətlərinin daşıyıcısı kimi təqdim etməyə çalışa, "Ermənistan üçün sülhün alternativi yoxdur" deyə, guya, Azərbaycanla hərtərəfli və institusional sülhə can atdıqlarını bildirə bilər. Ancaq bu bəyanatların arxasında real siyasət və konkret addımlar durmadıqca, Mirzoyanın nitqi boş söz yığınına çevrilir. Üstəlik, bu cür nitqlər əksər hallarda beynəlxalq ictimaiyyəti çaşdırmaq, prosesi Azərbaycanın üzərinə yükləməyə və məsuliyyətdən yayınmaq üçün vasitəyə çevrilir. Onun sülh sazişinin imzalanmasının ləngiməsini Azərbaycanın "qeyri-müəyyən narahatlıqları" ilə əlaqələndirməsi iddiası qətiyyən doğru deyil. Rəsmi Bakı dəfələrlə ən yüksək səviyyədə bildirib ki, Ermənistanın konstitusiyasında yer alan Azərbaycanın ərazi bütövlüyünə zidd olan müddəalar aradan qaldırılmalıdır.

Ermənistanın konstitusiyasında "Qarabağ xalqının öz müqəddəratını təyinetmə hüququ"na və bölgənin Ermənistana birləşdirilməsinə dair normativ hüquqi istinadlar qalmaqda davam edir. Belə bir konstitusiya ilə sülh sazişi imzalamaq hüquqi nonsensdir. Azərbaycanın bu məsələyə dair iradəsini dilə gətirməsi "bəlli olmayan narahatlıq" deyil, hüquqi və siyasi baxımdan tam əsaslı bir tələbdir.

Ermənistan xarici siyasət idarəsi rəhbərinin çıxışında ən təhlükəli məqam isə onun Aİ-yə çağırışıdır. O, dolayısı ilə bildirir ki, Aİ nümayəndələri həm ikitərəfli təmaslarında, həm də ictimai açıqlamalarında sülh sazişinin imzalanmamasını "Azərbaycanın məsuliyyəti" kimi təqdim etməlidirlər. Bu isə açıq şəkildə diplomatik manipulyasiyadır. Əgər Aİ, həqiqətən, tərəfsizdirsə, Bakı və İrəvan arasında real dialoqu təşviq etməli, ölkəmizin əsaslı narahatlıqlarını nəzərə almalıdır. Ermənistan isə Avropanı yalnız bir tərəfin, yəni özünün mövqeyini müdafiə etməyə çağırır. Bu yanaşma Avropa diplomatiyasının nüfuzuna da ciddi zərbə vura bilər.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



***İlyas HÜSEYNOV,***
***politoloq***

– Ermənistanla Azərbaycan arasında sülh sazişi ilə bağlı danışıqlar başa çatsa da, işğalçı keçmişə malik bu ölkə bizə qarşı düşmənçiliyini davam etdirir. Müxtəlif təsir mexanizmlərindən istifadə edir və Azərbaycanla münasibətlərdə üstünlük qazanmağa çalışır. Hətta, Aİ-yə üzvlüklə bağlı başlanan prosesi də öz lehinə çevirmək istəyir. Digər tərəfdən, Avropa Siyasi Birliyinin Tiranada keçirilmiş VI Zirvə toplantısında Ermənistan baş nazirinə olan münasibəti və orada gedən prosesləri də hər kəs gördü. Yəni, baş nazir Paşinyana xüsusi diqqət, Ermənistanı Aİ-də görmək istəyi yerli-dibli yox idi. Əksinə, Azərbaycan Prezidentinə böyük hörmət və ehtiram özünü göstərirdi.

Digər mühüm məsələ bundan ibarətdir ki, Aİ Ermənistanı öz üzvləri sırasına dəvət etməyib. Əvvəlcə, Ermənistanda bununla bağlı qanun qəbul edildi. Sonra bunu prezident imzaladı. Hazırda Ermənistanın Avroatlantik məkana inteqrasiyasının konstitusiyaya salınması üçün referendum keçirilməsinə dair hazırlıqlar da var. Ermənistan rəhbərliyi elə hazırkı mərhələdən öz xeyrinə istifadə etmək niyyətindədir.

Bundan əlavə, Avropa Sülh Fondundan sülh adı ilə silah üçün maliyyə vəsaitinin cəlb edilməsi prosesinin davam etdirilməsi istəyi var. Bu da regional təhlükəsizlik təhdidlərini artıran amildir. Məlumdur ki, sülh adı altında fəaliyyət göstərən fondun məqsədi heç də sülh, sabitlik və təhlükəsizlik deyil. Bütün bunlar Ermənistan vasitəsilə Aİ-nin də ölkəmizə qarşı mövqeyinin dəyişməsinə gətirib çıxara bilər. Ancaq qüvvələr balansının dəyişməsinə, bölgədə ayırıcı xətlərin çəkilməsinə imkan vermək olmaz.

# Ankarada Qərbi Azərbaycana qayıdış mövzusunda beynəlxalq konfrans





**Mayın 21-də Ankarada Qərbi Azərbaycan İcmasının və "Azərbaycan-Türkiyə Evi" İctimai Birliyinin birgə təşkilatçılığı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin tərəfdaşlığı ilə "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi" mövzusunda beynəlxalq konfrans keçirilib.**

Konfransa Azərbaycan və Türkiyədən 250-ə yaxın iştirakçı, o cümlədən Türkiyə Böyük Millət Məclisinin üzvləri, dövlət qurumlarının nümayəndələri, universitet rektorları, elm və iş adamları, qeyri-hökumət təşkilatlarının və media nümayəndələri qatılıb.

Tədbirin açılışında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının şöbə müdiri Ədalət Vəliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Konfrans iştirakçılarına müraciətini oxuyub. O, Türkiyədə belə bir tədbirin keçirilməsinin xüsusi əhəmiyyətə malik olduğunu qeyd edərək, konfransın işinə uğurlar arzulayıb.

Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini, TBMM-nin üzvü Efkan Ala Qərbi Azərbaycanla bağlı Türkiyədə ilk belə konfransın keçirilməsinin tarixi əhəmiyyətindən danışıb.

Konfrans işini panel müzakirələrlə davam etdirib.

Qərbi Azərbaycanın tarixindən bəhs edən birinci panel türkiyəli tarixçi, Yeni Türkiyə Strateji Araşdırma Mərkəzinin Tarix İnstitutunun direktoru Prof. Dr. Kamal Çiçəyin moderatorluğu ilə baş tutub. Paneldə tanınmış tarixçi professorlar İlbər Ortaylı, Aygün Attar, Tufan Gündüz, Okan Yeşilot və İbrahim Ethem Atnur çıxış ediblər. TBMM-in Qadınlar və kişilər arasında imkan bərabərliyi komissiyasının sədri Çiğdem Erdoğanın moderatorluğu ilə keçirilən "Qərbi Azərbaycan: hüquqi və humanitar aspektlər" mövzusunda ikinci paneldə TBMM-in komissiya sədrləri Vedat Bilgin və Derya Yanık, TBMM-in üzvü Zeynep Yıldız, professorlar Cavid Abdullazadə, Yaşar Sarı və Muharrem Kılıç çıxış ediblər. Panellərdən sonra iştirakçılara təşəkkürnamələr təqdim edilib.

Konfransın bağlanış sessiyasında Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri Əziz Ələkbərov, TBMM-in üzvü, Ədalət və İnkişaf Partiyası sədrinin müavini Zafer Sırakaya, Milli Məclisin deputatı, "Azərbaycan-Türkiyə Evi" İctimai Birliyinin sədri Tənzilə Rüstəmxanlı və TBMM-in üzvü, Türkiyə-Azərbaycan Dostluq Qrupunun sədri Şamil Ayrım çıxış ediblər.

Daha sonra iştirakçılar adından konfransın yekun sənədi qəbul edilib.

Sənəddə XX əsrin müxtəlif mərhələlərində Qərbi Azərbaycanda, indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar sistemli etnik təmizləməyə məruz qalaraq doğma yurdlarından zorla çıxarıldıqları, bu proses nəticəsində yüz minlərlə Qərbi azərbaycanlının qaçqın vəziyyətinə düşdüyü, onların mədəni irsinin məhv edildiyi vurğulanıb.

Sənəddə, həmçinin Ermənistan hökumətindən Qərbi azərbaycanlıların doğma torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıdışını qeyd-şərtsiz təmin etməyə və bunun üçün beynəlxalq hüquqa uyğun real addımlar atmağa çağırılıb.

Tədbir iştirakçıları Prezident İlham Əliyevin Qərbi Azərbaycana sülh yolu ilə qayıdış məsələsində liderliyini, beynəlxalq hüququn aliliyinə sadiqliyini və ədalətin bərpasına yönəlmiş səylərini yüksək qiymətləndirib, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın haqq-ədalətə, sülh və barışığa möhkəm dəstəyini alqışlayıblar.

*XQ*



## FHN AZƏRTAC-da təlim keçirib

**Fövqəladə Hallar Nazirliyi İctimaiyyətlə əlaqə idarəsinin təşkilatçılığı ilə Azərbaycan Dövlət İnformasiya Agentliyində (AZƏRTAC) fövqəladə hallara hazırlığın artırılması məqsədilə kompleks təlim keçirilib.**

Təlimin əsas məqsədi qurumun əməkdaşlarına fövqəladə hallarda, xüsusilə də yanğınlar və zəlzələlər zamanı düzgün davranış vərdişlərinin aşılanması, həmçinin təhlükəsizlik qaydaları və təxliyə planları ilə tanışlığın təmin edilməsi olub.

FHN-in mütəxəssisləri agentliyin kollektivi üçün geniş maarifləndirmə sessiyası təşkil edib.

Ardınca təlimin praktiki mərhələsinə start verilib. Binada şərti yanğın elan edilib və dərhal "Həyəcan" siqnalı verilib. Yanğınsöndürən briqada operativ şəkildə hadisə yerinə cəlb olunaraq "yanğınla mübarizə" tədbirlərinə başlayıb. Şərti yanğında "zərərçəkmişlər" müvafiq qaydada binadan çıxarılıb, təhlükəsiz zonaya yerləşdirilib və onlara "ilkin tibbi yardım" göstərilib.

Təlim uğurla yekunlaşıb və qarşıya qoyulan bütün məqsədlərə nail olunub.

# Müasir texnologiyalar insan hüquqlarının qorunmasını balanslaşdıracaq




**Xəbər verdiyimiz kimi, bir neçə gündür ki, Bakı şəhəri Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının Qlobal Əməliyyatlar Şəbəkəsi – GlobE Network – çərçivəsində VI Plenar İclasına evsahibliyi edir.**

Ümumilikdə, 300-dən çox nümayəndənin iştirak etdiyi Bakı məclisində Azərbaycan Respublikası Prokurorluğunun təşəbbüsü ilə keçirilən plenar iclasın dünənki sessiyası ölkəmizdə 2025-ci ilin "Konstitusiya və Suverenlik" ili elan olunması çərçivəsində "Konstitusion və insan hüquqlarını qorumaqla korrupsiyaya qarşı hüquq mühafizə fəaliyyətində texnoloji imkanların səmərəli istifadəsi" mövzusuna həsr olunub.

ADA Universitetinin hüquq fakültəsinin dekanı Rəşad İbadovun rəhbərliyi ilə keçirilən sessiyada Baş Prokurorluğun təmsilçisi Tuqay Rəhimli "Konstitusiya və insan hüquqlarının pozulma risklərinin qarşısını almaqda texnoloji vasitələrin rolu" mövzusunda məruzə ilə çıxış edib.

Milli Aviasiya Akademiyasının eksperti Murad Orucov, Papua Yeni Qvineya və Uqandanın nümayəndələri də mövzu ilə bağlı öz mülahizələrini bildiriblər.

Sonra hüquq-mühafizə orqanlarının fəaliyyətində texnoloji yeniliklərin, o cümlədən süni intellekt texnologiyalarının tətbiqi müzakirə edilib. Bildirilib ki, bu texnologiyaların tətbiqi ilə çoxsaylı üstünlüklər əldə etmək mümkün olsa da, bu zaman insan hüquqlarının pozulması riski də yüksəkdir. Müzakirə iştirakçıları vurğulayıblar ki, konstitusiyalar insan hüquqlarının əsas təminatçısı olmaqla korrupsiyaya qarşı mübarizə sahəsində texnologiyaların tətbiqi ilə insan hüquqlarının qorunmasını balanslaşdırmağa imkan yaradır.

Səsləndi ki, süni intellekt və data analizi da daxil olmaqla, qabaqcıl texnologiyaların hüquq-mühafizə orqanlarının fəaliyyətində tətbiqinin artan önəmindən danışılarkən qeyd edilib ki, korrupsiya cinayətləri törədən şəxslərin istifadə etdiyi sxem və mexanizmlər təkmilləşdikcə onlarla mübarizəni effektiv aparmaq üçün bu texnologiyalardan istifadə olunmalıdır. Əks halda, korrupsiyaya qarşı mübarizə aparan dövlət orqanları bu cinayətləri törədənlərə münasibətdə hazırlıqsız olacaqlar.

Müzakirələrdə Konstitusiyanın ali hüquqi sənəd olaraq qanunun aliliyini təmin etdiyi vurğulanmaqla, bu sənəddə təsbit edilmiş şəxsi həyatın toxunulmazlığı və ədalətli məhkəmə araşdırması hüquqları, ifadə azadlığı və ayrı-seçkiliyin qadağan olunması müddəalarının insan hüquqlarına olan istənilən müdaxilələr üçün meyarlar müəyyən etməklə sui-istifadələrin qarşısını alması və insanlara texnoloji yeniliklərdən istifadə edilməklə tətbiq edilən müdaxilələrə qarşı öz hüquqlarını müdafiə etmək və müdaxilələri məhkəmə qaydasında mübahisələndirmək imkanı yaratması qeyd olunub.

***

Bakı platforması çərçivəsində Azərbaycan Respublikası Baş Prokurorluğunun digər bir təşəbbüsü ilə "Hüquqi şəxslərin xeyrinə vəzifəli şəxslər tərəfindən törədilmiş ekoloji cinayətlərin qarşısının alınması və istintaqı" mövzusunda plenar müzakirələr keçirilib.

Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayevin sədrliyi ilə müzakirələrdə BMT-nin təşkilatçıları, xarici ölkələrin korrupsiyaya qarşı mübarizə sahəsində mütəxəssisləri, Azərbaycanın hüquq-mühafizə orqanlarının nümayəndələri, eləcə də elmi-tədqiqat institutlarının əməkdaşları da daxil olmaqla, ümumilikdə, 50-yə yaxın adam iştirak edib.

Elnur Musayev iştirakçılara 2020–2025-ci illər ərzində Azərbaycan Respublikası Prokurorluğunun ölkənin digər hüquq-mühafizə orqanları ilə birlikdə gördüyü işlərin nəticələri barədə məlumat verərək bildirib ki, ekoloji sahədə ixtisaslaşdırılmış qurum olaraq cinayət təqibindən kənar icraatlar idarəsi 602 cinayət işi başlayıb. 16 milyon manata yaxın vurulmuş ziyanın ödənilməsi təmin edilib, 229 inzibati xəta haqqında iş üzrə icraat başlanıb. Qanun pozuntularını doğuran səbəb və şəraitin aradan qaldırılması məqsədilə 160 təqdimat verilib, belə hallardan çəkindirmək məqsədilə 55 rəsmi xəbərdarlıq verilib.

İdarə rəisi daha sonra bildirib ki, ətraf mühitin mühafizəsi sahəsində ildən-ilə qanunvericiliyin təkmilləşdirilməsi, vətəndaşların sayıqlığının artırılması, hüquq-mühafizə orqanlarının və bu sahədə ixtisaslaşmış qurumların əlaqələndirilmiş fəaliyyəti nəticəsində səmərəli mübarizə aparılır və ictimaiyyət bu barədə daim məlumatlandırılır. O qeyd edib ki, bu qəbildən olan hüquqpozmaların qarşısının alınması sahəsində məsul qurumların, o cümlədən qanunla nəzarət və monitorinqin həyata keçirilməsinə cavabdeh olan vəzifəli şəxslərin fəaliyyətində də qüsurlar mövcuddur. Bu isə ətraf mühit əleyhinə olan cinayətlərin korrupsiya xarakterli olmasından xəbər verir.

Müzakirələr belə qənaətlə sonuclanıb ki, insanların və digər canlıların həyatı üçün ciddi təhlükə törədən bu cinayətlər beynəlxalq miqyasda korrupsiya və transmilli cinayətlər kimi dəyərləndirilməli, bu sahədə əməkdaşlıq gücləndirilməlidir. Qabaqcıl ölkələrin təcrübəsinə əsasən, hər bir ölkə miqyasında ekoloji pozuntulara və cinayətlərə qarşı mübarizə vahid strategiya şəklində həyata keçirilməli, iştirakçılar müəyyən edilərək onların səmərəli əməkdaşlıq mexanizmləri formalaşdırılmalıdır.

Mütəxəssislər onu da qeyd ediblər ki, qabaqlayıcı təsisatlar, təhqiqat, istintaq və maliyyə kəşfiyyatı ilə bağlı daimi fəaliyyət göstərən əlaqələndirmə qurumları qabaqcıl ölkələrin ən yaxşı nəticələrini göstərən nümunələr beynəlxalq miqyasda öyrənilməlidir.

Toplantıda ətraf mühitin qorunmasının sosial cavabdehliyin təməlində durması da xüsusi vurğulanaraq, əhalinin və vətəndaş cəmiyyətinin bu sahədə biliklərinin artırılmasının vacibliyi qeyd edilib.

*İ.RÜSTƏMOV*
*XQ*

# "Terrorsuz Türkiyə əsri" başlayır

## *Anadoluda silahlar susacaq, ümidlər göyərəcək*

**Türkiyənin təxminən yarım əsri əhatə edən və böyük qurbanlar bahasına başa gələn terrorizmə qarşı mübarizəsi, nəhayət, öz müsbət nəticəsini verdi. 1978-ci ildə yaradılan, 1984-cü ildən etibarən terror aktları həyata keçirən və 40 mindən artıq insanın həyatına son qoyan PKK terror təşkilatı öz mövcudluğunu sona çatdırmaq qərarını elan etməyə məcbur oldu.**

Qətiyyətli mövqeyi və uzaqgörən siyasəti ilə seçilən, müasir dünyanın nüfuzlu dövlət başçılarından olan Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında qardaş Türkiyə Cümhuriyyəti bu gün "Terrorsuz Türkiyə" hədəfinə doğru əzm və inamla irəliləməkdədir. ***"Ya silahları göməcəklər, ya da silahlarla gömüləcəklər"*** fikri Türkiyəni terrora qarşı mübarizədə tarixi dönüş nöqtəsinə çatdırmış Prezident Rəcəb Tayyib Ərdoğanın güclü siyasi iradəsinin parlaq ifadəsidir.

Uzun illərdir böyük güclərin əlində bir alətə çevrilmiş PKK terror təşkilatının əsas məqsədi türk və kürd xalqları arasındakı qardaşlıq bağlarını zəiflətmək, ölkədə sabitlik və həmrəyliyi pozaraq separatçı fikirlərə dövlətin əsas prinsiplərinə zərbə vurmaq olmuşdur.

Düşmənin bu kimi məkrli siyasətinə və xain hücumlarına qarşı daim qəti və prinsipial mövqe sərgiləyən Türkiyə Cümhuriyyəti, xüsusilə son on il ərzində terrorizmə qarşı daha təsirli yeni hərbi-taktiki əməliyyatlar həyata keçirməyə başlamışdır. Belə ki, Türkiyə ordusu təkcə ölkədaxili deyil, qonşu İraq, Suriya ərazilərində də terror yuvalarının məhv edilməsi əməliyyatlarını böyük əzimkarlıqla yerinə yetirmişdir. Xüsusilə, Suriyada əldə edilmiş unikal siyasi uğurlar bu təşkilatın fəaliyyətinin neytrallaşmasına əsaslı zəmin yaratmışdır.

Türkiyə yalnız hərbi sahədə deyil, siyasi arenada da terror təşkilatına qarşı qətiyyətli mübarizə aparmışdır. Nəticədə ABŞ, Avropa İttifaqı, Avstraliya və başqa bu kimi ölkələr PKK-nı terror qruplaşması kimi tanımışdır. Xüsusilə, ABŞ PKK-nı 1997-ci il avqustun 10-dan terrorçu təşkilatlar siyahısına daxil etmiş, 2003-cü ildə isə Dövlət Departamenti bu təşkilatı hansı ad altında fəaliyyət göstərməsindən asılı olmayaraq, onu terror təşkilatı kimi qəbul etdiyini bildirmişdir.

Lakin, bütün bunlara baxmayaraq, daim ikili standartlar sərgiləyən bəzi böyük dövlətlər bu ilan yuvasını dolayı, bəzən isə açıq şəkildə dəstəkləmiş, hətta birbaşa silah-sursatla ona yardım etmişlər. Bu mənada, Türkiyənin terror təşkilatı üzərində qazandığı qəti qələbə, eyni zamanda, bu təşkilatı himayə edən, bəsləyən qlobal güclərə qarşı da ən böyük hərbi-siyasi cavabdır.

Məhz, Prezident Rəcəb Tayyib Ərdoğanın da qeyd etdiyi kimi: ***"Terrorsuz Türkiyə" yeni mərhələyə qədəm qoyur. Qazanan millətimiz, ölkəmiz və regionda-kı qardaşlarımız olacaq...***

***...Bu prosesdən uduzan tərəf isə qanla bəslənən imperialistlər olacaq".***

Hər zaman ***"Bir millət, iki dövlət"*** milli konsepsiyasının rəhbər tutan qardaş Azərbaycan Türkiyənin bu tarixi qələbəsinə dəstək verərək sevincini bölüşdü. Prezident İlham Əliyevin X sosial şəbəkə hesabında yayımladığı paylaşımda bu fikirlər yer alır: ***"Başda əziz Qardaşım, Türkiyə***



***Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan olmaqla bütün qardaş Türkiyə xalqını PKK terror qruplaşmasının özünü ləğv etmək və silahı yerə qoymaq qərarı münasibətilə ürəkdən təbrik edirəm. Əziz Qardaşımın bəyan etdiyi "Terrorsuz Türkiyə" hədəfinə çatmaqda vacib mərhələ olan bu hadisə dövlətçilik yolunda ölkədə aparılan qətiyyətli siyasətin nəticəsi, güclü liderliyin və sarsılmaz iradənin, milli birliyin və həmrəyliyin təntənəsidir. Alınmış qərarın tam icrası istiqamətində Türkiyə dövlətinə və xalqına uğurlar arzulayıram".***

Bəli, qətiyyətli lider – güclü dövlət və parlaq gələcək deməkdir. Bu mənada, biz bu fikri Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın xalqın inamını qazanmış iki müdrik rəhbər kimi tarixə adlarını qızıl hərflərlə yazdıran liderlərin timsalında açıq şəkildə görə bilərik. Bu gün hər iki qardaş ölkə regionda və dünyada öz haqlı mövqelərini birlikdə qətiyyətli şəkildə müdafiə edən, möhkəm təməllər üzərində siyasi və iqtisadi baxımdan dayanıqlı inkişaf yolu ilə addımlayan nadir ölkələrdəndir.

Böyük öndər Mustafa Kamal Atatürkün **"YURDDA SÜLH, CAHANDA SÜLH"** şüarını dövlət idarəçiliyinin əsas prinsipi kimi qəbul edən Türkiyə Cümhuriyyəti bu gün "Terrorsuz Türkiyə" ideyasını reallığa çevirməklə həm ölkə daxilində, həm də beynəlxalq aləmdə sülhə və sabitliyə sadiqliyini bir daha sübut etmiş oldu.

Eyni zamanda, Türkiyə rəhbərliyi sarsılmaz qətiyyəti hesabına qazandığı uğurlarla həm müqəddəs irsə sədaqətini, həm də gələcək nəsillərə terrordan uzaq, dinc, firavan və təhlükəsiz Vətən miras qoymaq əzmini də nümayiş etdirdi.

İnanırıq ki, terrorizmin kökünün kəsilməsi ölkədə davamlı sülh və sabitliyin, dayanıqlı inkişafın təmin olunması baxımından mühüm addım olacaqdır. Eyni zamanda, Türkiyənin tarixə düşəcək parlaq qələbəsi onun gələcək inkişafına, regionda və dünyada gücünün, nüfuzunun daha da artmasına geniş imkanlar açacaqdır. Bu mənada, terror təşkilatının ləğvi Türkiyə və ona dost-qardaş dövlətlər üçün yeni bir dövrün başlanğıcı kimi qiymətləndirilə bilər.

***Coşqun MƏMMƏDOV,***
***AMEA Rəyasət Heyətinin elmi katibi***

# Azərbaycan süni intellektə geniş meydan açıb

**Prezident İlham Əliyevin 19 mart 2025-ci il tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası" ilə dövlətin texnoloji inkişaf konsepsiyasında yeni bir mərhələnin başlanması rəsmiləşdirilib. Ekspertlər tərəfindən bu strateji sənəd Azərbaycanın dünya süni intellekt ekosistemində fəal rol oynayan, etik standartlara sadiq, inklüziv və davamlı tərəqqiyə səbəb olan bir ölkəyə çevrilmə istiqamətində atdığı ciddi addım kimi yüksək dəyərləndirilib.**



Strategiya ölkə miqyasında süni intellekt texnologiyalarının işə salınması və idarə olunmasını, eləcə də sosial-iqtisadi sistemin ayrı-ayrı sahələrinə tətbiqi üzrə konkret istiqamətləri müəyyənləşdirir. Sənəddə qarşıya qoyulan başlıca məqsədlər sırasında süni intellekt idarəetmə sisteminin qurulması xüsusi yer tutur. Bu istiqamət isə ictimai maraqları qoruyan, etik prinsip və şəffaf idarəetmə modeli yaratmağı hədəfləyir.

Prioritet sektorların müəyyənləşdirilməsi də strategiyanın önəmli istiqamətlərindən biridir. Belə ki, kənd təsərrüfatı, səhiyyə, nəqliyyat və təhsil sahələri süni intellektin potensial səmərəliyini maksimum dərəcədə artırmaq imkanı olan prioritet sektorlar kimi ön plandadır.

Strategiyada hüquqi və etik çərçivənin yaradılması da diqqətdə saxlanılır, süni intellekt tətbiqlərində ədalətli, etik və şəffaf yanaşmanı gerçəkləşdirən milli qanunvericilik bazasının beynəlxalq standartlara uyğun qurulması nəzərdə tutulur. Bundan başqa sənəddə beynəlxalq tərəfdaşlıqların genişləndirilməsi, regional və beynəlxalq miqyasda əməkdaşlıqların qurulması, eləcə də Azərbaycanın qlobal texnoloji icmada mövqeyinin möhkəmləndirilməsi strateji önəm daşıyır.

Yeri gəlmişkən, respublikamızda süni intellekt sahəsində indiyədək görülən işlərə də qısa nəzər salmaq istərdik. Belə ki, son illərdə Azərbaycanda süni intellekt sahəsində bir sıra fundamental addımlar atılıb: 2020-ci ildən başlayaraq rəqəmsal transformasiya prosesləri sürətləndirilib, 2021-ci ildə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzdində Süni İntellekt üzrə İşçi Qrupu formalaşdırılıb. Bu qurumun təşəbbüsü ilə bir sıra sahələrdə süni intellekt əsaslı layihələrin icrasına başlanılıb.

2022-ci ildə "Rəqəmsal Azərbaycan: 2030" strategiyası çərçivəsində süni intellektə dair ilkin təhlillər aparılıb, milli ekspert və texnoloji mərkəzlərin iştirakı ilə konseptual sənədlər hazırlanıb. Bununla yanaşı, "e-Government (elektron hökumət)" portalında və ASAN xidmət sistemində süni intellekt elementləri tətbiq olunmağa başlanıb, vətəndaş müraciətlərinin cavablandırılmasında avtomatlaşdırılmış sistemlər işə salınıb.

Təhsil sahəsində də süni intellekt texnologiyalarına əsaslanan pilot layihələr həyata keçirilib, məktəblərdə tədris prosesinin fərdiləşdirilməsi, şagird performansının avtomatik təhlili kimi istiqamətlərdə tətbiqlər testləşdirilib. Bundan əlavə, kənd təsərrüfatı və nəqliyyat sektorlarında peyk məlumatlarına əsaslanan proqnozlaşdırma sistemləri inkişaf etdirilib.

Strategiyada qeyd olunur ki, süni intellektin hər bir sektorda tətbiq potensialı dərindən təhlil ediləcək, mütəxəssislərin rəyləri əsasında pilot proqramlar hazırlanacaq. Bu proqramlar real sənaye sahələrində resursların daha səmərəli istifadəsini gerçəkləşdirəcək, qeyri – sistemləri aşkarlayacaq.

Texnologiyalardakı sürətli inkişafla paralel olaraq etik, sosial, iqtisadi risklərin artması qaçılmazdır. Strategiyada bu risklərin idarə olunması üzrə monitorinq sistemlərinin qurulması, ön qiymətləndirmə mərhələlərinin tətbiqi və ictimai əlaqələrin təmin olunması da önə çıxarılır.

Azərbaycanın süni intellekt sahəsində regional liderə çevrilməsi yalnız texnologiya deyil, həm də mədəni, etik və ictimai aspektlərdə dərindən təhlil olunması, əlaqələr və mütəxəssis kapitalının formalaşdırılması sayəsində mümkün olacaq. Strategiya bu istiqamətdə konkret proqramları və təşviqat mexanizmlərini əhatə edəcək.

"Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası" dövlətin texnologiyaya verdiyi önəmin və bu sahədə davamlı liderlik iddiasının sərgilənməsidir. Bu istiqamətdə həyata keçiriləcək addımlar Azərbaycanı regionun innovasiya mərkəzinə çevirməklə yanaşı, gənclərin və mütəxəssislərin texnologiya sahəsində dünyəvi standartlara cavab verən bilik və bacarıqlarla silahlanmasına da imkan yaradacaq.

Sənəddə strategiyanın icrasında yarana biləcək riskləri neytrallaşdırmaq məqsədilə süni intellektin tətbiqi potensialı və tələblərini nəzərə almaq şərtilə hər bir sektorda ətraflı təhlillərin aparılacağı, mütəxəssislərin və ekspertlərin fikirləri, təklifləri əsasında prioritet sektorların müəyyənləşdiriləcəyi, pilot layihələrin həyata keçiriləcəyi və resursların balanslı şəkildə bölüşdürüləcəyi də nəzərdə tutulur.

Strategiyada qeyd edilib ki, məlumat idarəetməsinin və infrastrukturunun təkmilləşdirilməsi rəqəmsal transformasiyanın formalaşmasında əsas rol oynayacaq, bununla da dövlət orqanları və özəl sektor üçün etibarlı, səmərəli və innovativ həllərin inkişafı təmin ediləcək. Eyni zamanda, məlumatların səmərəli idarə olunması, açıq məlumatların genişləndirilməsi, yüksəksəviyyəli hesablama imkanlarının artırılması və Təbii Dil Emalı (TDE) texnologiyalarının gücləndirilməsi süni intellektin və data əsaslı qərar qəbuletmənin inkişafına töhfə verəcək.

Bütün bunların reallaşdırılması üçün yüksəksəviyyəli hesablama infrastrukturunun inkişafı, TDE üzrə istiqamətlərin gücləndirilməsi, məlumatlardan səmərəli istifadə, onların təhlükəsizliyinin və fərdi məlumatların mühafizəsinin gerçəkləşdirilməsi və məlumatyönümlü idarəetməyə keçidin təşkili istiqamətlərində layihələr reallaşdırılacaq.

Strategiyada yuxarıda sadalananlarla yanaşı, süni intellekt üzrə istedad və bacarıqların təkmilləşdirilməsi, əlverişli biznes mühitinin yaradılması kimi məsələlərin də həllinin zəruriliyi vurğulanıb və bu istiqamətlərdə həyata keçiriləcək tədbirlərin mahiyyəti açıqlanıb.

Beləliklə, ölkəmiz adıçəkilən strategiyanın uğurla icrası nəticəsində süni intellekt texnologiyalarını tətbiq etməklə qlobal rəqabətə uyğun, dayanıqlı və səmərəli sistem qurmağı qarşıya məqsəd qoyur. Bu kontekstdə məlumatların qorunması, kibertəhlükəsizliyin təmin edilməsi, yüksək hesablama infrastrukturunun yaradılması və süni intellekt texnologiyalarının müxtəlif sahələrdə, o cümlədən iqtisadiyyat, səhiyyə, təhsil və dövlət idarəçiliyində tətbiqi əsas prioritetlərdən biri olacaq.

Hazırda dünyada həm dövlətlər, həm də biznes subyektləri süni intellektin inkişaf potensialını daha dərindən dərk edir və bu sahəyə milyardlarla dollar həcmində investisiyalar yönəldilir. Məsələn, müxtəlif tədqiqatlara əsasən, Avropa İttifaqının süni intellekt texnologiyalarına sərmayələri 2025-ci ilə qədər 22,4 milyard avroya çatacaq.

**"BP-Azərbaycan" şirkətinin mətbuat xidmətinin rəhbəri Tamam Bayatlı jurnalistlərə açıqlamasında Cəbrayıl rayonunda 240 MVt-lıq Şəfəq Günəş Elektrik Stansiyasının (GES) tikintisi ilə bağlı yekun investisiya qərarının verilməsinə hazırlıq getdiyini bildirib. Xatırladaq ki, işğaldan azad edilən ərazilərdə həyata keçirilən ilk sənaye miqyaslı günəş enerjisi və ən böyük birbaşa xarici investisiya layihəsi olan bu stansiyanın tikintisinə 2021-ci il iyunun 3-də Energetika Nazirliyi ilə BP şirkəti arasında imzalanan İcra Müqaviləsi əsasında başlanılıb.**

# BP "Şəfəq" GES-in tikintisinə hazırlıq aparır



Təməlqoyma mərasimində layihə üzrə "Azərbaycan Respublikası Hökuməti ilə "Şəfəq (Cəbrayıl) Solar Limited" şirkəti arasında İnvestisiya Müqaviləsi və "Azərbaycan Respublikası Energetika Nazirliyi ilə "Şəfəq (Cəbrayıl) Solar Limited" şirkəti arasında Torpaq İcarəsi Müqaviləsi" imzalanıb.

Sonra isə simvolik olaraq stansiyanın ilk günəş paneli imzalanıb. Şəfəq GES-də illik, təxminən, 500 milyon kilovat-saat elektrik enerjisi istehsalı gözlənilir ki, bu da ildə 120-150 milyon kubmetr təbii qaza qənaət, 260-330 min ton karbon emissiyasının azaldılması deməkdir.

Virtual Enerji Ötürülməsi Mexanizmi (VPTA) çərçivəsində stansiyada istehsal olunan enerji Cəbrayılda mövcud elektrik şəbəkəsinə ötürüləcək və eyni miqdarda enerji Səngəçal terminalına veriləcək. Nəticədə terminalın enerji ehtiyaclarını qarşılamaq üçün bərpa olunan enerjidən istifadə ediləcək və BP-nin Xəzər regionunda əməliyyat tullantılarının azaldılmasına dəstək verəcəkdir.

Beləliklə, layihənin icrası həm milli iqtisadiyyata, həm də konsorsium üzvlərinin, o cümlədən SOCAR-ın dekarbonizasiya səylərinə mühüm töhfə verəcək.

Səhmdarları BP, SOCAR və Azərbaycan İnvestisiya Şirkəti olan Şəfəq GES layihəsinə, təxminən, 200 milyon ABŞ dolları məbləğində investisiya yatırılması nəzərdə tutulur.

# "Odlar yurdu" 17 ölkəyə neft satır

**Bu ilin yanvar-aprel aylarında Azərbaycandan 17 ölkəyə 4 milyard 562 milyon 682,5 min ABŞ dolları dəyərində 8 milyon 203 min 845 ton bitumlu süxurlardan alınmış xam neft və xam neft məhsulları ixrac edilib. Bu isə əvvəlki ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsində 198 milyon 93 min dollar və ya 4,5 faiz, həcm ifadəsində isə 1,3 milyon ton və ya 18,4 faiz çoxdur. Bu barədə Dövlət Gömrük Komitəsi məlumat yayıb.**



Bildirilib ki, hesabat dövründə ölkəmizdən İtaliyaya 2 milyard 448 milyon 796,8 min dollar dəyərində 4 milyon 388 min 968 ton neft ixrac edilib. Bununla da İtaliya Azərbaycanın ümumi neft ixracında birinci yerdə qərarlaşıb.

Cari ilin ilk 4 ayında ölkəmizin neft satdığı ölkələrin siyahısında 2-ci yeri Çexiya tutub. Hesabat dövründə bu ölkəyə 304 milyon 667,4 min dollar dəyərində 558 min 693,3 ton neft ixrac edilib. İlk üçlüyü isə Rumıniya tamamlayıb. Belə ki, yanvar-aprel aylarında bu ölkə Azərbaycandan 280 milyon 129 min dollar dəyərində 500 min 350,6 ton neft idxal edib. Ümumilikdə isə, bu ilin ilk 4 ayında ölkəmiz Almaniya, Xorvatiya, Portuqaliya, Böyük Britaniya, İrlandiya, Yunanıstan, Niderland, Tailand, İndoneziya, İsveçrə, Danimarka, Bolqarıstan, Tunis və Türkiyəyə xam neft və xam neft məhsulları satıb.

# Salyanda üzümçülük dərsləri

**Kənd Təsərrüfatı Nazirliyinin Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu, Salyan Aqrar Təlim Mərkəzinin əməkdaşları və üzümçü fermerlərin birgə iştirakı ilə "İqlim dəyişmələri fonunda üzümün xəstəlik və zərərvericilərdən qorunması, yaşıl əməliyyatların aparılma qaydaları, bitkinin normal çiçəkləməsi və tozlanma prosesinin təmin edilməsi yolları" mövzusunda tarla seminarı keçirilib.**



Salyan Aqrar Təlim Mərkəzinin direktoru Vüqar Hüseynov seminarda çıxış edərək hazırda dünyada, o cümlədən ölkəmizdə iqlim dəyişmələri ilə bağlı temperatur və yağıntılar üzrə anomaliyaların daha intensiv xarakter daşıdığını bildirib. Qeyd olunub ki, aylar üzrə havanın temperaturunda müşahidə edilən tərəddüdlər, uzun sürən anomal istilər, quraqlıq, soyuq və küləkli havalar torpaqda gedən mikrobioloji, fiziki-kimyəvi proseslərə, o cümlədən bitkilərdə gedən fizioloji, biokimyəvi proseslərə mənfi təsirsiz ötüşmür, hətta bir çox hallarda fəsad törədən stres təsirlər şəkilində büruzə verir.

Üzümçülük və Şərabçılıq Elmi Tədqiqat İnstitutunun direktoru Vüqar Səlimov isə çıxışında üzümün inkişafı, böyüməsi, bar verməsi və s. xüsusiyyətlərinin bir canlı orqanizm kimi ətraf mühit amillərindən əhəmiyyətli dərəcədə asılılığından bəhs edib. O deyib ki, üzümün vegetasiya dövründə ətraf mühit amillərində baş verən dəyişkənliklər onun fenofazalarının gedişinə əhəmiyyətli təsir edir, meydana çıxan ekoloji əsaslı stres amilləri üzümün həyatına təsirsiz ötüşmür.

Seminar zamanı institutun əməkdaşları tərəfindən üzümlüklərdə xəstəlik və zərərvericilərə qarşı kompleks mübarizə tədbirlərinin həyata keçirilmə texnologiyası əyani şəkildə nümayiş etdirilib. Diqqətə çatdırılb ki, zamanında aparılan kompleks mübarizə tədbirləri vaxt itkisinin qarşısını almaqla optimal müddətdə bir neçə xəstəlik və zərərvericilərə qarşı kompleks mübarizənin tətbiqi üzümlüklərə qulluq xərclərinin aşağı düşməsini təmin etməklə yanaşı, məhsulun kəmiyyət və keyfiyyətini yaxşılaşdırır. Bu üsulu vaxtında və kompleks şəkildə tətbiq etmək fermerlərin dərmanlara çəkdikləri xərcləri nəzərəçarpacaq dərəcədə azaltmaqla məhsul itkisinin qarşısını tam alır. Qeyd olunub ki, Salyan rayonunda üzümün becərilməsində geniş yayılmış üsullardan biri də çardaq və perqola sistemidir.

Görüş zamanı xarici üzüm sortlarından salınmış yeni üzüm bağlarında üzümün çiçəkdən çıxmasını təmin etmək üçün preparatların tətbiqi və yaşıl əməliyyatların aparılması haqqında tövsiyələr verilib. Bununla yanaşı, iştirakçıları maraqlandıran suallar cavablandırılıb. Elmi-praktik seminarın sonunda fermer və istehsalçılara "Üzümün becərilməsi: budama qaydaları, xəstəlik və zərərvericilərə qarşı mübarizə" kitabı paylanılıb.

Daha sonra fermer-təsərrüfat sahələrinə baxış keçirilib. Üzüm bağlarında yarpaqlarda digər rayonlarda rast gəlinməyən bəzi xəstəlik əlamətləri ilə bağlı fermerlərə müvafiq akarisidlər tövsiyə olunub. Eyni zamanda, üzüm bağlarında zərərvericilərə qarşı səmərəli mübarizənin təşkili üçün feromon tələlər quraşdırılıb. Salxım yarpaqbükəninə qarşı kimyəvi mübarizənin vaxtının təyin edilməsi məqsədilə mütəmadi olaraq fermerlərdən məlumat toplanması qərara alınıb.

# Qızıl hasilatı 71 faiz çoxalıb



**Cari ilin yanvar–aprel aylarında qızıl istehsalı 71,2 faiz artaraq 1026,3 kiloqram təşkil edib.**

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, cari il mayın 1-i vəziyyətinə hazır məhsul ehtiyatı ötən ilin eyni dövrü ilə müqayisədə 66,5 faiz azalaraq 64,5 kiloqram olub.

Bundan başqa, hesabat dövrü ərzində gümüş istehsalı 21,9 faiz artaraq 1372 kiloqram təşkil edib. Mayın 1-i vəziyyətinə gümüş üzrə hazır məhsul ehtiyatı ötən ilin eyni dövrü ilə müqayisədə 17,3 faiz artaraq 579,1 kiloqram qeydə alınıb.

# İKT sektorunda yüksəliş

**Dövlət Statistika Komitəsindən bildirilib ki, cari ilin yanvar–aprel aylarında ölkədə informasiya və kommunikasiya texnologiyaları (İKT) sektorunda 716 milyon manatlıq (ötən ilin eyni dövrü ilə müqayisədə 7,8 faiz çox) məhsul istehsal edilib. Aprel ayında isə bu sektorda 190,5 milyon manatlıq məhsul buraxılıb.**



Hesabat dövründə İKT sektorunun Ümumi Daxili Məhsulda (ÜDM) payı 1,8 faiz təşkil edib.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Milli enerji strategiyamızın hədəfi – Dayanıqlı inkişaf və qlobal tərəfdaşlıq

**Son illər respublikamızda dayanıqlı inkişaf və qlobal tərəfdaşlıq layihələrinin gerçəkləşdirilməsi ölkənin enerji siyasətində strateji mərhələ olmaqla bərabər, həm də onun regional və qlobal enerji bazarlarında artan rolunu nümayiş etdirir.**



Cənub Qaz Dəhlizi layihəsi Azərbaycanın enerji diplomatiyasının ən uğurlu nümunələrindən biridir. Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində həyata keçirilən bu layihə ölkəmizin Avropanın enerji təhlükəsizliyində mühüm tərəfdaşa çevrilməsinə əlverişli imkan yaradır. Eyni zamanda, Azərbaycan "yaşıl" enerji sahəsində də iddialı planlar quraraq, bərpa olunan enerjinin istehsalı və ixracı istiqamətində mühüm addımlar atır.

Beynəlxalq ekspertlər tərəfindən bərpa olunan və "yaşıl" enerji əsasında istehsal edilən elektrikin ixracı Azərbaycanın enerji strategiyasında yeni eranın başlanğıcı kimi yüksək dəyərləndirilib. Ölkəmizdə energetika sahəsində bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi Prezident İlham Əliyev tərəfindən prioritet vəzifə olaraq irəli sürülüb və 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bu enerjinin payının 30 faizə çatdırılması hədəf kimi müəyyənləşdirilib.

Azərbaycan məhz bu amili nəzərə alaraq dövlətimizin başçısının strateji baxışı çərçivəsində "yaşıl" enerji mənbələrinə sərmayə yatıran ölkə kimi də mövqeyini getdikcə möhkəmləndirir. Respublikamız "yaşıl" enerji sahəsində böyük potensiala malikdir və qarşıdakı illərdə bu sahənin inkişafı üçün daha böyük addımlar atmağı planlaşdırır. Xəzər dənizinin külək enerjisi potensialından istifadə edərək ölkəmiz təkcə daxili tələbatı ödəməyi deyil, həm də Avropaya "yaşıl" enerji ixracını hədəfləyir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının "Yaşıl enerji zonası" elan edilməsi də bu istiqamətdə atılan mühüm addımlardan biridir.

Azərbaycan Günəş və külək enerjisi layihələrinin genişləndirilməsi, su elektrik stansiyalarının modernləşdirilməsi və beynəlxalq tərəfdaşlarla əməkdaşlığın dərinləşdirilməsini strateji məqsədlər kimi diqqətdə saxlayır. Bununla bərabər, ölkəmizin qarşısında 2050-ci ilə qədər karbon emissiyalarının minimuma endirilməsi və enerji sektorunda bərpa olunan mənbələrin payının əhəmiyyətli dərəcədə artırılması mühüm vəzifə kimi durur. Bu hədəflər Azərbaycanın təkcə regionda deyil, qlobal enerji bazarında da mövqeyini möhkəmləndirəcəyi əminliyindən xəbər verir.

Azərbaycanın enerji strategiyası son illərdə yalnız karbohidrogen resurslarının ixracı ilə məhdudlaşmır. Bu strategiya artıq "yaşıl" enerjinin inkişafı və beynəlxalq enerji təhlükəsizliyində Azərbaycanın rolunun artırılması istiqamətində genişlənir. Bu kontekstdə Zəngəzur Yaşıl Enerji Dəhlizi layihəsi xüsusi əhəmiyyət daşıyır. Layihə təkcə regional inteqrasiyanı deyil, eyni zamanda Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasında strateji əməkdaşlığın dərinləşməsini də təşviq edir.

Zəngəzur Yaşıl Enerji Dəhlizi Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında günəş və külək enerjisi potensialından istifadə edərək bu təmiz enerjinin Avropaya ötürülməsini nəzərdə tutur. Layihənin əsas məqsədi Azərbaycanın "yaşıl" enerji potensialını beynəlxalq bazarlara çıxarmaq, Avropa ölkələrinin enerji təhlükəsizliyinə töhfə vermək və iqlim dəyişikliyi ilə mübarizədə qlobal səyləri dəstəkləməkdir.

Azərbaycanın hesablamalarına görə, bu bölgədə 7-10 QVt gücündə bərpa olunan enerji istehsal potensialı mövcuddur. Bu enerji, xüsusilə də Cənubi Qafqazdan keçən və Gürcüstan vasitəsilə Qara dənizə, oradan isə Rumıniya və digər Aİ ölkələrinə uzanacaq "Qara dəniz elektrik kabeli" vasitəsilə Avropaya çatdırılacaq.

Aİ üçün enerji təhlükəsizliyi və dayanıqlı enerji mənbələrinin artırılması son illərdə prioritet sahələrdəndir. Rusiya-Ukrayna müharibəsi fonunda Aİ Rusiyadan enerji asılılığını azaltmaq məqsədilə alternativ enerji mənbələri və tərəfdaşlar axtarışına çıxıb. Bu kontekstdə Azərbaycanla əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir.

2022-ci ilin iyul ayında Azərbaycan və Avropa Komissiyası arasında imzalanmış "Strateji Enerji Tərəfdaşlığına dair Anlaşma Memorandumu" çərçivəsində tərəflər bərpa olunan enerji, xüsusilə də "yaşıl" enerji ixracının artırılması istiqamətində razılığa gəliblər. Bu razılaşmanın davamı olaraq, 2022-ci ilin sonunda Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında "Yaşıl enerji dəhlizi"nin yaradılması barədə saziş imzalanıb.

Zəngəzur dəhlizi bu layihənin mühüm komponentlərindən biridir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaradılacaq enerji stansiyaları Naxçıvan üzərindən Türkiyəyə və oradan da Avropaya birləşmək imkanına malik olacaq. Bu, həm Azərbaycanın Naxçıvanla birbaşa enerji əlaqəsini təmin edəcək, həm də "yaşıl" enerjinin ixracını asanlaşdıracaq.

Bu dəhliz, eyni zamanda, Azərbaycanın regional nəqliyyat və enerji qovşağına çevrilməsi siyasətinə xidmət edir. Zəngəzur dəhlizi enerji və nəqliyyat marşrutu olaraq Cənubi Qafqazın yeni reallıqlarını formalaşdırır.

Aİ ilə bu sahədə əməkdaşlıq təkcə enerji təchizatçısı – müştəri münasibətindən ibarət deyil. Bu təşkilat, həmçinin Azərbaycanda bərpa olunan enerji infrastrukturunun yaradılmasına texniki və maliyyə dəstəyi verməyə hazırdır. Bu istiqamətdə Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Avropa İnvestisiya Bankı (AİB) və digər qurumlarla danışıqlar aparılır.

Azərbaycan da, öz növbəsində, bu əməkdaşlığı investisiya imkanlarının genişləndirilməsi və texnologiyaların ölkəyə gətirilməsi baxımından dəyərləndirir. Ətraf mühitin qorunması, karbon emissiyalarının azaldılması və "yaşıl" iqtisadiyyatın inkişafı Azərbaycanın 2030-cu ilə qədər olan sosial-iqtisadi inkişaf prioritetləri sırasında yer alır.

Əlbəttə, belə bir iri enerji layihəsinin həyata keçirilməsi mühüm çağırışlar da doğurur. İnfrastrukturun qurulması, sərmayələrin cəlbi, texniki təhlükəsizlik və regional sabitlik kimi məsələlər əsas problemlər sırasındadır. Xüsusilə Ermənistanla münasibətlərdə gərginliklərin hələ də qalması Zəngəzur dəhlizinin tam reallaşmasını ləngidə bilər.

Bununla belə, Azərbaycanın diplomatik səyləri, beynəlxalq tərəfdaşlarla əməkdaşlıq və Avropa İttifaqının güclü maraqları bu layihənin həyata keçməsini daha real edir.

Zəngəzur Yaşıl Enerji Dəhlizi Azərbaycanın "yaşıl" enerji sahəsindəki imkanlarını reallaşdırmaqla yanaşı, ölkəmizi Avropa enerji bazarının əhəmiyyətli oyunçularından birinə çevirəcək. Bu layihə həm Azərbaycanın milli maraqlarına, həm də Aİ-nin enerji təhlükəsizliyinə və "yaşıl" keçid məqsədlərinə xidmət edir. Strateji əməkdaşlıq və qarşılıqlı siyasi iradə bu hədəflərin gerçəkləşməsində əsas rol oynayacaq.

**İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Ağdam Sənaye Parkının rezidenti "Mister Decor" MMC bugünlərdə Özbəkistana divar kağızlarının ixracına başlayıb. İlkin mərhələdə bu ölkəyə 1,36 milyon manatlıq məhsulun göndərilməsi nəzərdə tutulub.**

## Özbəkistan ölkəmizdən divar kağızları alır



"Mister Decor" MMC sənaye parkının ərazisində divar kağızlarının istehsalını həyata keçirir. Şirkətin 1,6 hektar ərzidə yaratdığı müəssisənin investisiya dəyəri 8 milyon manat təşkil edir. Bu, həm də Cənubi Qafqazda divar kağızlarının istehsalı üzrə ixtisaslaşmış ilk zavoddur. Müəssisə il ərzində 2,1 milyon ədəd rulon divar kağızı istehsal etmək gücündədir.

Xatırladaq ki, Ağdam Sənaye Parkı Azərbaycan Respublikası Prezidentinin 28 may 2021-ci il tarixli 1347 nömrəli Fərmanı ilə yaradılıb. Parkının yaradılmasında məqsəd işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının inkişaf etdirilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının təşkil edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasından ibarətdir.

190 hektar ərazidə yaradılmış parkın investisiya dəyəri 153,96 milyon ABŞ dolları təşkil edir. Sənaye zonasında, ümumilikdə, 2 min 400-dən çox iş yerinin yaradılması nəzərdə tutulub. Ötən müddətdə Ağdam Sənaye Parkında ümumi investisiyalarının həcmi 271 milyon manat olan 29 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Sahibkarlar tərəfindən indiyədək sənaye parkına 97 milyon manatdan çox investisiya yatırılıb. Bunun da hesabına parkın ərazisində fəaliyyətə başlamış 9 müəssisədə 380-dən artıq daimi iş yeri yaradılıb.

Hazırda burada istehsal edilən məhsullardan işğaldan azad olunmuş ərazilərdə aparılan tikinti-quraşdırma işlərində istifadə edilməklə yanaşı, daxili bazarda da satışı həyata keçirilir. Artıq ixrac istiqamətində də uğura imza atılıb. Belə ki, sənaye parkında istehsal olunan malların bir sıra MDB ölkələri ilə yanaşı, Türkiyə və İraqa da ixracını təşkil etmək istiqamətində danışıqlar aparılır.

## "Nəsimi" tankeri dənizə qayıtdı




**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"nin Qapalı Səhmdar Cəmiyyətinin "Nəsimi" tankerinin tərsanə təmiri başa çatıb. "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda aparılan işlər qısa müddətdə və yüksək keyfiyyətlə həyata keçirilib.**

Təmir zamanı tankerin sualtı və suüstü hissələri, maşın şöbəsindəki mexanizmlər, gəminin baş göyərtəsi təmizlənərək rənglənib. Gəmi üzrə klapanların təmiri və ağac emalı, eləcə də gövdə-qaynaq, elektrik-quraşdırma işləri yerinə yetirilib.

Eyni zamanda, tankerdə rabitə və elektroradionaviqasiya avadanlıqları təmir edilib. Nasaz vəziyyətdə olan ehtiyyat hissələr yenisi ilə əvəz olunub. Müasir tip "Inmarsat-C" peyk rabitə terminalları, stasionar ultraqısa dalğalı radiostansiya, qəza radiomayakı, qəza-xilasetmə radiostansiyalar və vericilər, avtomatik identifikasiya sistemi, maqnit kompas, girokompas, exolot və sürət ölçən laq avadanlığı quraşdırılıb. Təmir işlərindən sonra gəmi yenidən istismara qaytarılıb.

Qeyd edək ki, uzunluğu 149,9 metr, eni isə 17,3 metr olan "Nəsimi" tankerinin tam yükgötürmə qabiliyyəti 13,8 min tondur.

## "Qobustan"da Çinin günəş panelləri

**Dünyanın ən böyük günəş panelləri (modulları) istehsalçılarından biri olan Çinin "JinkoSolar" fotovoltaik şirkəti Azərbaycanda 100 meqavat gücündə günəş elektrik stansiyası layihəsi üçün modullar təchiz edəcək.**



Bu məqsədlə "JinkoSolar" "Universal Energy" şirkəti ilə "Qobustan" Günəş Elektrik Stansiyasının (GES) tikintisi layihəsi üçün modulların təchizatı haqqında müqavilə imzalanıb. "Layihənin həyata keçirilməsi zamanı "JinkoSolar" tərəfindən hazırlanmış TOPCon N-tipli modullar tam istifadə olunacaq. Bu tərəfdaşlıq "JinkoSolar" texnologiyalarının çətin (hava) şəraitində tanınmasını vurğulayır və şirkətin dünya fotovoltaik sistemləri bazarında lider mövqeyini gücləndirir", – deyə Çin şirkətinin bununla bağlı məlumatında bildirilib.

Qeyd olunub ki, layihə çətin iqlim şəraitinə malik ərazidə həyata keçirilir – yayda temperatur 45°C-yə çatır, tez-tez güclü küləklər, toz fırtınaları müşahidə olunur. TOPCon N-tipli modullar öz texniki xüsusiyyətlərinə görə seçilir. Bunlara hər vatt üçün yüksək çıxış gücü, istənilən hava şəraitində etibarlı işləmə və ümumi enerji istehsalının artırılması daxildir. İkitərəfli əmsalı sayəsində xarici generasiya effektivliyi 85 faizə qədər əhəmiyyətli dərəcədə artır ki, bu da ümumi istehsalı, təxminən, 3,38 faiz artırmağa imkan verir.

Yeri gəlmişkən, 100 meqavat gücündə "Qobustan" GES-in tikintisi layihəsi üzrə investisiya müqaviləsi 2025-ci il aprelin 22-də Azərbaycan hökuməti ilə Çinin "Universal Energy" şirkətinin törəmə strukturu olan "Universal Solar Azerbaijan" MMC arasında imzalanıb. Müqaviləyə əsasən Azərbaycan hökuməti vergi güzəştləri, torpaq sahəsinin verilməsi, ötürücü şəbəkəyə qoşulma kimi istiqamətlərdə dəstək göstərəcək, həmçinin layihənin həyata keçirilməsinə kömək etmək üçün yerli strukturlarla qarşılıqlı əlaqəni koordinasiya edəcək.

Xatırladaq ki, 2024-cü ilin noyabrında Bakıda keçirilən COP29 konfransı zamanı "Universal Energy" bu layihənin həyata keçirilməsi üçün beynəlxalq tenderin qalibi elan edilmişdi. Ümumi investisiya həcmi, təqribən, 51 milyon ABŞ dolları qiymətləndirilir. 2026-cı ildə istismara verilməsi nəzərdə tutulan stansiyada hər il, təxminən, 180 milyon kilovat-saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır. Eyni zamanda, stansiya karbon qazı emissiyalarını ildə 146,5 min ton azaldacaq.



## Xəzər neftdən təmizlənir

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Dəniz və Liman Agentliyində Neft Dağılmalarına Hazırlıq üzrə Beynəlxalq Təşəbbüs (OSPRİ) təşkilatının nümayəndələri ilə görüş keçirilib.**

Görüşdə agentliyin dəniz ətraf mühitinin mühafizəsi şöbəsinin müdiri Fərid Murtuzov Xəzər dənizinin Azərbaycana məxsus ərazilərində baş verə biləcək neft dağılmalarına qarşı aparılan mübarizə tədbirlərindən danışıb. Qeyd olunub ki, hazırda agentlik "Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında" 1973-cü il tarixli Beynəlxalq Konvensiya və "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasının neftlə çirklənmə halları ilə mübarizədə regional hazırlıq, cavab tədbirləri və əməkdaşlıq haqqında" protokolundan irəli gələn öhdəliklərin icrası istiqamətində bir sıra tədbirlər həyata keçirir.

OSPRİ təşkilatının nümayəndələri agentlik tərəfindən həyata keçirilən tədbirləri müsbət qiymətləndirərək gələcəkdə ikitərəfli əməkdaşlıq imkanları barəsində fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, OSPRİ təşkilatı Xəzər dənizi – Qara dəniz – Mərkəzi Avrasiya regionunda neft dağılmalarına qarşı etibarlı, inteqrasiya olunmuş və dayanıqlı reaksiya imkanlarını təşviq etmək üçün bir qrup neft şirkəti tərəfindən (BP, Chevron, Eni, ExxonMobil, KMG, NCOC, Shell və TotalEnergies) yaradıb.




**Bu ilin yanvar–aprel aylarında Azərbaycandan 3 milyard 650 milyon ABŞ dolları dəyərində 8 milyard 160 milyon kubmetr həcmində təbii qaz ixrac edilib.**

Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, 2024-cü ilin ilk 4 ayı ilə müqayisədə ixrac edilən təbii qazın dəyəri 306,8 milyon dollar və ya 11,1 faiz, həcmi isə 453,2 milyon kubmetr və ya 5,9 faiz artıb. Hesabat dövründə ölkəmizin ümumi ixracında təbii qazın payı 34,90 faiz təşkil edib.

Xatırladaq ki, 2025-ci ilin yanvar–aprel aylarında Azərbaycan xarici ölkələrlə 16,917 milyard ABŞ dolları dəyərində ticarət əməliyyatı aparıb. Bu isə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,3 milyard dollar və ya 24,1 faiz çoxdur.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Süni intellekt dünyanın strateji resursuna çevrilir

*Müsahibimiz İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri, fəlsəfə doktoru Rasim Mahmudovdur*



**– Bu gün qlobal miqyasda süni intellektin inkişafı ilə bağlı əsas tendensiyalar hansılardır?**

– Bu gün süni intellekt sahəsində dünyada baş verən proseslərə baxdıqda, bir neçə əsas tendensiyanı açıq şəkildə görmək mümkündür. Bu tendensiyalar həm texnoloji yeniliklər, həm iqtisadi nöqteyi-nəzərdən, həm də siyasi və etik çalarlar baxımından olduqca maraqlıdır.

Əgər bir vaxtlar neft əsas strateji resurs sayılırdısa, bu gün artıq süni intellektə qlobal strateji resurs kimi baxılır. Artıq hesab olunur ki, informasiya və süni intellekt kimdədirsə, gələcək də onun tərəfindədir. Dünyada artıq, sadəcə, texnologiya yarışı yox, strateji üstünlük uğrunda ciddi bir rəqabət gedir. Süni intellekt təkcə proqramçıların maraq və fəaliyyət sahəsi deyil – o, bu gün ən güclü iqtisadi silahdır, diplomatik alətdir, strateji mövqedir. ABŞ, Çin, Yaponiya, Cənubi Koreya, Avropa İttifaqı ölkələri və digər iddialı dövlətlər süni intellekt sahəsinə amansız rəqabət aparır, bu sahəyə böyük həcmdə investisiya yatırırlar. Bu ölkələr süni intellektə həm iqtisadi yüksəliş aləti, həm də milli təhlükəsizlik və strateji nəzarət vasitəsi kimi baxırlar.

Hazırda süni intellektin inkişaf istiqamətləri sırasında ən çox diqqət çəkən sahələrdən biri və bəlkə də birincisi generativ texnologiyalardır. ChatGPT, Gemini, Deep Seek, Claude və s. bu sahənin qabaqcıl nümunələrindəndir. Bu texnologiyalar artıq təhsildən tutmuş hüquq sisteminə, tibbdən jurnalistikaya qədər bir çox sahədə tətbiq edilir. Yəni artıq süni intellekt təkcə hesablamalar aparmır, həm də yazır, danışır, rəsm çəkir, hətta musiqi bəstələyir. Generativ süni intellekt texnologiyaları artıq insanla dialoq qura bilən maşınlar səviyyəsinə gəlib çatıb. Yəni, artıq bu proqramlar kompüter dili ilə yox, sizin kimi, mənim kimi danışırlar.

Yəni bu gün süni intellekt yalnız hansısa intellektual elita üçün deyil, bütöv cəmiyyət, hər bir vətəndaş üçündür deyə bilərik. Hər kəs peşəsinə, vəzifəsinə, intellektual səviyyəsinə, həyat tərzinə, dünyagörüşünə uyğun olaraq onun imkanlarından istifadə edə bilir. Generativ süni intellekt alətləri hər kəs üçün əlçatandır, hər kəs üçün eyni imkanlar yaradır. İndiyə qədər süni intellekt, əsasən, "bilən maşın" idi. Amma indi onu həm də "hiss edən maşın" etməyə çalışırlar. Hədəf odur ki, robot üz ifadəsindən insanın halını başa düşsün, yazdığı məktubdan onun emosiyasını sezsin, hətta depressiyaya düşməyini hiss etsin. Yəni, gələcəkdə bu tip məsələlərə bağlı psixoloqa yox, süni intellektə müraciət edə bilərik.

Süni intellektin narahatlıq doğuran əsas məqamlarından biri də onun etik aspektləri ilə bağlıdır. Bu gün bununla bağlı qlobal çağırışlar ondan ibarətdir ki, süni intellekt heç kəsi cinsi, yaşı, etnik mənşəyi və ya sosial statusuna görə ayrı-seçkiliyə məruz qoymamalıdır. Bu texnologiya istifadəçinin icazəsi olmadan onun məlumatlarını toplamalı və paylaşmalı deyil. İstifadəçinin konfidensiallığı ən yüksək səviyyədə qorunmalıdır. İnsanlar süni intellektin necə qərar verdiyini anlaya bilməlidirlər. Bu texnologiya qərarların qəbulunda insanları tam əvəz etməməli, burada son söz hüququ insana aid olmalıdır.

Ən çox narahatlıq doğuran məsələlərdən biri də süni intellektin saxta videolar, saxta fotolar, saxta səs yazıları yaratmaq, manipulyasiya etmək imkanı ilə bağlıdır. İnsanlar bir çox hallarda bunların saxta, yoxsa həqiqi olduğunu ayırd edə bilmirlər. Bu da bir çox fəsadlara yol açır. Bu, süni intellektin ən böyük təhlükələrindən biri sayılır. ABŞ-da, Avropada bu cür saxtakarlıqlar əleyhinə qanunlar hazırlanır.

Süni intellektlə bağlı əsas narahatlıqlardan biri də əmək bazarının transformasiyası ilə bağlıdır. İnsanlar təşviş düşürlər ki, robotlar gəlib onların işlərini əllərindən alacaq. Doğrudur, bir sıra sahələrdə bu proses baş verir: maliyyə analizləri, mühasibatlıq, tərcümə, texniki idarəetmə və s. işlər artıq alqoritmlərin ixtiyarındadır. Amma bununla yanaşı, yeni iş sahələri də yaranır. Məsələn, süni intellekt təlimçisi, alqoritm etikası üzrə mütəxəssis, süni intellektlə işləyə bilən müəllimlər və s. Ona görə də süni intellektin insan əməyini mənimsəməsindən təşvişə düşmək lazım deyil. Rutin (gündəlik – red.) işlərin yerinə daha intellektual peşələr yaranır. Yetər ki, insanlar əmək bazarında rəqabətədavamlı olmaq üçün səy göstərsinlər.

Maraqlı tendensiyalardan biri də süni intellektin ekoloji məsələlərə xidmət etməyə başlamasıdır. Ona görə də indi "yaşıl süni intellekt" deyilən bir trend meydana gəlib. Məsələn, enerji istehlakı modellərinin optimallaşdırılması, kənd təsərrüfatında resursların daha səmərəli idarə olunması, iqlim dəyişikliyinin proqnozlaşdırılması sahələrində süni intellekt artıq tətbiq edilir.

**– Dünyanın bir çox ölkələri süni intellektin inkişafını prioritetlərdən biri kimi qəbul edirlər və bu sahədə qlobal liderliyə can atırlar. Sizcə, süni intellekt liderliyi iddiaları hansı strateji hədəflərlə bağlıdır?**

– Süni intellekt yarışında öndə olmaq, sadəcə "texnoloji nüfuz" qazanmaq deyil. Bu, siyasi güc, iqtisadi üstünlük, hərbi imkan, informasiya nəzarəti və hətta mədəni təsir deməkdir. Yəni, kim bu sahədə liderdirsə, gələcəyin qaydalarını da o yazır.

Ölkələr başa düşürlər ki, bu texnologiyanı inkişaf etdirən, həm də tətbiq edənlər iqtisadiyyatın bütün sahələrini yenidən quracaqlar. Bank sistemindən tutmuş kənd təsərrüfatına, səhiyyə sistemindən tutmuş nəqliyyata qədər hər şey süni intellekt vasitəsilə optimallaşdırılır. Yəni, süni intellekt sahəsində lider olmaq daha sürətli, daha ucuz və daha effektiv iqtisadiyyata malik olmaq deməkdir.

İndi döyüş meydanlarında təkcə ənənəvi texnika və əsgərlər yox, dronlar, robotlar, analitik sistemlər də iştirak edirlər. Süni intellekt kəşfiyyat məlumatlarını analiz edir, düşmən hərəkətlərini qabaqcadan proqnozlaşdırır, hətta bəzi hallarda avtomatik qərar verir. ABŞ, Çin, Türkiyə, İsrail kimi ölkələr bu sahəyə dövlət səviyyəsində milyardlarla vəsait yatırır. Çünki bilirlər ki, sabahkı müharibələrdə "ağıllı sistemlər" odlu silahdan önə keçəcək.

Maraqlı bir məqam da ondan ibarətdir ki, texnologiya yalnız funksiya deyil, o həm də ideologiya daşıyıcısıdır. Məsələn, əgər sən ABŞ-ın süni intellekt məhsulundan istifadə edirsənsə, bu, təkcə texnologiya deyil, həm də Qərb dəyərləri, fərdi azadlıq, etik prinsiplər də daxil olur paketə. Eyni ilə, Çin texnologiyası ilə gələn sistem də mərkəzləşdirilmiş nəzarət, kollektiv qərarlar və senzura ilə daxil olur. Yəni, süni intellekt vasitəsi ilə həm də mədəni ekspansiya həyata keçirilir, "hansı cəmiyyət modeli doğrudur" sualının cavabı ixrac olunur.

Süni intellektdə öndə olan ölkə təkcə texnologiya ixrac etmir, həm də beyin ixracı və idxalı ilə məşğul olur. Dünyanın ən yaxşı "beyinləri" bu gün OpenAI, Google Brain, DeepMind kimi mərkəzlərdə cəmləşib. Ölkələr başa düşür ki, kim bu cür "elmi maqnitə" çevrilirsə, sabahın elmi-siyasi xəritəsini o cızacaq.

**– Süni intellekt sahəsində liderliyə iddialı olan ölkələr bunun üçün hansı məsələləri prioritet kimi qəbul edirlər?**

– Hər hansı bir ölkə süni intellekt sahəsində qlobal lider olmaq iddiasını ortaya qoyursa, bunu yalnız hansısa texnologiya, robot düzəltməklə həll edə bilməz. Bu iş böyük bir strateji plan, siyasi iradə və texnoloji ekosistem tələb edir.

Süni intellekt sahəsində liderliyə iddialı olan ölkələr əvvəlcə özlərinə bu sualı verməlidirlər ki, texnologiyanı kim yaradacaq? Cavab sadədir: texnologiyanı ağıllı və texnoloji biliklərə malik olan insanlar yaratmalıdırlar. Ona görə də ilk addım yüksək səviyyəli təhsil sistemini qurmaqdır. ABŞ, Çin, Almaniya, Yaponiya kimi ölkələr artıq ibtidai təhsil səviyyəsindən alqoritmik təfəkkürü uşaqlara öyrətməyə başlayırlar. Universitetlərdə süni intellekt üzrə ayrıca fakültələr açılır, magistr və doktorantura proqramları genişləndirilir. Harvard, Tsinghua, ETH Zurich kimi mərkəzlər yalnız öz ölkələrinin deyil, bütün dünyanın ən istedadlı gənclərini özlərinə cəlb edirlər.

Liderlik ideyası və iddiası təqdirəlayiqdir, amma onu həyata keçirmək üçün pul və resurs lazımdır. Süni intellekt sahəsində liderliyə can atan ölkələr təkcə dövlət büdcəsindən deyil, həm də özəl sektordan bu istiqamətə külli miqdarda vəsait yönəldirlər. Məsələn, Çin süni intellektə hər il 50 milyard dollardan çox sərmayə ayırır. Avropa İttifaqı "Rəqəmsal Avropa" proqramı çərçivəsində yüz milyardlarla avro sərmayə qoyur. Bu vəsaitlər yalnız texnoloji inkişaf üçün deyil, həm də süni intellektlə bağlı sosial, etik məsələləri həll etmək, tətbiq sahələrinin genişləndirilməsi üçün nəzərdə tutulur. Özəl sektor, xüsusilə Google, Amazon, Microsoft kimi texnoloji nəhənglər də bu yarışın önündədir. Onlar həm tədqiqat mərkəzləri açır, həm də süni intellekt startaplarına investisiya yatırırlar.

Süni intellekt sadəcə proqramlaşdırma deyil, bu texnologiyanın "qidalanması" üçün güclü texnoloji baza – superkompüterlər, məlumat mərkəzləri və sürətli şəbəkələr lazımdır. İddialı ölkələr bu infrastrukturun qurulmasına milyardlarla vəsait ayırırlar. Məsələn, Fransa 2030-cu ilə qədər qitənin ən güclü süni intellekt superkompüterlərindən birini qurmağı planlaşdırır. ABŞ-ın NVIDIA, Meta, Google kimi şirkətləri artıq o qədər güclü maşınlara sahibdir ki, bir model yüz minlərlə əməliyyatı eyni anda icra edə bilir. Süni intellekt böyük verilənlərlə "qidalanır". Buna görə də data mərkəzləri və bulud texnologiyaları bu prosesdə ön plana çıxır.

Süni intellekt yalnız elmi laboratoriyalarda yox, bazarın özündə, real tətbiqlərdə dəyər qazanır. Bu baxımdan startaplar – yəni yeni, çevik texnoloji ideyalarla çıxış edən gənc şirkətlər çox önəmlidir. ABŞ bu sahədə ən qabaqcıllardan biridir: Silikon Vadisi, Boston Texnoloji Zonası və digər mərkəzlər gənc tədqiqatçılar üçün sərmayə, mentorluq və beynəlxalq əlaqələr təklif edir. Çin süni intellekt startaplarının sürətli böyüməsi üçün xüsusi innovasiya zonaları yaradıb. Bu prosesdə dövlət, sadəcə, müşahidəçi deyil, həm tənzimləyici, həm də təşviqedici tərəf kimi çıxış edir. Əgər ideya real məhsula çevrilirsə, həm iqtisadi dəyər yaranır, həm də texnoloji reputasiya. Ən maraqlısı odur ki, startaplar təkcə texnoloji deyil, həm də etik, sosial, ekoloji problemlərə yenilikçi həll yolları axtarır.

Bu gün süni intellekt qlobal bir oyun meydanıdır. Lider olmaq istəyən ölkələr yalnız texnologiya yaratmaqla kifayətlənmirlər, onlar həm də bu texnologiyanın qaydalarını yazmaq istəyirlər. Məsələn, Avropa İttifaqı "etik süni intellekt" sahəsində qlobal standartlar formalaşdırmaq üçün BMT və UNESCO çərçivəsində təşəbbüslər irəli sürür. ABŞ daha çox "açıq texnologiyalar" prinsipini dəstəkləyir və bu xətt üzrə digər ölkələrlə ittifaqlar qurur. Çin isə öz texnologiyasını "İpək yolu" ölkələrinə yaymaqla həm siyasi, həm də texnoloji nüfuzunu artırmaq istəyir. Süni intellekt həm də artıq təhlükəli bir silah kimi görünür – kibertəhlükəsizlik, dezinformasiya, seçkilərə təsir kimi risklər dövlətləri hərəkətə gətirir. Bu səbəbdən normativ çərçivə yaratmaq, beynəlxalq əməkdaşlıqda fəal olmaq, bu sahənin qaydalarını yaratmaqda söz sahibi olmaq liderlik iddiasının ayrılmaz tərkib hissəsidir.

**– Süni intellekt sahəsində liderlik uğrunda rəqabət ölkələr arasında siyasi, iqtisadi, texnoloji, hərbi qarşıdurmalara gətirib çıxara bilərmi?**

– Əlbəttə, bu gün süni intellekt artıq təkcə texnologiya kimi deyil, həm də dünyanın yeni "geosiyasi valyutası" kimi qiymətləndirilir. Ölkələrin gücü artıq yalnız neftlə, qızılla, nüvə silahı ilə ölçülmür – məlumat bazası, hesablama gücü və alqoritmik üstünlük bu gün geosiyasi nizamın yenidən qurulmasında əsas rol oynayır. Bu yarış birbaşa olaraq qarşıdurmalara, həm açıq, həm də dolayı münaqişələrə yol açır. Artıq XXI əsrin böyük savaşları təkcə tanklarla, raketlərlə aparılmayacaq. Onlar həm də server otaqlarında, data mərkəzlərində həyata keçiriləcək. Yəni bu müharibələrin əsas silahları güllələr və bombalar deyil, alqoritmlər və çiplər olacaq.



Texnoloji qarşıdurma artıq ABŞ və Çin arasında açıq şəkildə özünü büruzə verməkdədir. 2022-ci ildən etibarən həmin ölkələr bu sahədə açıq mübarizəyə başlayıblar. ABŞ hökuməti NVIDIA və AMD kimi texnoloji nəhənglərə yüksək göstəricilərə malik süni intellekt çiplərini Çinə satmağı qadağan etdi. Hətta ABŞ-ın müttəfiqləri olan Tayvan, Hollandiya, Cənubi Koreya və Yaponiya da bu embarqoya qoşuldu. Bunu texnologiya üzərində qlobal səviyyəli bir "koalisiya blokadası" adlandırmaq olar. Bu, açıq şəkildə süni intellekt yarışında Çinin önə çıxmasının qarşısını almağa yönəlmiş addım idi.

Çin isə bu addıma cavab olaraq "Texnoloji müstəqillik proqramı"nı reallaşdırmağa başladı, öz çip sənayesinə milyardlarla investisiya yatırdı. Bu ölkənin Huawei şirkəti yeni Ascend çiplərinin istehsalına start verdi. Bu texnoloji qarşıdurma artıq siyasi və hərbi güc balansını dəyişdirmək üçün gedən strateji döyüşdür.

Bu ölkələr arasında daha bir qarşıdurma Çinə məxsus TikTok sosial şəbəkəsi ilə bağlıdır. Bildiyiniz kimi, TikTok, sadəcə, bir əyləncə proqramı deyil. Onun arxasında güclü alqoritmlər və "məlumat hasilatı fabriki" dayanır. TikTok-da süni intellekt alqoritmləri vasitəsilə insanların davranışlarını izləmək, yönləndirmək, hətta ictimai fikri manipulyasiya etmək mümkündür. Bu isə informasiya müharibəsi üçün güclü bir vasitə hesab olunur. ABŞ TikTok-u "milli təhlükə" elan edərək ya satılması, ya da ölkədən çıxarılması tələbini irəli sürdü. Buna bənzər məhdudiyyətlər Vaşinqtonun müttəfiqləri olan Hindistan, Kanada və Böyük Britaniyada da tətbiq olundu.

Hazırda davam edən Rusiya – Ukrayna müharibəsi də, eyni zamanda, ölkələrarası texnoloji qarşıdurmanın bir nümunəsidir. Bu müharibə süni intellektin müasir döyüşlərdə necə real silaha çevrildiyini göstərdi. Palantir Technologies adlı ABŞ şirkəti Ukraynaya süni intellektlə işləyən döyüş planlaşdırma sistemləri təqdim etdi. Bu sistemlər Rusiya hərbi qüvvələrinin hərəkətini analiz edir, hədəf seçimləri təklif edir, artilleriyanın idarə olunmasına dəstək verir. Rusiya isə informasiya müharibəsində süni intellektlə yaradılan dezinformasiya və "deepfake" texnologiyalarından istifadə edir, qarşı tərəfə kiberhücumlar təşkil edir.

**– Süni intellekt sahəsində beynəlxalq hüquqi tənzimləmələrin mövcud vəziyyəti necədir? Müvafiq tənzimləmə sahəsində əsas hansı məsələlərə daha çox diqqət yetirilir?**

– Süni intellekt texnologiyalarının sürətlə inkişafı beynəlxalq hüquqi müstəvidə yeni və mürəkkəb çağırışlar yaradır. Bu gün dünyada süni intellekti tənzimləməyə yönəlmiş tam və universal bir hüquqi sistem yoxdur. Əksinə, hər bir ölkə bu sahədə öz milli prioritetlərinə və təhlükəsizlik baxışlarına uyğun fərqli strategiyalar tətbiq edir.

Avropa İttifaqı məsələyə sistemli və ehtiyatlı yanaşan regionlardan biridir. 2021-ci ildə təqdim edilən "Süni intellekt" Qanunu çərçivəsində risk əsaslı yanaşma tətbiq olunaraq, texnologiyalar "qadağan edilmiş", "yüksək riskli", "məhdud riskli" və "minimum riskli" kateqoriyalara bölünür. Bu modelin əsas məqsədi insan hüquqları, şəffaflıq və təhlükəsizlik kimi prinsiplərin qorunmasıdır.

ABŞ isə daha çox bazar yönümlü və innovasiyaları təşviq edən yanaşmanı üstün tutur. Sərt normativ çərçivələrdən qaçmağa çalışır, əvəzində etik prinsiplər və özünütənzimləmə modellərinə üstünlük verir. Bu isə texnologiyanın daha sürətli kommersiyalaşmasına şərait yaradır, lakin hüquqi boşluqlar və məsuliyyət məsələlərində problemlər doğurur.

Çin isə süni intellekti həm iqtisadi inkişaf, həm də dövlət nəzarətinin bir aləti kimi istifadə edir. Ölkə daxilində ciddi nəzarət mexanizmləri mövcuddur, eyni zamanda, texnologiyanın hərbi və strateji sahələrdə geniş tətbiqi ilə bağlı təcrübəsi var. Bu da beynəlxalq ictimaiyyətdə narahatlıq yaradan məqamlardan biridir.



Bütün fikir ayrılıqlarına baxmayaraq, süni intellektin hüquqi tənzimlənməsi sahəsində ümidverici addımlar da atılır. BMT, UNESCO, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı kimi nüfuzlu beynəlxalq qurumlar artıq bu məsələdə qlobal dialoq yaratmağa başlamışdır. Məsələn, UNESCO-nun qəbul etdiyi "Süni İntellekt Etikası üzrə Tövsiyələr" adlı sənəd ilk dəfədir ki, 190-dan çox ölkənin razılığı ilə qəbul olunmuş normativ çərçivəni təklif edir. Bu, böyük bir razılaşma üçün başlanğıc nöqtəsi sayıla bilər.

Eyni zamanda, texnologiya nəhəngləri – Google, Microsoft, OpenAI, Meta və digərləri də öz etik kodekslərini təqdim edərək cəmiyyətin narahatlıqlarına daha məsuliyyətlə yanaşmağa çalışırlar. Sənaye daxilində məsuliyyətli və şəffaf texnologiya inkişafı ilə bağlı özünütənzimləmə təşəbbüsləri də artmaqdadır.

Daha bir vacib məqam ondan ibarətdir ki, bu sahədə qlobal ictimaiyyətin fəallığı artır. Artıq yalnız hüquqşünaslar və texnoloqlar deyil, digər peşə sahiblkəri, vətəndaş cəmiyyəti nümayəndələri də bu prosesdə fəallıq göstərməyə çalışırlar. Bu isə gələcəkdə süni intellektin təkcə iqtisadi və texnoloji deyil, həm də humanist dəyərlərə söykənərək inkişaf etdirilməsi üçün inam yaradır.

***Müsahibəni aldı:***
***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Tacikistanda Azərbaycan Mədəniyyəti günləri





**Azərbaycan Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 19-22 may tarixlərində Tacikistanda Azərbaycan Mədəniyyəti Günləri keçirilir. Bununla əlaqədar mədəniyyət naziri Adil Kərimlinin rəhbərlik etdiyi geniş nümayəndə heyəti Düşənbədə səfərdədir.**

Tacikistan Milli Kitabxanasında mədəniyyət naziri Adil Kərimli ilə tacik həmkarı xanım Matlubaxon Sattoriyen arasında ikitərəfli görüş keçirilib. Əvvəlcə nazirlər Tacikistan Milli Kitabxanası ilə tanış olublar. Kitabxananın tarixi və nadir əlyazmaların qorunduğu fond haqqında ətraflı məlumat verilib. İkitərəfli görüşdə çıxış edən Tacikistanın mədəniyyət naziri Azərbaycan Mədəniyyəti Günlərini xalqlarımızı daha da yaxınlaşdıran mədəni hadisə kimi səciyyələndirib. Xanım nazir ötən ilin mayında Azərbaycanda keçirilən Tacikistan Mədəniyyəti Günlərinin yüksək səviyyədə gerçəkləşməsinə göstərilmiş dəstəyə, keçirilən səmərəli görüşlərə görə təşəkkürünü bildirib.

Adil Kərimli Azərbaycan nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə Tacikistan tərəfinə təşəkkürünü bildirib. Qeyd olunub ki, iki ölkənin dövlət başçılarının səmimi dostluq münasibətləri Azərbaycan və Tacikistan arasında əlaqələrin hərtərəfli inkişafında müstəsna əhəmiyyətə malikdir. Prezidentlər İlham Əliyev və Emoməli Rəhmon tərəfindən 2024-cü ilin mayın 23-də Bakıda "Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə" imzalanması dost ölkələrimizin əməkdaşlığının zirvəyə yüksəlməsinin göstəricisidir. Adil Kərimli iki ölkə arasında mədəniyyət sahəsi üzrə əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğunu deyib. Vurğulanıb ki, Azərbaycan tərəfi kinematoqrafiya, kitabxana, mədəni irs və digər sahələrdə əməkdaşlığın inkişafına maraqlıdır.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*

**Bəxtiyar Vahabzadə – 100**

# Şəkidə istiqlal şairinin yubiley təntənəsi



**Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova Azərbaycanın Xalq şairi Bəxtiyar Vahabzadənin Şəki şəhərində yerləşən ev- muzeyini ziyarət edib.**

Qeyd edək ki, bu səfər Prezident İlham Əliyevin Xalq şairinin 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncamına uyğun olaraq AMEA və Mahmud Kaşğari adına Beynəlxalq Fondun əməkdaşlığı çərçivəsində təşkil olunub və bir sıra silsilə tədbirlər həyata keçirilib.

Muzeyə baxışdan öncə ziyarətçilər Bəxtiyar Vahabzadənin abidəsinin önünə gül dəstələri düzüb və xatirəsini ehtiramla yad ediblər. Ziyarət zamanı qonaqlar şairin şəxsi əşyalarının, yaradıcılığına dair əlyazmaların və onun zəngin irsini əks etdirən eksponatların nümayiş olunduğu muzey ekspozisiyası ilə maraqla tanış olublar.

Ertəsi gün Heydər Əliyev Mərkəzində yubiley konfransı keçirilib. Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova qurumun Türk dünyasının mədəni irsinin qorunması və təbliği istiqamətində həyata keçirdiyi tədbirlərdən bəhs edərək yubiley sərəncamına müvafiq olaraq fond tərəfindən nəşr edilən B.Vahabzadənin "Özümüzü kəsən qılınc" əsərini böyük ədəbi və mənəvi hadisə kimi qiymətləndirib, şairin yaradıcılığını türk ruhunun canlı səsi adlandırıb.

Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik İsa Həbibbəyli, Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov, Milli Məclisin komitə sədrləri Səməd Seyidov və Musa Quliyev, deputat, Mahmud Kaşğari adına Beynəlxalq Fondun prezidenti Cavanşir Feyziyev, AMEA Dilçilik İnstitutunun direktoru Nadir Məmmədli, TÜRKPA-nın baş katibi Mehmet Sürəyya Ər, TÜRKSOY-un baş katibi Sultan Rayev, Türkiyə, Qazaxıstan və Qırğızıstanın Azərbaycandakı səfirləri Birol Akgün, Alim Bayel və Maksat Mamıtkanov çıxışlarında Bəxtiyar Vahabzadənin yaradıcılığından geniş söz açıblar.

Sonda Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən Heydər Əliyev Mərkəzinə Bəxtiyar Vahabzadənin fond tərəfindən nəşr edilən "Özümüzü kəsən qılınc" əsərinin nüsxələri hədiyyə edilib.

*Ə.ƏLİYEV*
*XQ*

**22 May Beynəlxalq Biomüxtəliflik Günüdür**

# Xəzər nərəsinin 300 milyon il yaşı var

## *Bu tarix dinozavr dövrünü geridə qoyur*

**Azərbaycan Prezidentinin 2020-ci il martın 27-də imzaladığı Fərmanla təsdiqlənmiş Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti yaranandan sonra bu istiqamətli fəaliyyətimiz daha da intensivləşmiş və təkmilləşdirilmişdir. Ancaq həmin tarixədək də həm ulu öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev bu məsələni daim diqqət mərkəzində saxlamışlar. Belə ki, Prezident İlham Əliyev 2016-cı il oktyabrın 3-də "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair Milli Strategiya"nı təsdiq etmişdir.**

Xatırladaq ki, ölkəmiz bu istiqamətli beynəlxalq konvensiyaya 25 il əvvəl – ümummilli lider Heydər Əliyevin imzası ilə qoşulmuşdur. Son illərdə isə bioloji müxtəlifliyin problemləri önə çəkilərək bu sahədə xeyli iş görülmüşdür. Belə ki, Ətraf mühitin mühafizəsi üzrə Milli Fəaliyyət Planı, "Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair" Milli Proqram və digər dövlət proqramları qəbul edilərək həyata keçirilir. Bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsi ən mühüm qlobal problem olduğundan onun həlli, Azərbaycan da daxil olmaqla, dünya birliyi ölkələrinin birgə fəal səyi nəticəsində mümkündür.

Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin elektron saytında oxuduğumuz çoxsaylı materiallardan biri də "Azərbaycan Respublikasının "Qırmızı kitabı" bölməsində verilmiş məlumatlardır. Orada qeyd edilir ki, fauna və flora növlərinin mühafizə olunmasının effektiv üsullarından biri "Qırmızı kitab"ın təsis edilməsidir. Xatırladaq ki, hələ 1977-ci ildə ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycanın flora və faunasının genofondunun mühafizəsi üçün Azərbaycan Respublikası "Qırmızı kitab"ının təsis edilməsinə dair qərar qəbul edilmişdir.

Həmin təşəbbüsün davamı olaraq, bu gün mövcud qanunvericiliyə əsasən, ölkə ərazisində təbii şəraitdə yaşayan, nadir və nəsli kəsilməkdə olan heyvan və bitki növləri xüsusi mühafizə edilir. Azərbaycan Respublikasının "Qırmızı kitab"ı rəsmi sənəd olmaq etibarilə, ölkəmizin bütün ərazisində, o cümlədən Xəzər dənizinin bizə mənsub olan bölməsində heyvan və bitki növlərinin vəziyyəti, yayılması və mühafizəsi tədbirləri haqqında məlumatları özündə əks etdirir.

Bildirilir ki, Azərbaycan Respublikasının "Qırmızı kitab"ı "Heyvanlar aləmi haqqında" və "Ətraf mühitin mühafizəsi haqqında" qanunlara əsasən tərtib edilir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 iyul 2000-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının "Qırmızı kitabı" haqqında Əsasnamə"yə uyğun olaraq, bu kitab nəşrləri Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Azərbaycan Milli Elmlər Akademiyası ilə əlaqəli surətdə təşkil edilir və maliyyələşdirilməsi dövlət büdcəsi hesabına həyata keçirilməklə hər 10 ildən bir yenidən nəşr olunur.

Əlavə edək ki, respublikamızın "Qırmızı kitabı"nın birinci nəşri dövlət müstəqilliyimizin bərpasından üç il əvvəl, ikinci nəşri 2013-cü ildə ( flora və faunanın hərəsi ayrıca bir cilddə) , üçüncü nəşri isə 2023-cü ildə olmuşdur. Son nəşrdə əvvəlki 2 nəşrdən fərqli olaraq, növlərin beynəlxalq kateqoriyaya uyğun qiymətləndirilməsi işləri Beynəlxalq Təbiəti Mühafizə İttifaqının yeni təlimatı əsasında aparılmışdır. Xidmətin məlumatlarında bildirilir ki, "Qırmızı kitabı"ın sonuncu nəşri ilə bağlı işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında elmi-tədqiqat işləri aparılmış, Ermənistan tərəfindən 30 il müddətində işğal altında saxlanılmış və ekoloji terrora məruz qalmış ərazilərdə monitorinqlər keçirilmiş, nadir və nəsli kəsilmək təhlükəsində olan növlər müəyyənləşdirilərək son nəşrə daxil edilmişdir.

Daha təkmil şəkildə hazırlanmış son nəşrdə nadir, nəsli kəsilmək təhlükəsi altında olan 241 fauna (152 onurğalı, 89 onurğasız) və 460 flora (383 ali, 15 ali sporlu, 6 mamır, 14 şibyə, 5 yosun, 37 göbələk növləri) öz əksini tapmışdır. Həmçinin ilk dəfə tərtib olunan çəhrayı siyahıya 49-u ali, 2-si ibtidai olmaqla 51 bitki növü daxil edilmişdir. Təbii ki, bu axtarışlar, dəqiqləşdirmələr müvafiq beynəlxalq konvensiyanın əsas prinsiplərinin icrası istiqamətində atılan uğurlu addımlardandır.

Konvensiyanın təməl prinsiplərinə uyğun olaraq ötən dövr ərzində respublika ərazisində bioloji müxtəlifliyin qorunması ilə bağlı xüsusi mühafizə olunan təbiət ərazilərinin mövcud şəbəkəsi genişləndirilmiş, yeni milli parklar, dövlət təbiət qoruqları yaradılmış, xüsusi mühafizə olunan təbiət ərazilərində mühafizə rejiminin gücləndirilməsi, bu sahədə hüquqi bazanın möhkəmləndirilməsi və mövcud qanunvericiliyin beynəlxalq hüquq normalarına uyğunlaşdırılması istiqamətində müvafiq tədbirlər görülmüşdür.

Mayın 22-si Beynəlxalq Biomüxtəliflik Günüdür. Əvvəllər həmin gün dekabrın 29-da qeyd olunurdu. Lakin 2000-ci il dekabrın 20-də BMT-nin Baş Assambleyası tərəfindən 22 may Bioloji müxtəliflik üzrə Konvensiyası qəbul olunub və həmin gün Beynəlxalq Bioloji Müxtəliflik Günü elan edilib. Bu günün qeyd edilməsində əsas məqsəd dünyanın diqqətini təbii və antropogen faktorların təsirinə məruz qalan biomüxtəlifliyin qorunmasına yönəltməkdir.

Məlum olduğu kimi, Azərbaycan florа növlərinin ümumi sayına görə Cənubi Qafqazın ən zəngin ölkəsidir. Burada rast gəlinən bitki növləri Cənubi Qafqazda bitən bitki növlərinin ümumi miqdarının 66 faizini təşkil edir. Respublikamız üçüncü dövrə aid olan relikt (qədim bitkilər) növlərlə də zəngindir ki, bunların nümayəndələrinə bütün zonalarda, xüsusilə Talış zonasında daha çox rast gəlinir. Dəmirağac, Lənkəran akasiyası, şabalıdyarpaq palıd, bigəvər, şümşəd və s. misal göstərmək olar. Eləcə də, ölkəmizdə 240 endemik, yəni dünyanın başqa yerlərində rast gəlinməyən bitki növü mövcuddur ki, bu isə ümumi floranın 6 faizini təşkil edir.

Ölkəmizin heyvanlar aləminin zənginliyi barədə ilk məlumata Şərq səyyahlarının səfər qeydlərində rast gəlmək olar. Heyvanat aləminin Azərbaycanda yayılmasına relyef şəraiti və ona uyğun olan bitki örtüyünün dəyişməsi, su hövzələrinin yerləşməsi təsir edir. Burada mindən çox ali heyvan növü yaşayır. Onların 618 növünü onurğalı heyvanlar, o cümlədən 97 növünü məməlilər təşkil edir. Ölkədə qeydə alınan heyvanların 58 növü sürünənlərdən, 11 növü suda-quruda yaşayanlardan, 357 növü quşlardan, qalanı onurğasız heyvanlardan ibarətdir. Həşəratların isə ölkədə 12 min növü yayılıb.

Qeyd olunur ki, Xəzərin ən qiymətli varlığı – planetimizin relikt, yəni ən qədim canlılarından olan və təkamülü 300 milyon il təşkil edən nərə balıqlarıdır. Onların yaşı 65 milyon il əvvəl yaşayan dinozavrlardan da qədimdir. Xəzər dənizində nərələrin mövcud dünya ehtiyatının 80 faizi cəmləşib. Dənizin hövzəsində, çaylar daxil olmaqla, cəmi 153 balıq növü var ki, bunların 81 növü endemikdir, yəni planetin heç bir yerində yoxdur və yalnız Xəzər dənizində yaşayır. Xəzərin Azərbaycan sektorunda 90-a qədər balıq növü var. Xəzər dənizində relikt və endemik olan 6 növ nərə cinsli balıq yaşayır: Onlar bölgə, rus nərəsi, Kür nərəsi, kələmo, uzunburun və çökə balıqlarıdır.



Təəssüf ki, otuz ilə qədər düşmən tapdağında qalmış ərazilərimizin flora və faunasına çox böyük ziyan vurulmuşdur. Dövlətimiz, mətbuatımız və ölkə ictimaiyyəti həmin faktların dünya ictimaiyyətinə çatdırılması istiqamətində lazım olan bütün addımları atır. Ən mühüm addımlardan biri isə işğaldan azad olunmuş torpaqlarımızda xüsusi mühafizə olunan 6 təbiət ərazisinin yaradılmasıdır. Onlardan ikisi dövlət təbiət qoruğudur – Bəsitçay və Qaragöl qoruqları, dördü isə yasaqlıqdır – Daşaltı, Laçın, Qubadlı, Arazboyu. 30 il yaxın müddətdə həmin qoruq və yasaqlıqlar talan olunub, onların əksər hissəsi məhv edilib. İşğaldan azad olunmuş torpaqlarımızda yerləşən xüsusi mühafizə olunan təbiət ərazilərinə dəymiş ziyanın hesablanması məqsədilə monitorinqlər aparılır. Həmçinin həmin ərazilərdəki qoruqlar, yasaqlıqlar yenidən qurulacaq, bərpa olunacaq.

... Sonda. Qızmar yay aylarından birində Qəbələyə gedirdik. Bakı – Şamaxı yolunun 25–30 kilometrliyindən sonra – Günəşin qovurğaya döndərdiyi yarımsəhra ərazilərdəki göz yoran, sap-sarı çöllər fonunda, az qala, möcüzəyə bənzər yaşıl mənzərələr yolun hər iki tərəfi boyunca uzanıb gedirdi. 40–45 il gedib-gəldiyimiz bu yolun kənarlarında şahidi olduğumuz yaşıllıq zolaqları, sözün həqiqi mənasında, göz oxşayırdı. Mənim həmin yaşıllıqlara təkcə heyranlığa deyil, həm də böyük sevinclə nəzər saldığımı sezən sürücümüz Teymur dilləndi: "Neft pullarıdır, müəllim. Səhranı yaşıllığa çevirib. Bəzi ağzıgöyçəklər boşboğazlıq edəndə mən ölkənin hər yerində şahidi olduğum bu mənzərələri yada salıram. Qızım Böyük Şor deyilən əraziyə yaxın yerdə yaşayır. O tərəflərdə nə qədər yaşıllıqlar salınıb, xəbəriniz varmı? Nəvəmi Naxçıvana – Əshabi - Kəhf ziyarətinə aparmışdıq. Naxçıvandan həmin ziyarətgaha qədər gedən yolun kənarları cənnətə döndərilib. 15–20 il əvvəl isə o yerlər Ərəbistan səhrası kimi idi. Gəncədə – Gəncə çayının sahili boyu salınan, uzunluğu bilinməyən yaşıl parkı görmüsünüzmü?"

Sürücünün ölkənin hər yerindən xəbər verməsi o qədər təqdirəlayiq idi ki, mən də həmin məsələ barədə bildiklərimi xatırlatmalı oldum:

– Mən ötən əsrin yetmişinci illərinin əvvəllərində rayondan Bakıya köçəndə Bayılda yaşamış və Bibiheybət neft mədənlərində çalışmışdım. Yəni həmin ərazilərin o dövrki mənzərələrini tam təfsilatı ilə xatırlayanlardan biri də mənəm. İndi o yerlərdə Yeni bulvar deyilən böyük bir istirahət mərkəzi salınıb, Su İdmanı Kompleksi açılıb, Daş Salnamə muzeyi yaradılıb, Bakı Ali Neft Məktəbi üçün ən müasir kampus – təlim-tədris, yaşayış, istirahət və idman kompleksi tikilib, SOCAR-ın ekoloji parkındakı yüz minlərlə ağacın yaratdığı ab-hava görənləri heyran edir, ərazidəki "Jurnalistlər şəhərciyi"nin binalarının sayı artır. Ən başlıcası, Böyük İpək Yolunun paytaxta giriş-çıxış hissəsi bilavasitə Maksim Qorkinin cəhənnəmə bənzətdiyi həmin mazutlu, palçıqlı, bataqlıq ərazilərdən keçir. Yəni Azərbaycan dövləti ətraf mühitin sağlamlaşdırılması istiqamətində elə addımlar atır ki, təkcə qonaqlarımız yox, elə özümüz də heyran oluruq.

*İttifaq MİRZƏBƏYLİ*

Rəqəmsallaşmaya yaşıl işıq

# Babaların əmanətini əsrin saxlancında qoruyaq

**Artıq UNESCO səviyyəsində bəşəriyyətin qiymətli mədəni irsini təşkil edən Azərbaycanda aşıq sənəti özünün tarixi kökləri və milli ruh aşılaması ilə öyünə bilər. Dövlət səviyyəsində qayğı göstərilən sahələrdən biri də məhz ozan-aşıq sənətidir.**



Kollektiv mahiyyətli el yaradıcılığı, xalq istedadı hər zaman sevilib. Qopuz çalıb, dastan bağlayan, söz qoşub, mahnı oxuyan, ürəkləri, zehinləri işıqlandıran ozanlıq özünün yetkin mərhələsinə Dədə Qorqudun timsalında çatıb. “Qolça qopuz götürüb, eldən-elə, bəydən-bəyə ozan gəzər, ər comərdin, ər nakəsin ozan bilir, elinizdə çalıbaydan ozan olsun, azıb gələn qazayı Tanrı sovsun...”

Məna etibarı ilə “ozan-aşıq-aşiq” kəlmələri eşq yolçusu, ilahi eşqə tapınan kimi ehtiva olunur. Ulu Göyçə, Borçalı, Gəncəbasar, Şirvan elləri Azərbaycan aşıq sənətinin mərkəzləri kimi tanınır. Bu mahalların aşıqları hər zaman ürəkləri nurlandıran çıraq olublar. Təsadüfi deyil ki, anadan olmasının 140 illiyini qeyd etdiyimiz dahi bəstəkarımız Üzeyir Hacıbəyli “Aşıq sənəti” məqaləsində yazırdı: “Aşıq xalqın ən sevimli nəğməkarıdır. Aşıq sənəti... xalqa, kütlələrə daha yaxındır, xalqın həyəcan və arzularını, xalq musiqisinin başqa növlərinə nisbətən daha parlaq əks etdirir; aşıq ictimai mövqeyinə görə kəndliyə, zəhmətkeş xalqa yaxındır... Aşıq sənəti xalqın öz yaradıcılığıdır”. 150 illiyi yaxınlaşan ilk anadilli qəzetimiz “Əkinçi”nin yaradıcısı, böyük maarifçi Həsən bəy Zərdabi isə “Bizim nəğmələrimiz” məqaləsində azərbaycançılıq ruhunun aşılanmasında aşıq sənətini belə səciyyələndirib: “Bizim Qafqaz müsəlmanlarına heç bir yazı və dil ilə deyilən söz o qədər əsər etməz, necə ki, şeir ilə deyilən söz. Ələlxüsus, nəğmələr ilə ki, xoş sövq ilə oxunur... Aşıqlar toylarda oxuyanda, onlara qulaq asanlara baxın. Bu zaman qulaq asanlar elə hala gəlirlər ki, bəistilahi-türk, ətin kəssən də, xəbəri olmaz. Elə ki, sonra toy qurtardı, aşıqlar evlərinə getdi, 5–10 gün uşaqlar gecə-gündüz oxuya-oxuya gəzirlər və bir-birinin qələtlərini düzəldirlər”.

Folklorşünas alimlərimiz də aşıqları təkcə qoşma, gəraylı oxuyan, dastan söyləyən sənətkarlar kimi deyil, həm də müdrik və zəkalı ustad, “el anası” kimi dəyərləndiriblər. Radiomuzun, televiziyamızın fondlarında aşıq musiqisinə dair çoxsaylı nümunələr saxlanır. Amma zaman keçdikcə bunların qorunması müşkülə çevrilir. Lentlər quruyub xarab olur, keyfiyyətini itirir. Bu isə həmin sərvətin itirilməsi ilə bağlı əndişələr yaratmaya bilməz.

Bu da var ki, gənc həvəskarlar arasında aşıqlığın aşiqləri çox olsa da, bu sənətin tədrisi pərakəndə aparılır, ustad dərsləri daha çox fərdi qaydada, klub dərnəklərində olur. Odur ki, yazıya köçürülmüş dastanların, havacatların, mahnıların əyani vasitə kimi uzunmüddətli, ciddi şəkildə mühafizəsi zərurəti ortaya çıxır. Bu sahənin qənimət örnəkləri də tezliklə rəqəmsallaşdırılmalı, etibarlı mirasa çevrilməlidir. Yoxsa, ustadların ifasında yazılmış “Koroğlu”, Əsli və Kərəm”, “Şah İsmayıl”, “Aşıq Qərib”, Abbas və Gülgəz”, “Rüstəm və Söhrab” kimi monumental abidələr, ruh oxşayan qədim havalar bir də hardan ələ düşər? Çalışmalıyıq ki, ustadnamələrlə başlayan, duvaqqapmalarla sona yetən bu milli-mədəni irs nümunələrini də axırda əliçıraqlı axtarmayaq. Elə edək ki, sonda deməyək:



**Alp Ər Tunqa öldümü?**
**Yaman dünya qaldımı?**
**Fələk öcün aldımı?**
**İndi ürək dağlanır...**

Bu sahədə son illərdə görülən işlər də yox deyil. Heydər Əliyev Fondunun nəşr etdiyi “Qarabağ xanəndələri”, “Muğam ensiklopediyası” – “Azərbaycan xanəndələri”, “Azərbaycan muğamı” kimi CD və DVD disklərdən ibarət albomlar əlamətdardır. Həmçinin, “Azərbaycan diskoqrafiyası” (1900–1940-cı illər), “Muğam ensiklopediyası” kimi internet saytlarının varlığı diqqətəlayiqdir. Hələ 2017-ci ildən Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Folklor İnstitutunun “İrs” folklor ansamblının, xalq musiqisi ilə bağlı digər diskləri toplu halında buraxılıb, muğamlar, aşıq havaları, şikəstələr, xalq mahnılarının ömrünə ömür calanıb. Onlayn-kataloqlar, kiberməkanda multimediya platformaları, hiperyönəltmələr “ümumdünya şəbəkəsinin yaddaşında” həkk olunur və şübhəsiz ki, Azərbaycan musiqisinin dünyada tanınmasında mühüm rol oynayır.

**Azərbaycan Aşıqlar Birliyinini sədri, AMEA Ədəbiyyat İnstitutunun şöbə müdiri, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, filologiya elmləri doktoru Məhərrəm Qasımlının bu barədə dedikləri:**

– Rəqəmsallaşma çox vacib məsələdir. Biz öz gücümüzlə son zamanların mətnlərini bu yöndə müəyyən qədər gerçəkləşdirmişik. Deyərdim ki, bir qədər də gecikmiş məsələdir. Sürətlə bunu ortaya gətirmək lazımdır. Çünki dünya bu sistemin üzərinə gedir və aşıq havalarının, aşıq sənəti ilə bağlı görüntülü və audio mətnlərin bu şəklə gətirilməsi günün tələbidir. Düşünürəm ki, ortaya dövlət səviyyəsində bir layihə qoyulmalıdır. Həmin layihə Mədəniyyət Nazirliyinin, AzTV-nin, Azərbaycan Dövlət Arxivinin və digər əlaqəli qurumların xətti ilə də ola bilər. Layihə üzrə işçi qrupunun tərkibində işi səmərəli icra etmək üçün musiqişünaslardan, folklorşünaslardan, jurnalistlərdən ibarət heyət olmalıdır. Bu, müəyyən vaxt tələb edir. 1 il–3 il vaxt lazımdır. 20-ci illərdən bəri mətnləri yığıb sistemləşdirmək gərəkdir. Bu zaman daha əvvəlki dönəmlər də axtarılmalıdır. Hətta bu məsələlərin bir hissəsi Moskvaya, Sankt-Peterburqa da gedib çıxa bilər. Bu mənada genişmiqyaslı iş getməlidir.

Sonda bir daha deyək ki, yaradan əllərin, dillərin, avazların yaddaşını çağdaş rəqəmsallaşma yolu ilə yaşatmaq son dərəcə zəruridir.

***Ə.ƏLİYEV***
***XQ***

Yubiley məclisi

# Çağdaş poeziyamızın Vaqifi

**Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda qurumun İdarə Heyətinin və Avrasiya Yazarlar Birliyinin üzvü, “Azərbaycan Milli Ensiklopediyası” Elmi Mərkəzinin direktor müavini, Əməkdar mədəniyyət işçisi Vaqif Bəhmənlinin 70 illik yubileyi qeyd olundu.**



AYB sədrini müavini, Mətbuat Şurasının sədri, şair Rəşad Məcid məclisi açaraq yubilyarın həyat və yaradıcılığı barədə danışdı və ilk söz deməyi də elə ona həvalə etdi. “Vaqifin nağılı” adlı şeiri ilə poetik monoloquna başlayan Vaqif Bəhmənli sanki bununla da haqqında söylənləcək fikirlərə, bir növ, ayaq verdi. Ürək sözlərini söyləyən natiqlər onun insan, ziyalı və şair məziyyətlərini vurğulayaraq şeirin davamını gətirdilər:

**Kölgəsi qalın olsun, –**
**dilə gəldi yadlar da, -**
**fağır-fuğura damdı,**
**adı qalsın adlarda,**
**Vaqif yaxşı adamdı.**

Hələ 1979-cu ildə çıxmış ilk kitabı “Bahap-payız arası”ndan başlayaraq “Qansız savaş” və “Bağlı qapı açaram”a, eləcə də hələlik yarısı işıq üzü görmüş 15 cildlik “Əsərlər”inə, sanballı poemalarına qədər sözün qədrini artırmaqla özünün də qədrini artıran Vaqif Bəhmənlinin tərifini söyləyən heç kəs, necə deyərlər, üzgörənlik etməyə zərrəcə ehtiyac duymurdu. Hamı sidq-ürəklə danışırdı, hər kəs şairə səmimi sevgi və hörmətini dilə gətirirdi.

AYB-nin sədri, Xalq yazıçısı Anar, birliyin 1-ci katibi, Xalq yazıçısı Çingiz Abdullayev, akademiklər Nizami Cəfərov və Muxtar İmanov, yazıçı Seyran Səxavət, Milli Məclisin deputatı, yazıçı Aqil Abbas, tədqiqatçı-publisist Mustafa Çəmənli, şair Adil Cəmil, “Xalq qəzeti”nin baş redaktor müavini Tahir Aydınoğlu və başqaları çıxışlarında ruhu cavan, təbi rəvan şairin üstün keyfiyyətlərinə diqqəti cəlb etdilər, ona yaradıcılığında daha böyük uğurlar arzuladılar. Çıxışlararası bədii ricətləri ilə məclisi daha da canlandıran, rövnəqləndirən Vaqif Bəhmənli özü də bilmədən deyilənlərin sırf həqiqətə söykəndiyini təsdiqləmiş olurdu.

Xüsusi qeyd edildi ki, şairin publisistikası da, tərcüməsi də şairanədir. Bu baxımdan onun “Vətənin İlhamı. Ömürdən reportaj”, “Azərbaycanın xalq bayramı – Novruz”, “Maqomayev planeti”, “Heydər Əliyev adına”, “Hüseynqulu Sarabski”, “Qəzənfər Paşayev”, “İri planda Qulu Məhərrəmli”, “Sözün canı” kimi əsərləri, sadəcə, publisistik meyarlara cavab verən nümunələr kimi deyil, həm də ciddi elmi-ədəbi araşdırmaların nəticəsi kimi dəyərləndirildi.

Şairə təqdim olunan gül dəstələri, mükafat və hədiyyələr, çəkilən xatirə şəkilləri isə şərəflə yaşanan bir ömrün davam edən işıqlı akkordları kimi yadda qaldı. Hamı bir daha əmin oldu və arzuladı ki:

**Sinəm üstə cərgələnən kəlməyə bax,**
**Mən ki, sözün güllər açan talasıyam, –**

deyən şair hələ uzun illər oxucularına özünün bənzərsiz poetik rayihələri ilə könül xoşluğu bəxş edəcək.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Dünya kinosu Kann ekranında

**Bir neçə gündür ki, 78-ci Beynəlxalq Kann Film Festivalı kinosevərlərin diqqətini Kot d'Azurun mənzərəli paytaxtına yönəldib. Biz də Euronews telekanalının köməyi ilə oraya virtual səfər etdik.**

Bəri başdan deyək ki, bu il ilk dəfə olaraq Azərbaycanın “kinoyazar. az” saytı mötəbər festivalda iştirak üçün qeydiyyatdan keçib. Bu, Azərbaycan Kinematoqrafçılar İttifaqının təşəbbüsü ilə yaradılmış ilk və yeganə kinoşünaslıq saytımızdır.

Məşhur aktyorlar, rejissorlar, ssenaristlər və kino dünyasının nümayəndələri sənayenin ən nüfuzlu illik tədbirlərindən birinə qatılmaq üçün Fransanın cənub-şərqindəki Kann kurort şəhərində toplaşıblar. Proqram Amelie Bonninin “Once, Go Away” mahnısı ilə açılıb.




Məşhur aktyor, “Bir dəfə Amerikada” filmi ilə hamımızın sevimlisinə çevrilmiş amerikalı aktyor Robert De Niroya fəxri “Qızıl Palma budağı” mükafatı təqdim olunub.

Növbəti günlər ərzində festivalda Tom Kruzun, Spayk Linin və Ari Asterin Eddinqtonun son filmlərinin böyük premyeraları hər kəsə xoş təsir bağışlayıb.

Tədbirdə Hollivudun bir çox məşhurları iştirak edirlər. Açılış mərasimində qırmızı xalçadan keçən ulduzlar arasında Robert De Niro ilə yanaşı, Leonardo Di Kaprio, Quentin Tarantino və Jülyett Binoş da vardı.

Bu il festivalın münsiflər heyətinə dünya şöhrətli aktrisa Jülyett Binoş başçılıq edir.

Mayın 24-də təqdim ediləcək 2-ci əsas mükafat – “Qızıl Palma budağı” uğrunda 22 film mübarizə aparır. Bu sıraya



Ues Andersonun “Finikiyalı planı”, Riçard Linkleyterin “Yeni dalğa”, Lin Ramzeyin “Sevgimlə öl”, Yoahim Trierin “Sentimental Remint” və digər filmlər daxildir. Münsiflər heyəti bu filmlərin hamısına diqqətlə, necə deyərlər, “zərrəbinlə” baxacaq, yalnız sonra nüfuzlu rəqabətin əsas qalibini və digər mükafatçıları seçəcək.

Qeyd edək ki, Beynəlxalq Kann Film Festivalı ilk dəfə 1945-ci ildə təşkil olunmalı idi, Amma İkinci Dünya müharibəsi səbəbindən bir il ertələnərək 1946-cı ilin payızında “Casino de Cannes”də keçirilib. Sonralar şən avropalı təşkilatçılar darıxdırıcı və solğun payızdan rəngbərəng bahara adlamaq qərarına gələrək festivalı may ayında keçirməyə başladılar. Bu bayramın qan qaraldan səhifəsi də olub. Belə ki, 1975-ci ildə hansısa bir azlıq festivala etiraz etmək məqsədilə hücum təşkil edib və məkanı bombalayıb. Xoşbəxtlikdən bu hücumda ölən və yaralanan olmayıb.

Hazırda dünyanın ən məşhur kinofestivallarından biri sayılan Kann yarışmasında “Qran-pri”, “Qızıl Kamera” mükafatları da verilir. Bu festival “A” kateqoriyasına aiddir.

Onu da xatırladaq ki, Azərbaycan ötən il Kann festivalında təmsil olunub. Rejissor Azər Quliyevin “Sanki yoxsan” filmi orada yer alan, amma əsas müsabiqədənkənar filmlər arasında olub. Kim bilir, bəlkə də gələcəkdə “Qızıl Palma” mükafatını hər hansı bir Azərbaycan filmi də qazanar. Bu dəfə Fatih Akın, Kirill Serebrennikov, Sebastyan Lelio və digər rejissorların filmləri müsabiqədənkənar nümayiş etdiriləcək.

Bütün bunlar barədə “kinoyazar.az”ın müxbiri, kinotənqidçi Hacı Səfərov Kanndan eksklüziv olaraq “XQ”yə xəbər verdi.

– “Kann Beynəlxalq Kinofestivalı kino ilə maraqlanmağa başladığım ilk andan etibarən əlçatmaz, xəyali bir yer kimi təsəvvürümdə canlanırdı. İndi, budur, Kanndayam, – deyə o bildirdi. – Dünya kinosevərlərini hər il iki həftə özünə bağlayan və başqa heç bir mövzudan danışmağa imkan verməyən tədbirin keçirildiyi bu şəhər, sən demə, Bakının az qala bir mikrorayonu boyda balaca bir yerdir. Amma festival üçün akkreditasiya olunmuş mətbuat nümayəndələrinə xüsusi məktublar verilib ki, darıxsalar, Nitsadan Kanna qədər heç bir ödəniş etmədən səyahət edə bilsinlər. Bu festival hər ilin kino mənzərəsini formalaşdırır və önə çıxan mövzuların, qayğıların anonsunu verir. Festivalın əsas yarışmasında ilk göstərilən filmlərdən artıq iddialı filmlərin bizi gözlədiyi hiss olunur. Tamaşaçılar da filmlər barədə qızğın müzakirələr edir, onların vacib məqamlarını müəyyənləşdirməyə çalışırlar.

Hacı Səfərov festivalda gün ərzində 2 və ya 3 filmə baxıldığını da dedi: “İndiyədək ukraynalı rejissor Sergey Loznitsanın “İki prokuror”, alman rejissor Maşa Şilinskinin “Çöküşün səsi” adlı 2-ci tammetrajlı filminin, onun soydaşı Dominik Molun “Dosye 137”, Əlcəzair-Tunis kökənli Hafsia Erzinin çəkdiyi “Kiçik bacı”, fransalı Fatima Daasın “Sonuncu”, amerikalı Riçard Linkleyterin “Yeni dalğa”, həmçinin ispan əsilli fransalı Oliver Laşenin elə bu il çəkib qurtardığı “Sirat” filmləri böyük maraqla qarşılanıb”.

Festivalda kino əfsanələri ilə görüşlər də olur. Məsələn, yaşayan ən böyük yapon rejissorlardan biri olan Hirokazu Koreeda və qadın rejissor Çiye Hayakava ilə görüşlər iştirakçılarda zəngin təəssürat yaradıb. Müxbirin dediyinə görə, Fransa ünvanlı festivalın müsbət tərəfləri olduğu kimi, mənfi cəhətləri də az deyil. Bu mənfilər daha çox, festivalın uğurunun gətirdiyi dezavantajlardır. Hətta biletin olsa belə, sıraya girib içəriyə daxil olmaq üçün xeyli gözləməlisən. Bir də, təəssüf ki, müxtəlif ölkələrin pavilyonları olan ərazidəki siyahıda, nədənsə, Azərbaycanın adı yoxdur...

Həyəcan dolu Kann festivalına 3 gündən sonra yekun vurulacaq.

***Ə.ƏLİYEV***
***XQ***

Beynəlxalq həyat

# Cənubi Qafqazda 2 nəhəngin fərqli addımları

## *Hindistan silah satır, Çin isə yol çəkir*

**XX əsrin ortalarına qədər güclü dövlətlər dünya bazarları uğrunda rəqabət aparıblar. Bazar iqtisadiyyatının mahiyyəti budur: hər bir ölkə üçün istehsal etdiyi malların sərfəli qiymətlərlə satışı böyük önəm daşıyır. Ötən əsrin sonlarından qloballaşma prosesinin sürətlənməsi bu sahədə vəziyyəti xeyli dəyişdirdi.**




Belə ki, indi böyük güclər üçün təkcə bazarlar deyil, eləcə də qlobal ticarət yolları xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq tranzit infrastrukturlarına nəzarət edənlər, təbii ki, daha böyük iqtisadi dividentlər qazanırlar. Cənubi Qafqaz regionu isə mühüm iri tranzit yollarının kəsişdiyi coğrafi məkandır. Məhz bu amil bir çox supergüclərin bu regiona xüsusi diqqət yetirməsinə səbəb olur.

Bakı Dövlət Universitetinin professoru, tarix elmləri doktoru Atamoğlan Məmmədli bu məsələ ilə bağlı bizimlə söhbətində dedi ki, Cənubi Qafqaz bu gün artıq dünyanın nəhəng güclərinin maraq meydanına çevrilib. Həm "Kollektiv Qərb", həm də "Qlobal Cənub"un aparıcı dövlətləri regionda təsir imkanları əldə etmək üçün ciddi səylər göstərirlər. Bunu gözardı etmək qeyri-mümkündür.

Təəssüf ki, bəzi dövlətlər regionda xalqlar arasında nifaq salmaq, yeni münaqişə ocaqları yaratmaq yolunu tutublar. Cənubi Qafqazın lider dövləti Azərbaycan belə öz prinsipial və qətiyyətli siyasəti ilə bu qəbildən olan hər cür təxribatların qarşısını alır. Dünyanın mütərəqqi ictimai-siyasi dairələri bunun frəqindədir və rəsmi Bakını dəstəkləyirlər.

Professorun sözlərinə görə, Azərbaycanın 2020-ci ilin payızında xalqımızın əzəli və əbədi torpağı olan Qarabağı azad edərək öz suveren hüquqlarını bərpa etməsi regionda sülh və sabitliyin bərqərar olunması, Cənubi Qafqaz xalqlarını tərəqqi və intibahı üçün geniş imkanlar açıb. İşğalçı Ermənistanın isə hər cür təxribatlardan əl çəkərək, sülh sazişi imzalamaqdan başqa yolu qalmayıb.

Cənubi Qafqaz qlobal əməkdaşlıq və ticarət üçün son dərəcə əlverişli məkana çevrilməkdədir. Bu gözəl fürsəti qaçırmaq olmaz. Maraqlıdır ki, bir sıra böyük güclərin Cənubi Qafqaza yanaşmaları bir-birindən kəskin fərqlənir. Fikrimizi dünyanın əhalisinin sayına görə ən böyük ölkələri olan Çin və Hindistanın timsalında müqayisə edək.

Onların biri – Çin dövləti bizim regionda iqtisadiyyata və logistikaya sərmayə qoyur, digəri, yəni Hindistan isə bölgəni silahlandırmaqla geosiyasi müstəvidə təsir imkanlarını artırmağa çalışır. Təqdirəlayiq haldır ki, Pekin müstəqil Azərbaycanın bölgənin gələcəyi üçün həyata keçirdiyi sabitlik, inkişaf və tərəqqi yolunu dəstəkləyir. Hindistan isə İrəvanla birlikdə regionda yenidən qanlı münaqişələr törətmək üçün məkrli planlar qurur.

Çinin Cənubi Qafqaz siyasəti, ilk baxışda, sadə və aydın prinsiplərə söykənir: qarşılıqlı fayda, siyasi müdaxiləsizlik və uzunmüddətli sabitlik. Bu gün Çin həm Azərbaycan, həm də Gürcüstanla strateji tərəfdaşlıq münasibətləri qurmuş, "Orta dəhliz" layihəsi çərçivəsində real infrastruktur layihələrinə milyonlarla dollar vəsait yatırmışdır. Çin hökumətinin Gürcüstanda avtomagistrallar və dərin liman (Anakliya), Azərbaycanda isə nəqliyyat və energetika sahələrində iri layihələrə rəvac verməsi göz önündədir.

Çin bölgədə balanslı oyunçudur: o, Ermənistanla da ticarət əlaqələrini qoruyur, lakin siyasi və hərbi məsələlərə qarışmır. Hətta Ermənistanın əsas ixrac sektorlarından biri olan metallurgiya səanyesi bu gün, əsasən, Çin bazarına bağlıdır. Lakin Pekin bu əlaqələri hansısa geosiyasi blokların uzantısı kimi yox, qarşılıqlı ticarət maraqları çərçivəsində qurur. Rəsmi Pekin heç bir regional dövləti digərinə qarşı alətə çevirmir və süni bölücülük siyasətindən uzaqdır.

Hindistan isə fərqli mövqedədir. O, regionda demək olar ki, heç bir infrastruktur layihəsinə sərmayə qoymayıb. Əvəzində, Ermənistanla hərbi əməkdaşlıq quraraq ona radar sistemləri, raket kompleksləri və pilotsuz uçuş aparatları tədarük edir. Bu, bir tərəfdən Ermənistanın revanşist dairələrini gücləndirir, digər tərəfdən isə regionda yeni münaqişə risklərini artırır.

İrəvan unudur ki, Hindistanın ona satdığı raketlər modern çağırışlara cavab vermir. Bunu bu yaxınlardakı Hindistan-Pakistan müharibəsi də aşkar surətdə nümayiş etdirdi. Pakistanın Çin ilə birlikdə istehsal etdiyi raketlər mübahisəli Kəşmir vilayətinin hava məkanında rəqibin gözünü açmağa belə imkan vermədi. Pakistanlı pilotların peşəkarlığı və fədakarlığı da əlbəttə, öz sözünü dedi. Qatı millətçi Narenda Modi hökuməti Kəşmirlə bağlı yeni qəsbkar iddialarından geri çəkilməli oldu.

Hindistanın bu siyasəti, görünür, yalnız Ermənistanın deyil, həm də Fransanın maraqlarına xidmət edir. Paris uzun illərdir ki, regiona neokolonial yanaşma ilə müdaxilə etməyə çalışır. Bu gün Fransanın hərbi-siyasi təsirini bölgəyə Hindistan üzərindən proksi formatda ötürməsi müşahidə olunur. Ermənistanın isə bu siyasətə uyğun şəkildə, həm Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında qalması, həm də Qərb bloklarına inteqrasiyanı təşviq etməsi ikili oyunun göstəricisidir.

Fransanın Ermənistandan bir alət kimi istifadə etməyə çalışması səbəbsiz deyil. Qardaş Türkiyənin Cənubi Qafqaz regionunda artan nüfuzu E. Makron hakimiyyətini çox narahat edir. "Sahel Afrikası" ölkələrində siyasi-iqtisadi mövqelərini Çin, Türkiyə və başqa dövlətlərə uduzan Fransa "Qara qitə"də itirilmiş mövqelərini bərpa etməyə çalışır. Bu isə qeyri-mümkündür.

Azərbaycan və Gürcüstan dövlətləri Cənubi Qafqazda yaranmış mövcud vəziyyətdə sabitliyin və iqtisadi inkişafın tərəfdarı olaraq önə çıxıblar. Hər iki ölkə nəqliyyat və logistika sahəsində beynəlxalq layihələrdə fəal iştirak edirlər. Orta Dəhliz və Şimal–Cənub marşrutları onların iştirakı olmadan sadəcə xəritə üzərində qalardı. Azərbaycan bu baxımdan təkcə tranzit ölkəsi deyil, həm də regional enerji təhlükəsizliyinin əsas sütunlarından biridir.

Ermənistan isə özünü daha çox geosiyasi manipulyasiyaların obyektinə çevirib.

Ermənistanın baş naziri N.Paşinyan hökuməti azad, müstəqil xarici siyasət aparmaq iqtidarında deyil. "Zəngəzur dəhlizi"nin açılması ilə bağlı real addımlar atmayan, Cənubi Qafqazın iqtisadi xəritəsində təcrid vəziyyətindən çıxmayan bir ölkə olaraq, Ermənistan hələ də silahlandırma və "xarici havadar" axtarışındadır. Bu isə yalnız bölgədə militarizasiya tendensiyalarını gücləndirir və təhlükəsizlik balansını pozur.

Sual olunur: yaxın gələcəkdə Cənubi Qafqz xalqlarını hansı ssenarilər gözləyə bilər? Burada iki yol var: Birinici yol sivil dünyanın dəstəklədiyi regionda iqtisadi əməkdaşlıq yoludur. İkinci yol isə qlobal qarşıdurmaya aparır. Əlbəttə, Azərbaycan öz müttəfiqləri və strateji tərəfdaşları ilə birlikdə 1-ci yolu seçib və bu istiqamətdə ciddi səylər ortaya qoyur. Ermənistan isə regionu yeni qarşıdurma müstəvisinə çevirməyə cəhd edir. Bu, yolverilməz olduğu qədər antihumanist mövqedir!

Cənubi Qafqazın gələcəyi bu iki ssenari arasında düzgün seçim etməkdən asılıdır. Bölgəni ya Çin modelində olduğu kimi, qarşılıqlı iqtisadi əməkdaşlıq, ya da Hindistanın təqdim etdiyi silahlanma və qarşıdurma ssenarisi gözləyir. Əgər Hindistan Cənubi Qafqazdakı siyasətində korrektə apararaq real infrastruktur layihələrinə sərmayə yönəltsə və dialoq ruhunu təşviq etsə, regionda sülh və sabitlik daha tez bərqərar ola bilər. Lakin millətçi N.Modi hökumətindən bunu gözləmək sadəlövhlük olardı.

Tarixin inkişaf təkərini heç kim geri döndərə bilməyib. Ümid edirik ki, Azərbaycanın və onun müttəfiqlərinin qətiyyətli və prinsipial mövqeyi Cənubi Qafqaz regionunda sülh və sabitliyin güclənməsinə, nəticədə, bölgədə inkişaf və tərəqqinin sürətlənməsinə yol açacaq.

***Məsaim ABDULLAYEV***
***XQ***

# "Bağlı qapı" siyasəti ABŞ turizminə sədd çəkir



**AFP xəbər verir ki, dünyanın ən böyük iqtisadiyyatına malik olan Amerika Birləşmiş Ştatları 2025-ci ildə təxminən 12,5 milyard dollar xarici turist gəliri itirəcək. World Travel & Tourism Council (WTTC) və Oxford Economics-in araşdırmalarına görə, yalnız ABŞ bu il beynəlxalq turist xərclərində azalma görəcək.**

Məqalədə deyilir ki, gəlirlərin azalmasının səbəbi prezident Donald Tramp administrasiyası dövründə immiqrasiya siyasətinin sərtləşdirilməsi, həmçinin siyasi bəyanatlar, ticarət tarifləri və digər ölkələrdə Amerika mallarını boykot etmək və ABŞ-a səyahət etmək çağırışları ilə bağlıdır. Nəticədə, ümumi beynəlxalq turizm xərcləri on il əvvəl müəyyən edilmiş pik səviyyədən 22,5 faiz aşağı olmaqla 181 milyard dollara düşəcək.

WTTC-nin baş direktoru Julia Simpson deyir ki, vəziyyət Amerika iqtisadiyyatına ziyan vurur, ölkə daxilində icmalara, iş yerlərinə və müəssisələrə təsir edir. O, ABŞ hökumətini daha da gerilləmənin qarşısını almaq üçün turizm sənayesinə dəstək verməyə çağırır.

Digər ölkələr aktiv şəkildə turistləri cəlb edərkən, ABŞ siyasəti "qapalı qapı" təəssüratı yaradır ki, bu da onun qlobal turizm sənayesindəki mövqeyini pisləşdirə bilər.

Bəs bu, uzunmüddətli perspektivdə ABŞ iqtisadiyyatına necə təsir edəcək? Hesablamara görə, uzunmüddətli perspektivdə xarici turizm gəlirlərinin azalması ABŞ iqtisadiyyatı üçün bir sıra mənfi nəticələrə səbəb ola bilər. Birinci, turizm sənayesi otel və restoranlardan tutmuş hava yolları və pərakəndə satışa qədər milyonlarla işi dəstəkləyir. Turistlərin sayının azalması bu sektorlarda kütləvi ixtisarlara səbəb ola bilər.

İkincisi, regional iqtisadiyyatların zəifləməsinə gətiric çıxara bilər. Belə ki, ABŞ-ın bir çox şəhərləri və ştatları böyük dərəcədə turizm gəlirlərinə güvənirlər. Xarici ziyarətçilərin sayında azalma turizmin əsas gəlir mənbəyi olduğu regionlarda iqtisadi fəallığı azalda bilər.

Üçüncüsü, beynəlxalq təsirin azalması da müzakirə mövzusudur. Yəni turizm beynəlxalq əlaqələri, mədəni mübadiləni təşviq edir və diplomatik əlaqələri gücləndirir. ABŞ-a turist axınının azalması onun investorlar və beynəlxalq biznes üçün cəlbediciliyinin azalmasına səbəb ola bilər.

Uzunmüddətli iqtisadi itkilərin də baş verəcəyi mümkündür. Ekspertlərin sözlərinə görə, ABŞ "qapalı ölkə" imicini təşviq etməyə davam edərsə, onun yerini başqa turizm istiqamətləri tuta bilər. Rəqabət edən ölkələr öz turizm bazarlarını fəal şəkildə inkişaf etdirir, stimullar təklif edir və infrastrukturu yaxşılaşdırır ki, bu da turist axınının yenidən bölüşdürülməsinə səbəb ola bilər.

Buna görə də, analitiklər düşünürlər ki, itkiləri kompensasiya etmək üçün Amerika hökuməti immiqrasiya siyasətinə yenidən baxmalı, viza prosedurlarını sadələşdirməli və reklam kampaniyaları ilə turistləri aktiv şəkildə cəlb etməlidir. Məhz turizm sənayesinə dəstək iqtisadi itkilərin bərpası üçün əsas olacaq.

Bəs Birləşmiş Ştatlara beynəlxalq turizmin azalması qlobal iqtisadiyyata necə göstərəcək? Mütəxəssislərin sözlərinə görə, bu proses ilk növbədə turizm xərclərinin yenidən bölüşdürülməsinə gətirib çıxaracaq. Əvvəllər ABŞ-a səfər etmiş turistlər indi başqa ölkələri seçəcəklər ki, bu da Avropa, Asiya və Latın Amerikasında turizm gəlirlərini artıracaq.

İkincisi, bu, valyuta axının istiqamətini də dəyişdirəcək. Xüsusən də digər ölkələr daha çox turist cəlb etməyə və valyuta ehtiyatlarını artırmağa başlasa, bu, dollara təsir göstərəcək.

Üçüncü təsir amillərindən biri hava səyahətinə marağın azalması olacaq. Daha doğrusu, Birləşmiş Ştatlara uçuşlara tələbatın azalması marşrutların dəyişməsinə və digər istiqamətlərə biletlərin bahalaşmasına səbəb ola bilər.

Bundan başqa, turizm beynəlxalq münasibətlərdə mühüm rol oynayır. Birləşmiş Ştatlara turist səfərlərinin azalması ölkənin dünya səhnəsindəki qavrayışına və diplomatik əlaqələri təsir göstərə bilər.

***S.ELAY***
***XQ***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan taxta materiallarının satın alınması məqsədilə*

AÇIQ TENDER ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2025-ci il mayın 29-u saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində,2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1263.

Ünvan- Bakı, Mikayıl Useynov küçəsi 2.

"Naftalan – Avtonəqliyyat" ASC
səhmdarlarının nəzərinə!

25 iyun 2025-ci il saat 11.00-da "Naftalan –Avtonəqliyyat" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Gündəliyə aşağıdakı məsələlər daxildir:

1." Naftalan –Avtonəqliyyat" ASC-nin 2024 –cü il üçün illik hesabatı.

2. "Naftalan–Avtonəqliyyat"ASC-nin idarə heyətinin üzvlərinin və sədrinin seçilməsi.

3. "Naftalan –Avtonəqliyyat"ASC-nin 2025-ci ildə görüləcək plan və göstərişlərin müzakirəsi.

Gündəliyin materialları ilə tanış olmaq üçün "Naftalan –Avtonəqliyyat" ASC-nin inzibati binasında hər gün saat 9.00-dan 18.00-dək tanış olmaq mümkündür.

İclasın keçiriləcəyi ünvan-Naftalan şəhəri,İ.Nəsimi küçəsi 10, "Naftalan –Avtonəqliyyat" ASC-nin inzibati binası.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 105 (30799) 22 may 2025-ci il, cümə axşamı

# Bakıda minifutbol üzrə Dünya çempionatı

## Millimiz ilk oyunda heç-heçə edib

**Bakıda minifutbol üzrə dünya çempionatı başlayıb.**

Milli Gimnastika Arenasında təşkil olunan mundialın açılış mərasimində əvvəlcə Azərbaycanın Əməkdar artisti Səbinə Babayevanın ifasında Dövlət Himni səsləndirilib.

Fransalı məşhur fristayler, Dünya çempionu Arno Qarnye tamaşaçılara maraqlı çıxışlar nümayiş etdirib. Azərbaycanın Xalq artisti Aygün Kazımova və türkiyəli müğənni Aleyna Tilki də səhnəyə çıxıblar.

A qrupunda yer alan millimizin Bəhreynlə oyun öncəsi Azərbaycanın minifutbol yığmasında karyeralarını başa vuran 4 futbolçuya – Tural Nərimanov, Davud Kərimi, Seymur Məmmədov və Bəxtiyar Soltanova yığmada göstərdikləri xidmətlərə görə təşəkkür edilib və hədiyyə təqdim olunub.

Sonra oyun başlayıb. Millimizin ilk oyununda qalib müəyyənləşməyib və tərəflər hərəyə 1 dəfə fərqləniblər. Yığma üzvlərindən Mirmehdi Rzayev (15) dəqiq zərbə ilə topu qapıdan keçirib. Rəqibin qolunun müəllifi isə Ahmed Antar (25) olub.

Qrupun digər görüşündə, gecə saatlarında Mavritaniya və Sloveniya kollektivləri üz-üzə gəliblər.

Turnirdə artıq 5 oyun arxada qalıb. Fransa Çada (1:0), Portuqaliya Bolqarıstana (3:1), İngiltərə Ukraynanaya (4:0), Slovakiya isə Hindistana (15:0) qalib gəlib. Macarıstan - Türkiyə qarşılaşmasında isə qalib müəyyənləşməyib - 1:1.

Azərbaycan seçməsi növbəti matçını mayın 23-də Slovakiyaya qarşı keçirəcək. Mundiala iyunun 1-də yekun vurulacaq.

*L.QURBANOVA*
*XQ*





## Formula 1 tribunalarında yerlərin sayı 20 mini keçəcək



**“Formula 1 Qatar Airways” Azərbaycan Qran-Prisi 2025-ə hazırlıq işləri davam etdirilir.**

Bu il Bakı Şəhər Halqasında iki əlavə tribunanın quraşdırılması nəzərdə tutulub. Artıq Bakı Şəhər Halqası ətrafında tribunaların quraşdırılmasına başlanılıb. Həm yerli, həm də xarici azarkeşlər tərəfindən Azərbaycan Qran-Prisinə artan marağı nəzərə alaraq, infrastrukturun genişlənməsi nəticəsində tribunaların tutumu 1500 yer artırılaraq 20 mini keçəcək. Formula 1 2024-ü 4 gün ərzində tribunalardan canlı olaraq 76 mindən çox azarkeş izləyib.

Hazırlıq işləri ilə əlaqədar olaraq Dənizkənarı Bulvarın bəzi hissələrində müvəqqəti məhdudiyyətlərin tətbiq olunması nəzərdə tutulur. Paytaxt sakinlərindən və qonaqlardan bu müddət ərzində anlayış göstərmələri xahiş olunur.

Qeyd edək ki, Formula 1 Azərbaycan Qran-Prisi 2025 sentyabrın 19–21-də keçiriləcək.

## Ulu öndərə həsr olunmuş ciu-citsu turniri



**Azərbaycan Braziliya Ciu-Citsu Klubu İctimai Birliyinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilmiş turnir keçirilib.**

Yarışda Bakı şəhəri və respublikanın müxtəlif bölgələrindən ayrı-ayrı yaş qrupları və çəki dərəcələrində olan 200-ə qədər uşaq, yeniyetmə və gənc ciu-citsu döyüş sənətinin Gi və No-Gi versiyaları üzrə güclərini sınayıblar.

Yekun nəticəyə görə, Suraxanı Braziliya ciu-citsu komandası 1-ci yeri tutub. İkinci yeri Bakı Braziliya ciu-citsu Akademiyası tutub. Üçüncü yerə isə Əkbər Hadiyev Braziliya ciu-citsu komandası layiq görülüb.

Turnirdə güclərini nümayiş etdirən idmançılar sonda medal, sertifikat və mükafatlarla təltif olunublar.

## Milli həndbol kubokunda ilk finalçı məlumdur




**Həndbol üzrə Azərbaycan kubokunda yarımfinal mərhələsinə start verilib.**

İlk oyun günündə əvvəlcə qadınlardan ibarət “Qarabağ” və “Azəryol” komandaları meydançaya çıxıb. “AHF Arena”da keçirilən görüşün ilk hissəsi nominal qonaqların 3 xallıq üstünlüyü ilə yekunlaşıb - 17:14. Fasilədən sonra da təşəbbüsü əldən verməyən “Azəryol” matçı 35:26 hesablı qələbə ilə başa vuraraq həlledici mərhələyə vəsiqə qazanıb.

Qeyd edək ki, digər finalçı bu gün keçiriləcək “Kür” – “İdman Akademiyası” görüşündə müəyyənləşəcək.

*L.AZAD*
*XQ*

## Şam yağı – sağaldır boğazı, burunu, qulağı



**Ağ şam ağacı yağının çox güclü antiseptik, iltihab və virus əleyhinə təsiri var. İmmuniteti möhkəmləndirir, dərinin və selikli qişaların bərpasını sürətləndirir.**

Fitoterapevtlər bildirirlər ki, ağ şam ağacı yağı böyümüş adenoidləri kiçiltməyə qadirdir. Bunun üçün gündə 2–3 dəfə buruna 3–4 damcı yağ tökmək lazımdır. Müalicə uzunmüddətli olur, lakin çox yaxşı təsir edir. Yağdan haymorit zamanı damcı və inhalyasiya şəklində istifadə olunur. İnhalyasiya üçün 0,5 litr isti suya 10 damcı yağ əlavə edilir. Xəstə bu suyun buxarından nəfəs alır. Bronxit, öskürək, zökəm zamanı inhalyasiyalar nəfəs yollarına antiseptik təsir edir, mikrobları öldürür, bəlğəmin çıxmasını asanlaşdırır.

Otit (orta qulaq iltihabı) zamanı qulağa yağda isladılmış pambıq qoyulur və arxasındakı dəriyə çəkilir. Ağızın selikli qişasında müxtəlif yaralar zamanı yeməkdən sonra həmin nahiyələrə yağ çəkilir. Damaqların iltihabında gündə 2–3 dəfə pambıq yağda isladılıb damağa qoyulur.

Qrip və soyuqdəymənin ilk simptomlarında buruna tökülən 2–3 damcı məlhəm immuniteti qaldırır. Dəridə kiçik yaralar, sızanaqlar zamanı da bu yağdan istifadə çox yaxşı təsir edir.

*Z.HÜSEYNLİ*
*XQ*

## “Kontrabas” monotamaşa festivalında



**Qazaxıstanın Kustanay şəhərində “Monofest” teatr festivalı keçirilib. Ölkəmizi festivalda Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrının aktyoru, Əməkdar artist Şövqi Hüseynov təmsil edib. Aktyor bu barədə dedi:**

– Festivalda 6 gün ərzində 12 tamaşa nümayiş olundu. Biz festivala Patrik Züskindin “Kontrobas” monotamaşası ilə qatıldıq. Tamaşa yüksək səviyyədə qarşılandı. Bağlanış mərasimində isə müxtəlif nominasiyalar üzrə mükafatlar təqdim olundu. “Kontrobas” monotamaşası 2 nominasiya üzrə – “Bədii konsepsiya və parlaq ifa harmoniyasına görə” və “Tamaşaçı rəğbətinə görə” mükafatlara layiq görüldü. Festival müddətində, digər ölkə teatrlarının aktyor və yaradıcı heyəti ilə görüşlər keçirdik, gələcək festivallar barədə müzakirələr apardıq. Yeni bir məlumatı da nəzərinizə çatdırım. Növbəti teatr festivalı isə iyunun 1-dən 8-nə qədər Udmurtiya Respublikasının paytaxtı İjevsk şəhərində baş tutacaq. Orada da “Kontobas” monotamaşası ilə iştirak edəcəyik.

Qeyd edək ki, uzun illərdir teatrın repertuarında olan və bir çox festivallarda uğurla nümayiş etdirilən səhnə işi ensiklopedik biliklərə malik qəhrəmanı və onun həyata baxışlarını nümayiş etdirir. Sarkazm və yumoristik məqamlarla zəngin olan tamaşada qəhrəmanımızın yeganə ünsiyyət vasitəsi isə kontrabasdır. O bu musiqi aləti ilə xoş ünsiyyət qururaq, tamaşaçılara “insan öncə özü-özünə sədaqətli olmalıdır” mesajını ötürür.

*Fidan SALMANOVA*
*XQ*

**HAVA**

## Aranda yağmursuz, dağlarda yağış və duman...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 22-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Mülayim şimal-qərb küləyi əsəcək, səhər şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 15-17°, gündüz 22-27° isti olacaq. Atmosfer təzyiqi 765 mm civə sütunu, nisbi rütubət 50-60 faiz olacaq.

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 14-18°, gündüz 24-29°, dağlarda gecə 5-10°, gündüz 13-18° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3468
SİFARİŞ 984
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00